**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVAN MUXTAR RESUBLİKASINDA SAHİBKARLIĞIN İNKİŞAFININ İNNOVATİV PROBLEMLƏRİ

İxtisas: 5308.01 – “Ümumi iqtisadiyyat”
Elm sahəsi: İqtisad elmləri

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş

**DİSSERTASİYA**

İddiaçı: ______________ **Abbas Elçin oğlu Musayev**

Elmi rəhbər: ______________ iqtisad elmləri doktoru, professor,
əməkdar elm xadimi, Şöhrət ordenli
**Əli Qənbərəli oğlu Əlirzayev**

**NAXÇIVAN – 2025**

**MÜNDƏRİCAT**

**GİRİŞ................................................................................................3**
**I FƏSİL. SAHİBKARLIĞIN İNKİŞAFININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**
1.1. Sahibkarlığın sosial-iqtisadi mahiyyəti və əsas vəzifələri..............................10
1.2. Sahibkarlığın sosial-iqtisadi rolu və qiymətləndirilməsi................................22
1.3. Regional sahibkarlığın xüsusiyyətləri..........................................................34
**II FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SAHİBKARLIĞIN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**
2.1. Naxçıvan Muxtar Respublikasında sahibkarlığın təhlili və meylləri ................46
2.2. Sahibkarlığın məşğulluq və sosial inkişafa təsiri və qiymətləndirilməsi...........58
2.3. Sahibkarlığın bazar məhsullarına və xidmətlərinə təsiri..................................75
**III FƏSİL. NAXÇIVANDA SAHİBKARLIĞIN İNNOVATİV İNKİŞAF İSTİQAMƏTLƏRİ**
3.1. Kiçik sahibkarlıqda innovativ metodlar və mexanizmlər ................................88
3.2. Sahibkarlığın Naxçıvan Muxtar Respublikasında perspektiv istiqamətləri və təşkilatı-iqtisadi tədbirləri.........................................................................101
3.3. Sahibkarlığın inkişafında təşkilatı mexanizmlərin təkmilləşməsi................1122

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................................................127**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI .......................................1355**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İqtisadi və sosial inkişafın nəzəri-metodoloji əsasları və onun region, respublika səviyyəsində praktiki təşkili elmi və praktiki əhəmiyyət kəsb edir.

Müasir şəraitdə dünyəvilik və yerli tələbatların uzlaşması, qarşılıqlı əlaqəsi və inteqral effekti baxımından da regionlarda sahibkarlığın inkişafının innovativ problemlərinə həsr olunan tədqiqat aktuallığı ilə səciyyələnir. Dünya standartlarına uyğun əhali rifahının yüksəldilməsi bu sahədə geniş imkanlar yaratmaq və onlardan istifadə etmək texnologiyalarını, eləcə də elmi innovasiyalı tədbirlərin hazırlanması və istifadəsi yollarını tələb edir.

Hər bir ölkənin iqtisadi və sosial inkişafı, həmin ölkənin iqtisadi potensialı onun iqtisadi dövriyyəyə cəlb edilmə intensivliyi və idarəetmə bacarığından asılıdır. Bu baxımından innovasiyalı yanaşma həm struktur dəyişmələri, həm də tənzimlənən siyasətin formalaşma istiqamətlərini müəyyənləşdirir. Sahibkarlıq müasir iqtisadi sistemin mexanizmi və sosial-iqtisadi inkişafın amili kimi nəzəri və metodoloji tədqiqat obyektidir. Bu obyektin kompleks və sistemli tədqiqi, onun perspektiv inkişaf strategiyasının əsaslandırılması elmi biliklər, çevik və adekvat iqtisadi siyasət, sosial himayəçilik bilikləri və yanaşmaları tələb edir.

İnnovasiya anlayışı sahibkarlıq anlayışı qədər böyük məna kəsb etməsədə geniş proses olduğundan onu müəyyən etmək və ölçməkdə bəzi çətinlikləri olan bir anlayışdır. Yeni ideyanın ortaya çıxması, onun icada çevrilməsi, kommersiyalaşdırılması, bazarda qəbul edilməsi və sərbəst şəkildə istifadə edilməsi innovasiya kimi müəyyən edilə bilər.

İnnovasiya və sahibkarlıq anlayışları bir-biri ilə yaxın olan anlayışlardır. Müasir bazar iqtisadiyyatı və qloballaşma şəraitində rəqabətə davamlılıq üçün sahibkarlar yenilikçi olmalıdırlar. Makro səviyyədə baxıldıqda, iqtisadi artıma və inkişafa nail olmaq istəyən ölkələr sahibkarlıqda innovasiyaları dəstəkləməkdən əlavə, sahibkarlıq və innovasiya mədəniyyəti yaratmalıdırlar.

Məşğulluğun, texniki tərəqqinin, davamlı iqtisadi artımın və innovasiyanın əsas mənbəyi kimi qəbul edilən sahibkarlıq ölkələr və hətta eyni ölkənin regionları üzrə səviyyə və tip olaraq əhəmiyyətli şəkildə fərqlənir. Ümumilli lider Heydər Əliyev sahibkarlarla görüşdə demişdir: *"Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq və sahibkarlığın inkişaf etdirilməsi üçün bundan sonra lazım olan tədbirlərin həyata keçirilməsi ilə məşğul olacağıq"* [9, s.29]. Sahibkarlıq fəaliyyətinin ümumölkə miqyası ilə yanaşı, regional müstəvidə prioritet istiqmətlərinin tədqiqata cəlb olunması özünəməxsus əhəmiyyət daşımaqdadır. Bütün bunlar tədqiqat işinin aktuallığını özündə ehtiva edir.

İqtisadi ədəbiyyatda və praktikada sahibkarlığın tədqiqi və idarəedilməsi aspektində işlər mövcuddur. Sahibkarlığın makro və mikro səviyyəli problemləri Azərbaycan timsalında tədqiq olunub. *"Müasir milli iqtisadi ədəbiyyatda sahibkarlığın mahiyyəti Ə.Q.Əlirzayev, A.Ş.Şəkərəliyev, Ş.Ə.Səmədzadə, R.A.Quliyev, V.M.Niftullayev, Q.N.Manafov, R.A.Abbasova, N.H.Əhmədov, T.A.Abbasov, A.A.Rüstəmov, Ə.X.Cabbarov, M.T.İmanova, C.İ.Mahmudov, Ə.Ş.İmanov, A.B.Abbasov, A.H.Tağıyev, S.A.Fərzəliyev, V.R.Musayev, İ.F.Seyfullayev, F.H.Abbasov və başqalarının əsərlərində təhlil edilir. Qeyd etdiyimiz iqtisadçı alimlərin tədqiqatlarında sahibkarlıq fəaliyyətinin səciyyəvi xüsusiyyətləri kimi müstəqillik (əmlak və təsərrüfat), sistemlilik, mənfəət əldə etmək (fəaliyyətin məqsədi kimi), risk, qanunilik (müəyyən edilmiş qaydada qeydiyyat), müstəqil əmlak məsuliyyəti, fəaliyyətin innovativ xarakteri fərqləndirilir. Sahibkarlıq fəaliyyətinin innovativ xarakteri, onun mübahisəli və müzakirəyə ehtiyacı olan ən əsas xüsusiyyətlərindən biridir"* [90, s.32].

Mövcud tədqiqatlarda və praktiki təcrübədə sahibkarlığın iqtisadi, sosial tənzimləmə metodları və mexanizmlərinə ayrı-ayrılıqda baxılıb, amma sahibkarlığın regional aspektləri və innovativ yanaşma mexanizmləri ilə tədqiqi kompleks və sistem baxımından tədqiq edilməyib. Bu baxımdan sahibkarlığa sosial-iqtisadi inkişaf mexanizmi, amili və siyasəti kimi baxılması yeni yanaşmadır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti sosial-iqtisadi münasibətlər sistemində sahibkarlıq fəaliyyətinin rolundan və strateji inkişaf istiqamətlərindən, regionun inkişafına sahibkarlığın təsirindən ibarətdir. Tədqiqat işinin əsas predmetini Naxçıvan Muxtar Respublikasında sahibkarlığın innovativ problemləri və innovativ sahibkarlığın əhəmiyyəti təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi müasir şəraitdə sahibkarlığın innovasiyalı inkişaf problemlərini tədqiq etmək və Naxçıvan MR-də onun əsas istiqamətlərini müəyyənləşdirməkdir. Məqsəd Naxçıvan MR-in inkişaf strategiyası ilə sahibkarlıq inkişaf strategiyası arasında tarazlı meylləri və təsirləri tənzimləməkdir.

Dissertasiyanın məqsədinə müvafiq aşağıdakı vəzifələrin nəzəri və praktiki həlli məqsədəuyğun sayılmışdır:

- Sahibkarlığın sosial-iqtisadi rolunu kompleks, sistemli meyar və göstəricilərlə tədqiq etmək;
- Regional inkişaf konteksində Naxçıvan MR-in inkişafında sahibkarlığın təsiri və rolunun, onun səmərəli təşkilinin dəyərləndirilməsi;
- Sahibkarlığın rəqabət mühiti şəraitində regional inkişafının əsas istiqamətlərinin əsaslandırılması;
- İnnovasiyalı sahibkarlığın xüsusiyyətlərini, maddi, maliyyə, təşkilati quruluşunu regionun timsalında aydınlaşdırılmaq;
- Sahibkarlığın innovativ amillərinin və Naxçıvan MR-in iqtisadi və sosial inkişafının strukturunun, eləcə də yeni formalarının dinamikasını proqnozlaşdırmaq;
- Naxçıvanın iqtisadi və sosial inkişafının təsirlərini nəzərə almaqla tranzit və sərhədyanı resursların səmərəli istifadə yollarını dəqiqləşdirmək;
- Naxçıvan MR-in resurs potensialının şaxələnməsi konsepsiyasına uyğun olaraq sahibkarlıq fəaliyyətinin əsas konturunu və onun kompleks təşkili metodlarını vermək;
- Naxçıvanın ərazi və sahələr üzrə daxili istehlak bazarı və ixracat potensialının proqnozunu, hədəfləri və təşkilati quruluşunu əsaslandırmaq;

- Naxçıvanın sosial və iqtisadi inkişaf strategiyasına dair təşkilatı mexanizmlərin, o cümlədən subsidiya, güzəşt və dəstək proqramlarının nəzəri və metodoloji aspektlərini təhlil etməklə tövsiyyələr vermək;

- Naxçıvan MR-in sosial-iqtisadi inkişaf strategiyasında sahibkarlıq fəaliyyətlərinin səmərəli variantını, onun prioritet istiqamətlərini və tənzimlənməsi metodlarını təklif etmək.

**Tədqiqat metodları.** Tədqiqat işində regional meyarlar, xarici iqtisadi əlaqələr, beynəlxalq tranzit infrastruktur və sosial inkişaf konteksində sistemli yanaşmaya yer verilməklə məntiqi ümumiləşdirmə, statistik təhlil, induksiya, deduksiya, müşahidə, müqayisə və təhlil metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Sahibkarlıq fəaliyyətinin kompleks və sistemli təsviri məsələləri, həmçinin onun reallaşması üçün zəruri mexanizmlərin aktuallığının nəzərə alınması;

- Sahibkarlığın sosial-iqtisadi inkişaf amili və sosial müdafiə üçün əsas strategiya kimi baxılması;

- Sahibkarlıq fəaliyyətinin Naxçıvan Muxtar Respublikasında makroiqtisadi inkişaf üzrə təminatı, eyni zamanda dayanıqlı resurs və təşkilati mexanizm kimi tədqiqi;

- Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyətində innovativ yanaşma metodlarının təşkili;

- Əhalinin rifahı və sosial müdafiəsi üçün əməktutumlu sahələrin inkişafı və istehlak səbətinin müasir ərzaq və xidmət məhsulları ilə ödənilməsinin əsas istiqamətlərinin ortaya qoyulması;

- Muxtar Respublikada məskunlaşma və məşğulluğun ərazi səmərəsini yüksəltmək üçün planlaşma və proqnozlaşma, həmçinin məhsuldar qüvvələrin yerləşməsi sxemlərinin verilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi aşağıdakı cəhətlərlə müəyyənləşir:

- Sahibkarlıq regional inkişaf, tarazlı və balanslı meyillər konteksində öyrənildiyindən həllini tapan problemlər tam yeni və müasirdir;
- Sahibkarlığa münasibətlər sistemi kimi baxılır, iqtisadiyyatın bu fəaliyyət sahəsi istehsal, bölgü və rifah sisteminə təsir gücünə malik prioritet amil kimi tədqiq edilir;
- İqtisadi inkişaf mexanizmi və sosial müdafiə metodu olaraq sahibkarlığın səmərə göstəriciləri və bu fəaliyyət modelində bazar tələbatına uyğun bacarıqlar və istehlak məhsulları xidmətləri inkişaf və tənzimləmə aspektləri baxımından tədqiq olunur;
- Sahibkarlığın məhz resurs potensialı zəminində inkişafı əsaslandırılır, perspektiv resurs bazarının təkrar istehsal və bölgüyə səmərəli təsiri aydınlaşdırılır və onun nəticələri qiymətləndirilir;
- Naxçıvanda sahibkarlığın fəaliyyət sahələri, cari və perspektiv inkişaf istiqamətlərinə uyğun transformasiya modeli verilir. Kənd təsərrüfatı, emal sənayesi və infrastruktur prioritet sahələr kimi gündəmə gətirilir;
- Sahibkarlığın xüsusi forması olan ev təsərrüfatı, özünəməşğulluq, ailə və icma təsərrüfatı, kollektiv və himayəçilik metodlarının Naxçıvanda stimullaşması yolları dəqiqləşdirilir;
- Naxçıvanda sahibkarlığın prioritet istiqaməti olaraq məskunlaşma, rifah və sosial inkişaf istiqamətlərinin ərazi və sahə quruluşu əsaslandırılır;
- Naxçıvan ərazisində nəqliyyat və xidmət sferasının inkişafının biznes mühiti üçün əlverişli şərait yaratmasını sübüt edən təhlil və proqnoz modeli verilir. Bu məqsədlə tranzit potensialından istifadə yolları müəyyənləşir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti onun bir sıra kateqoriya və iqtisadi proseslərə müasir şəraitdə iqtisadi və sosial elmlərin tələbləri baxımından qiymət vermək və onun nəticələrini praktikada istifadə etməkdir. İşin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, sahibkarlığa sosial və iqtisadi artım hədəfləri baxımından yanaşılaraq onun hədəf və nəticələri qiymətləndirilmiş bu zəmində iqtisadiyyat elmi yeni müddəalarla zənginləşdirilmişdir.

Dissertasiya işinin praktiki əhəmiyyəti onunla müəyyənləşir ki, innovasiyalı iqtisadi inkişaf şəraitində Naxçıvan MR-in sosial-iqtisadi inkişaf strategiyasında sahibkarlığın təşkili və metodiki aspektlərini tərtib etmək və istifadə etmək qaydalarını formalaşdırır. Naxçıvan iqtisadiyyatının transformasiya modeli həyata keçirilərkən, onun yeni iqtisadi və mədəni əlaqələr sistemində rolu və perspektivi müəyyənləşdirilərkən dissertasiyadan istifadə etmək məqsədəuyğundur.

Naxçıvan MR-də islahatlar proqramlarını tərtib etmək, konkrekt vəzifələri formalaşdırmaq və reallaşdırmaq mexanizmləri tətbiq edilə bilər. İqtisadi və sosial əlaqələr sisteminin yeni forma və məzmunu şəraitində idarəetmə icra mexanizmlərini təkmilləşdirir.

**Tədqiqat nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu 30 noyabr 2021-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin Elmi şurasında (protokol №05) təsdiq olunmuş, 28 fevral 2022-ci il tarixdə Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası İctimai Elmlər üzrə Problem Şurasında (protokol №1) qeydiyyata alınmışdır. Dissertasiya işinin nəticələrinə dair 12 elmi əsər (8 məqalə, 4 konfrans materialları) dərc olunmuşdur. “The role of entrepreneurship in ensuring regional development” mövzusunda beynəlxalq elmi konfransda (Lviv, Ukrayna, 2023), “The effect of innovation on entrepreneurial activities: the case of Azerbaijan” mövzusunda “Current issues and prospects for the development of scientific research” beynəlxalq elmi konfrasda (Orleans, Fransa, 2023), “Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti və innovasiya yönümlü inkişafına təsir edən amillər” mövzusunda V İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların beynəlxalq elmi konfransında (Bakı, 2023), “İnnovativ sahibkarliğin inkişafi və mövcud tendensiyalar” mövzusunda “Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər” II beynəlxalq elmi konfransında (Mingəçevir, 2023) məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin “İqtisadiyyat və marketinq” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş 9 səhifə – 10684 işarə, I fəsil 36 səhifə – 59614 işarə, II fəsil 43 səhifə – 57924 işarə, III fəsil 40 səhifə – 60067 işarə, nəticə və təkliflər 6 səhifə – 11455 işarədən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinə 26 cədvəl, 13 şəkil daxildir.

# I FƏSİL. SAHİBKARLIĞIN İNKİŞAFININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Sahibkarlığın sosial-iqtisadi mahiyyəti və əsas vəzifələri

Sahibkarlığın sosial-iqtisadi mahiyyəti, müxtəlif hədəf və təşkilatı, həmçinin onun sosial-iqtisadi rolunun qiymətləndirilməsi baxımından tədqiq edilə bilər. Ona görə də sahibkarlığın özünə müxtəlif meyar və mexanizm baxımından baxılır. *"Professor Ə.Q.Əlirzayevin fikrincə sosial inkişafın əsas meyarı olaraq sahibkarlıq yolu çox şaxəli və proqmatik yoldur"* [40, s.219]. Birbaşa və dolayı yollarla sahibkarlıq iqtisadi və sosial inkişafın əsas amilidir. Sahibkarlığa sosial aspektdən yanaşma ona maddi əsas kimi baxılmaqla məşğuluq, iqtisadi artım və rifah problemlərinin həlli yolu kimi tədqiq olunur. Sahibkarlığın inkişafına isə əsas meyar və göstəricilər, statistika və dinamik model olaraq təşkilatı quruluş kimi baxmaq olar. Sahibkarlıq iqtisadi artımın əsas göstəricisi, istehsal və istehlak səviyyəsinin artımı və onun keyfiyyətinin yüksəldilməsi yolu kimi tədqiq oluna bilər. Klassik metodlara uyğun olaraq iqtisadi artım və rifah tarazlı olmalıdır. Azərbaycanda davamlı inkişaf modelinin əsasları və onun əsas istiqamətləri kimi prioritet olaraq potensial yanaşma və hədəflərə nail olmaq strategiyası əsas götürülür.

Strateji yanaşma metodologiyası, regionların potensialını qiymətləndirməklə, sosial prioritetlərə üstünlük verməklə təşkilatı idarəetmə mexanizmlərini təkmilləşdirmək metodları nəzərdə tutulur.

*"Regional sahibkarlığın əsas məqsədi üzrə iqtisadi dövriyyədə regionun rolunu artırmaq, sahibkarlığı inkşaf etdirməklə məşğulluq və rifah problemlərini həll etmək məsələləri həll olunur"* [9, s.79-88].

Sahibkarlığın iqtisadi və sosial mənası onun fəaliyyət dairəsini, istehsal məhsulu və xidmətin istehlak xüsusiyyətlərini və onun sahə, ərazi strukturunu formalaşdırır. İstehsal və xidmət sferasında rəqabət, gəlirlilik və sosial prioritetlər həmin sahənin və regionun fəaliyyət dairəsini, inkişaf motivini və uyğun struktur elementlərini yaradır.

Sahibkarlıq zəruri və hədəf olmaqla regionun inkişafına təməl yaradır. Bu baxımdan ixtisaslaşma baş verir. Sahibkarlığa yanaşma iqtisadi, sosial, təşkilati və idarəetmə konteksindən baxılır. Sahibkar mənfəət əldə etmək üçün özünün və borc vəsaitləri hesabına fəaliyyət göstərməklə məhsul və xidmət əldə etmək kimi başa düşülür. Təbii ki, bu sadəcə məhsul istehsalı deyil, həmçinin şüurlu fəaliyyət olub, bazar tələbinə uyğun olaraq təşkilatiı, iqtisadi strukturadır. Sahibkarlıq fəaliyyət mexanizmidir. Onun nəticələri daxili və xarici amillərin təsirlər ilə formalaşır. Ona görə də hər bir sahibkar hüquqi və təşkilatiı, qərar qəbul etmək xüsusiyyətləri ilə özünü biruzə verir. Sahibkar hüquqları ona verilən səlahiyyətlər və vəzifələr normasında bazar qanunlarına uyğun olaraq formal və qeyri formal çərçivədə özünü maliyyələşmə, yaxud sifarişlə məhsul və xidmət bazarını doldurmaqdır.

*"Beləliklə, sahibkar üçün əsas rolu intellekt deyil, reallığı müəyyən məqamlara ayırmaq və onları real işıqda görmək iradəsi və qabiliyyəti, eləcə də təkbaşına digər insanlara təsir etmək bacarığı oynayır"* [90, s.30].

Sahibkarların məzmunu, çərçivəsi və təşkilati quruluşu üzrə müxtəlif həcmdə və yaxud şaxələnmə istiqamətlərində ixtisaslaşır. Onun dərinləşməsi və təkrar istehsal fəaliyyəti bölgü və istifadə mexanizmləri ilə tamamlanır. *"Sahibkarlığın məzmunu geniş iqtisadi, sosial və təşkilati idarəetmə problemli məqsədi, onun çoxcəhətli tərəfləri, araşdırması və tədqiqində kompleks yanaşma metodologiyasına əsaslanır"* [44, s.9].

Sahibkarlığın məzmunu onun fəaliyyətinin məqsədi, maraqları və bu istiqamətlərdə təşkili təcrübəsi və fəaliyyət modeli əsas götürülür. Fəaliyyət modelinin tərtib olunması bazar diktəsi ilə ölçülür. Bazar yönümlü fəaliyyət sahibkarlığın məqsəd və fəaliyyət mexanizmlərini formalaşdırır. İqtisadi ədəbiyyatlarda, dərsliklərdə və bir sıra praktiki tövsiyələrdə sahibkarlığın təsnifatına müxtəlif aspektlərdən əsaslandırma verilir. Təbii ki, sahibkarlığın əsasları nəzəri, praktiki və bazar tələbi ilə müəyyən edilən məhsul və xidmətlərin çeşidi, keyfiyyəti ona olan tələbat sistemi ilə ölçülür. Ona görə də aşağıdakı sahibkarlıq növlərini biz verə bilərik:

- İstehsal və xidmət istiqamətinə və tələbatın ödənilməsi xarakterinə görə;

- İstehlakçıların motivinə, sosial demoqrafik tərkibinə və həyat fəaliyyətinin əsas perimetrlərinə görə fəaliyyətin təşkilinə;
- Sahibkarlığın istehsal həcmi və tələbat sistemində əhatə etdiyi subyekt və obyektlərin tutumu onların fiziki gücü və inkişaf miqyasına görə;
- Sahibkarların xarici və daxili bazara yönümlülüyə və müasir dəyişmələrə uyğun olaraq çeviklik dərəcəsi, həmçinin innovasiya və İKT-nın tətbiqi dərəcəsinə görə, elmi texniki səviyyəsinə görə;
- Sahibkarlığın sosial və yaxud iqtisadi mahiyyəti və onların nisbətləri və prioritetliyi səviyyəsinə görə.

Sahibkarlığın iqtisadi və sosial mahiyyəti, ümumi ölkə və dövlət quruluşunun, prioritetlərin və strateji məqsədlərin spektri ilə müəyyənləşmə onun alt müstəvisini təşkil edir. Beləliklə ölkə səviyyəsində sahibkarlıq ümumi və iqtisadi prioritetlərin reallaşması mexanizmi kimi də çıxış edir. İqtisadi artımda hər bir sahibkarın payı və yaxud onun artıma təsiri, təbii ki, ümumi və ünvanlı dövlət təminatı və prinsipləri ilə idarə edilir. Sahibkarlığın iqtisadi mahiyyəti onun gücü, istehsal qabiliyyəti, bazarı doldurmaq səyi və ümumi maddi, maliyyə resurslarının dövriyyəsində iştirak payı ilə müəyyənləşir. Bu paya görə sahibkarlıq mikro, kiçik, orta və iri sahibkarlığa bölünür.

*"Göründüyü kimi hazırki dövrdə müstəqil Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin spektral və areal baxımdan geniş tərkib təsnifləşdirilməsi formalaşdırılmışdır. Onların vəziyyətinə, mövcud olmuş kənarlaşmalara mümkün qədər geniş baxışın təmin edilməsi məqsədilə makro, mikro və orta səviyyəli subyektlər timsalında müvafiq araşdırmaları həyata keçirmək məqsədə uyğun olardı"* [86, s.141].

Kiçik sahibkarlıq növü, öz sosial-iqtisadi mahiyyətinə və bazar tələbatının çevik və hərtərəfli ödənilməsinə və regional xüsusiyyətləri əhatə etməsi meyarına görə səmərəli təsərrüfat formasıdır. Kiçik sahibkarlıq potensialına, maddi təminatına və istehlak bazarının ödənilməsi baxımından mühüm rol oynayır. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın iqtisadi, sosial potensialı və səmərəsi daha xarakterikdir. Azərbaycan regionları daha çox öz resursları ilə müqayisəli təhlildə müxtəlif olub, yerli və ixracat tələbatını ödəmək üçün istehsal və istehlak yönümlü

çevik siyasət üçün xeyli əlverişli amillərə malikdır. Kiçik sahibkarlığın sosial mənası və əhəmiyyəti daha yüksəkdir. Belə ki, adət və ənənəyə uyğun və öz tələbatını ödəmək üçün ailə təsərrüfatına əsaslanan kiçik sahibkarlıq daha üstünlük təşkil edir. Digər tərəfdən əhalinin əmək ehtiyatlarının və ailə üzvlərinin kiçik sahibkarlığa cəlb edilməsi hesabına məşğulluq səviyyəsi artır.

Kiçik sahibkarlıq ev təsərrüfatının imkanları ilə planlaşdırılır. Çevik qərar qəbul edilməklə onun istehsal və xidmət strukturu formalaşdırılır. Regionların potensialı sahələrarası və regionlararası tarazlı təsərrüfat obyektləri üçün əhəmiyyətli geosiyasi mövqeyinə malikdir.

Azərbaycanda iqtisadi regionlar özlərinin coğrafi və resurs potensialına və təsərrüfat növünə, ixtisaslaşma səviyyəsinə və istiqamətinə görə özünün ərazi-əmək bölgüsündə öz yerini tapmışdır.

*"Regionların sosial-iqtisadi inkişaf hədəfləri regionların mövcud potensialını nəzərə almaqla əhali məşğulluğunun təmin edilməsi, yoxsulluğun azaldılması və regionun iqtisadi artımda rolunun artırılması məqsədini güdür. Hər bir regionda iqtisadi potensial təkrar istehsal və bazar təklifinin formalaşmasında xüsusi çəkisi və perspektiv struktur dəyişmələri ilə təhlil olunur"* [89, s.92].

Regionların ixtisaslaşma səviyyəsi tələbat və iqtisadi potensialın strukturu onun təsərrüfat fəaliyyətinə cəlb edilməsi nəticəsində əldə edilən məcmuu və yaxud bəzi məhsulların həcmi, iqtisadi səmərəsi ilə ölçülür. Naxçıvan MR-ı özünün təbii sərvətləri, əmək ehtiyatları və coğrafi mövqeyi ilə fərqlənir, məhz bu amillər onun sahibkarlıq xüsusiyyətlərini yaradır.

Sahibkarlığın sosial-iqtisadi problemlərin həllində rolu müxtəlif tədqiqatlarda meyar və mexanizmlər, idarəetmə və təşkilati sistem yanaşmasından baxılıb. Belə ki, "*professor Ə.Q.Əlirzayev sahibkarlığın sosial mənasına daha üstünlük verir. Ona görə "Əhalinin iş yerlərinə olan tələbatının ödənilməsi və gəlirlərinin artırılması sahibkarlıq üçün zəmin və zəruriyyət yaradır. Əlverişli demoqrafik artım, əmək qabiliyyətli əhalinin iş yerlərindən artıq olması, əhalinin miqrasiya prosesi yeni sahibkarlığın ərazi və sahə strukturunun formalaşmasına təsir edir"* [39, s.138].

Sahibkarlıq fəaliyyətinin zəruriyyəti bazar diktəsi şəraitində yaranır. Sahibkarlıq müəyyən zəruri və təşkil olunmuş göstəricilər, amillər və maraqlar üzərində yaranır. Həqiqətən regionun kompleks şəraiti onun bu və ya digər göstəricilərə uyğun inkişaf dinamikası sahibkarlığa təşkilati quruluş kimi baxmağı tələb edir. Onun bütün əlaqə formaları idarəetmə sistemini formalaşdırır. Bu baxımdan *"Əlirzayev Ə.Q. tərəfindən verilən tərifə biz metodoloji baxış keçirməklə, onun sosial-iqtisadi inkişafda roluna qiymət veririk"* [39, s.139]. Sahibkarlığın qlobal iqtisadi şəraitdə fenomen olaraq təsviri professor Şamil Qafarov tərəfindən makro, mikro səviyyədə nəzəri cəhətdən təhlil edilir. Müəllif göstərir ki, *"sahibkarlar arasında məşğuliyyət sahələrinin, kapital qoyuluşlarının həcmi şəxsi keyfiyyətinə, bacarıqlarına, peşəkarlıq səviyyəsinə görə müxtəlif ola bilər"* [67, s.129]. Sahibkarlığın sosial-iqtisadi rolu çoxşaxəli nəticələrlə ifadə olunmaqla, təqiqat obyekti olaraq sistemli və kompleks göstəricilərin təsirini nəzərə almala qiymətləndirilir. Makro və mikro səviyyəli səmərələr prioritetlərinə görə təsnifatlaşdırılır.

Dövlətin strateji iqtisadi inkişaf siyasətinin əsas istiqamətləri və prinsipləri respublikada sahibkarlığın inkişafı baxımından müəyyən edilmişdir. Hər bir sahibkarlıq fəaliyyəti onun məhsul və xidmətinə tələbat sistemi ilə müəyyənləşir. Bazar tipli inkişaf modeli olaraq rəqabət mühiti sahibkarlığın davamlı inkişaf strategiyasını formalaşdırır. Müasir şəraitdə yeni texnologiyaların tətbiqi, təbii inhisar səyi, sahibkarlığın inkişafının hədəfləri və uyğun planlaşma strategiyasını formalaşdırır. Sahibkarlığın sosial-iqtisadi inkişafda rolunu onun ölkənin sosial-iqtisadi həyatına göstərdiyi təsir gücü ilə təsvir etmək olar.




**Şəkil 1.1.1 Sahibkarlığın sosial – iqtisadi inkişafda rolu**
***Mənbə:*** *müəllif tərəfindən hazırlanmışdır.*

Şəkildə sahibkarlığın kiçik, ev təsərrüfatı, ailə məşğulluğu və tələbatının ödənilməsi ilə əlaqəsi verilməklə, onun rolu hər bir regionda xüsusi amil kimi qiymətləndirilir. Sahibkarlığın formalaşma və inkişaf dinamikası iqtisadi tələbat və sosial problemlərin həlli üçün dəyişilir. Bu iqtisadi ədəbiyyatlarda islahatlar və yaxud transformasiya modeli olaraq təşkil olunur. Hər bir region bütövlükdə sosial-iqtisadi obyekt, struktur tərkib olmaqla ölkə və beynəlxalq əlaqə və prinsiplərə əsaslanır.

Regional sahibkarlığın əsas əlaməti onun açıq iqtisadi statusa malik olması, daxili və xarici əlaqələr üçün aparılan təşkilati istiqamətlərlə müəyyənləşir. Regionlararası əlaqələr, birgə istehsal və istehlak bazarına təsir edir. Bu bazarın təşkili üçün zəruri olan məcmu tələb və məcmu təklif bazarının əsas göstəricilərini formalaşdırır. Regionda olan əlaqələr uyğun olaraq sahibkarlıq əlaqələrini formalaşdırır. Sahibkarlığın fəaliyyəti planlaşma baxımından strateji və marketinq prinsiplərinə və bazar qanunlarına uyğun olaraq cari və perspektiv planlaşmaya bölünür. Cari baxımından əsas meyar və göstəricilər rəqabətə tam uyğun olaraq

dəyişmə meylinə malik olmaq, həmçinin gəlir gətirmək imkanlarını genişləndirmək vəzifəsi durur. Gəlirlilik hər bir sahibkarın fəaliyyətini daha davamlı və struktur amillər üzrə idarə edilməsinə maddi və maliyyə imkanları yaradır. Təbii ki, sahibkarlığın cari planlaşmasında bazar tələbinə uyğun struktur amillər, əsas fondlar, investisiyalar və xərclər planlaşdırılır.

Strateji planlaşma daha uzunmüddətli fəaliyyətə yönəldilən iqtisadi və sosial tədbirlərə üstünlük verilməsi ilə idarə edilir.

Sahibkarlıq mühitini daha davamlı təşkil etmək üçün strateji xətt məqsəd-resurs və stimullar sistemi yaradılır. Strateji məqsəd olaraq aşağıdakı istiqamətləri göstərmək olar:

- İnvestisiya yönümlü və elmi-texniki, innovasiya tutumlu fəaliyyətin üstünlüyü;
- Sosial yönümlü və stimul yaratmaq qabiliyyətinə uyğun bölgü və yenidən bölgü mexanizmlərinin tətbiqi;
- Yeni texnologiyalara uyğun elmi-texniki siyasətin formalaşması.

Bazar iqtisadiyatına keçidin, onun formalaşması xüsusiyyətləri ilkin dövrdən maraqların qarşılıqlı təsiri əsas olaraq sahibkarlığın amilləri kimi irəli sürülür. *"Xüsusi qrup, korporativ və xüsusi eyni olmayan sosial-iqtisadi və təşkilati-texnoloji əsaslarla sahibkarlıq formaları qiymətləndirilir"* [129]. *"Ekoloji amil olaraq regionda sosial inkişafın əlaqəsinə coğrafiyaçı alimlər tərəfindən baxılır"* [73, s.18].

Sahibkarlıq mahiyyət və dinamika baxımından inkişafa səbəb olan və özü də inkişaf nəticəsində səmərə əldə edən funksional vəzifələri özündə əks etdirir. Hər bir sahibkar hüquqi və səlahiyyətlər daxilində özünün vəzifələrini icra etmək üçün təşkilati sistemdir. Onun təşkilində ilkin və sonradan dərinləşən və şaxələnən vəzifələr, öhdəliklər formalaşır. Sahibkarlıq iqtisadi və dövlət siyasətinin tərktib hissəsi olmaqla özünün səlahiyyətləri və hüquqları ilə dövləti formalaşdırır. Sahibkarlıq vəzifə və fəaliyyət olmaqla idarəetmə və təşkilatı bacarıqlar ilə bağlıdır.

Vəzifələr olaraq sahibkarlıq fəaliyyəti, menecment idarəçiliyi ilə yanaşı sosial müdafiə sisteminin formalaşmasına istehsal və bölgü münasibətləri ilə təsir edən dinamik prosesdir.

Sosial müdafiə sistemi qlobal və lokal vəzifələrlə reallaşır. Qlobal vəzifə olaraq sahibkarlıq makro səviyyəli inkişaf məqsədlərini doldurur. Bir tərəfdən iqtisadi artımı, digər tərəfdən rifah və təhlükəsizlik üçün dayanıqlı siyasətin maddi-maliyyə potensialını formalaşdırır.

Lokal baxımdan regional və funksional vəzifələri yerinə yetirməklə, yerli əhalini və yerli bazarın bütün aspektlərində fəal iştirak payı ilə fərqlənir. Əməktutumlu, mənfəət yönümlü və rifah üçün şərait yaradır. Sahibkarlığın vəzifələri nəticədə yardımçı kimi resurs potensialını formalaşdırır. Resurslara görə vəzifələri aşağıdakı funksional vəzifələrinə görə qruplaşdırmaq olar:

- əmək resurslarının yeniləşməsi və həmçinin istifadəsi istiqamətlərinin təkmilləşməsi;
- elmi və texnoloji İKT-nın yeni sahələrinin inkişafı tətbiqi və biznesi kimi fəaliyyətin şaxələnməsi;
- əhalinin gəlirləri və müxtəlif dividiendlərinin əldə edilməsi imkanlarının artımı;
- sosial müdafiə sistemi üçün sahə və funksional təyinat, sosial yardım, təminat və müdafiə sisteminin genişlənməsi;
- ümumi daxili məhsul və bazar üçün çıxarılan məhsulların artırılması.

Sahibkarlıq fəaliyyəti funksional vəzifələrə görə ixtisaslaşır. Daha çox bazar yönümlü meyllər kommersiya xarakteri daşıyır və həmişə iqtisadi artıma yönəlir. *“Məşhur Amerika iqtisadçısı İozef Şumpeter “İqtisadi inkişafın nəzəriyyəsi” adlı kitabında sahibkarlıq fəaliyyətini kapitalist iqtisadiyyatında iqtisadi artımın təmin edilməsinin başlıca hərəkətverici qüvvəsi hesab etmişdir. Onun fikrincə, sahibkarlıq – istehsalatda yeni texnologiya əldə edən novatordur”* [45, s.9]. Sahibkarlığın məqsədi hər hansı sosial müdafiə məqsədini güdürsə, onun maliyyə və maddi təminatı üçün himayəçilik edən sponsor təşkilatları mövcud olur. Sponsorun rolu dövlət və digər

təşkilatların maliyyə potensialı ola bilər. Məhz maliyyənin təminatçısı təşkilatın xüsusiyyətini formalaşdırır.

Sahibkarlığın məhsul və xidmət üzrə ixtisaslaşması, onun rəqabətqabiliyyətliliyini artırır. Sahibkarlığın təşkilində şəraitin yaradılması vəzifələri xarici və yan təsirlərlə müşahidə olunur.

Sahibkarlığın birbaşa vəzifəsi olaraq iqtisadi artım və sosial inkişafa doğru zəruri olan münasibətləri formalaşdırmaqdır. Onun dinamikası iqtisadi əlaqələri və iqtisadi inkişafı formalaşdırır.

Sahibkarlıq fəaliyyətinin strateji planlaşma və idarəetmə obyekti olması onun dövlətlə əlaqə formalarını və məzmununu yaradır. Daha çox rəqabətqabiliyyətli istehsal və xidmət işgüzar dəyişmələr, səmərəli və alternativ üsul və qiymətləndirmə metodları tətbiq etməyi zəruriləşdirir. Dövlət və sahibkarlıq, əmək və səlahiyyətlər, vəzifələrin bölgüsü və qarşılıqlı əlaqəsi sistemində idarə edilir. Sahibkarlıq idarəetməsi qlobal və məhəlli maraqlar üzərində əmək və hüquqi müstəvidə əlaqələndirilir. Sahibkarlığın nəzəri və hüquqi bazasını iqtisadi və sosial qanunlar, həmçinin konseptual inkişaf istiqamətləri təşkil edir. Sahibkarlıq potensial imkan olmaqla, onun dinamikası, səmərəsi və sosial iqtisadi rolu dayanıqlı və ədalətli inkişaf konsepsiyasının tərkib hissəsi onun resursu, amili və həmçinin ölkə iqtisadi və sosial inkişafının səmərəli nəticələridir. Ölkənin konseptual inkişaf strategiyası, islahatlar və prioritetlər üzərində qurulur. Aşağıdakı prioritetlər cari və perspektiv istiqamətlərdə öz aktuallığını saxlayır:

- Dayanıqlı inkişaf və tarazlı sosial-iqtisadi inkişaf prioritetləri;
- Sosial yönümlü iqtisadi siyasət və əhali rifahının yüksəldilməsi, yoxsulluğun azaldılması;
- Regionların iqtisadi və sosial inkişafını təmin etmək üçün zəruri olan islahatlar və dəstək proqramlarının tərtibi və tətbiqi;
- Azad iqtisadi inkişaf strategiyasının və rəqabət mühiti yaratmaqla antiinhisar siyasətin və şəraitin yaradılması;

- Dövlətin və sahibkarlığın hüquqi və əməkdaşlıq müstəvisində rolunun tənzimlənilməsi mexanizmlərinin prioritetliyinin saxlanılması və maraqlar üzərində iştirak və bölgü prinsiplərini ədalət müstəvisində həlli mexanizmlərinin işlənməsi;
- Bölgü və istehlak proseslərində obyekt və subyektlər arasında təşəbbüskarlıq və stimullar sisteminin işlənməsi;
- Regionun inkişafında iqtisadi və resurs potensialını dövriyyəyə cəlb etmək, əhalinin məskunlaşmasını təmin etmək üçün sahibkarlığın genişlənməsi istiqamətləri artması;
- Sahibkarlığın özünün idxal və ixrac potensialı olması, intensivləşməsi üçün xarici təsirləri və gücləri daxili iqtisadi dövriyyəyə cəlb edilməsi yolları ilə təkmilləşməsi, yaxud yeni texnoloji layihələr tətbiq edilməsi;

Sahibkarlığın regional aspektləri bir sıra regionların və şəhərlərin, kəndlərin statusunu, onların ticarət və sənaye mərkəzlərinə çevrilmək motivini artırır.

Hər bir sahə və ərazi gəlir gətirmək və iş yerləri artırmaq məqsədi ilə fəaliyyət göstərir. Naxçıvan MR-in sahibkarlar obyekti olaraq, tarixi, ərazi və resurs potensialı bir sıra sahələrin, fəaliyyətlərin və yaxud gəlir gətirmək üçün turizm və səyahət obyektlərinin istifadəsi üçün səmərəli bir regiondur. Təbii ki, onun iqtisadi resursları və ondan istifadə yolları daima inkişaf obyekti olmaqla iqtisadi fəaliyyət və məskunlaşma obyekti kimi respublikanın həyatında fəal rol oynayıb.

Naxçıvanın ərazi quruluşu, onun blokada şəraiti, tranzit və sərhəd region olması onun iqtisadi potensialının genişlənməsinə oxşarı olmayan iqtisadi idarəetmə obyektinə çevrilməsinə daima əsas verir.

Sahibkarlığın tədqiqi metodları və qiymətləndirmə mexanizmləri problemin qoyuluşu və onun həlli yollarına yönəldilən təşkilati və idarəetmə mexanizmləri daxildir [35]. Regional sahibkarlıq ikili meyarlar və onların uzlaşmasının effekti ilə qiymətləndirilir. Makrosəviyədə qiymətləndirmə iqtisadi artıma təsir gücü ilə ölçülür. Mikrosəviyyədə isə əhalinin rifahı, istehlakı və digər sosial artımları və keyfiyyət göstəriciləri ilə ölçülür. Ona görə də sahibkarlıq dinamik proses kimi tədqiq olunur. Onun əsas amilləri və nəticələri qiymətləndirilir. İqtisadi və sosial nəticələrin amillərə

görə paylanması elastiklik əmsalları və təsir gücləri ilə ölçülür. Sahibkarlığın amillərinin tədqiqi həmin amillərin prioritetliyini aşkar edib, onun tənzimlənməsi yollarını müəyyənləşdirir. Bu da sahibkarlığı tənzimləmə obyekti kimi tədqiqi və planlaşması sistemini yaradır. Uzun müddətli sahibkarlıq fəaliyyəti proqnoz xarakterli tədbirlərin və mexanizmlərin təsirini qiymətləndirmək üsullarını tətbiq etməyi zəruriləşdirir. Sahibkarlıqda alternativ həll və ən əlverişli variant qərar qəbulu, onun elmi və metodiki əsaslarının adekvat olması ilə ölçülür. Sahibkarlığın qiymətləndirilməsi statistik və dinamik nəticə ilə əlaqədə aparılır.

Birincisi, mövcud potensialın istifadəsi və təkrar istehsalında sahibkarlığın rolu və yeri prioritetlər üzrə qiymətləndirilir.

İkincisi, sahibkarlığın inkişaf və transformasiya sistemi ilə əlaqəsi və rolu qiymətləndirilir.

Sahibkarlıq potensialı tükənən və məhdud resurslara əsaslanan qanunlarla idarə edilir. Bu isə öz növbəsində bölgü və yenidən bölgü, investisiya və yeni texnologiyalar tətbiqi meylləri ilə mümkündür. Hər bir regionda və iqtisadi sosial şəraitdə bu sahədə siyasət formalaşır. Bölgü sistem olaraq münasibətləri tənzimləyir. Sahibkarlıq fəaliyyətinin səmərəli təşkili, dövlət və içtimai maraqların ödənilməsi dərəcəsi ilə nəzəri və praktiki cəhətdən qiymətləndirilə bilər. Fikrimizcə, sahibkarlıq fəaliyyəti dövlətin marağı, ictimai və milli maraqlara uyğun idarə olunur. Bu yanaşma konsepsiyası hər bir fəaliyyətin milli iqtisadi və sosial maraqlarda rolu, həmçinin dövlətin büdcə maliyyə və bazar tələbinə uyğun yaratdığı dəyərlə ölçülür. Bu proseslərdə maksimum gəlir və minimum xərclər modeli sahibkarın fəallığı ilə ölçülür. Sahibkarlığın kollektiv və sahə maraqları rəqabətqabiliyyətli fəaliyyət qurmaqla geniş təkrar istehsalı təmin etmək və dövlət öhdəliklərinin maksimum və normativ prinsiplərə uyğun ödənilməsi ilə nəticələnir. Sahibkarlıq və dövlət arasında razılaşmış və ədalətli əlaqə, mənimsəmə və stimulların bölgüsü baş verəndə, sistem dəyərli olur. Sahibkarlığın inkişafı prioritetlər üzərində qurulur. Əsas prioritet insanların rifahı, məşğulluq səviyyəsinin yüksəldilməsi və əhalinin təhlükəsizliyini və müdafiəsini

təmin etməkdir. Bu da sosial mahiyyəti sahibkarlığın təşkili baxımından qiymətləndirilməsi metodları kimi istifadə edilir.

Sahibkarlığın sosial mahiyyəti, onun nəticələrinin səmərəsi ilə ölçülür. Belə ki, hər bir sahibkarın fəaliyyətində dövlət və işçilərinin rifahına xidmət etmək vəzifəsi düşür, həmçinin dövlət gəlirlərinin artırılmasında payı artır.

Sahibkarlığın sosial mahiyyəti, onun bütün insan qruplarının və əhalinin fərdi və kollektiv marağını ödəmək, həmçinin bərabər şərait yaratmaqla sosial ədalətin təşkili və inkişafı üçün şərait yaratmaqdır. Sosial sahələrin özünün inkişafı sahibkarlığın xüsusi forması olaraq özünün xüsusiyyətlərini kəsb edir.

Hər bir sahibkarlıq fəaliyyətinin iqtisadi və sosial amilləri və onlardan istifadənin sahə və ərazi xüsusiyyətləri formalaşır və dinamik olaraq inkişaf edir. Sosial amil olaraq insan amili onun mülkiyyət forması olaraq intelektual səviyyəsi və stimullar sistemi ilə müəyyənləşir.

Sosial amil olaraq əhalinin artımı, işçi qüvvəsi kimi əmək ehtiyatları və iqtisadi sahələrə onun cəlb olunması xüsusiyyətləri ilə bağlıdır. Daha çox işçilərin yaşayış səviyyəsini, təhsil və mənəvi dəyərlərin həcmi və strukturu ilə müəyyənləşir. Sosial amil olaraq sosial yönümlü siyasətin dövlət mexanizmlərində öz əksini tapmalıdır.

Sahibkarlığın region və sahə xüsusiyyətləri, onun təşkili və idarə edilməsi metodikasını formalaşdırır. İlkin növbədə bu vəzifəyə tələbat sistemini öyrənmək, ən əlverişli biznes mühitini qiymətləndirmək, sonradan təsərrüfat, maliyyə imkanlarının mənbəə və istifadə mexanizmlərini hazırlamaq və islahatlar proqramları ilə idarəetmə sistemini tətbiq etmək vəzifələri meydana çıxır. Sosial obyektlər hər bir regionda xüsusi və nisbətən riskli sahə olmaqla, biznes məhdudiyyətləri ilə seçilir. Bu vəziyyət iqtisadi cəhətdən zəif olan ölkələr və regionlar üçün daha xarakterik xüsusiyyət kəsb edir. Statistik və proqmatik inkişaf baxımından Naxçıvan MR-in perspektiv inkişaf meylləri və struktur dəyişmələri, onun respublika ilə iqtisadi əlaqələri və xarici dövlətlərlə birgə müəssisələrinin, kommunikasiya əlaqələrinin daha yeni səviyyədə qurulması ilə mümkündür. Təbii ki, işğaldan azad olmuş Azərbaycan regionları ilə Naxçıvanın iqtisadi və nəqliyyat əlaqələri, genişlənib dünya əlaqələri ilə qovuşduqda,

regionun iqtisadi və sosial həyatında kəmiyyət və keyfiyyət baxımından gəlir və investisiya mənbəələrinin artması istiqamətində səmərəli nəticələr əldə olunacaq. Beləliklə, Naxçıvanın inkişaf strategiyasına yeni metodiki baxış həyata keçirilir.

Naxçıvan regionunun inkişafı perspektivdə dünya iqtisadiyyatına inteqrasiya imkanlarının genişlənməsi ilə baş verəcək. Şərq-Qərb və Avropa-Asiya dövlətləri ilə əlaqələr, Zəngəzur dəhlizinin açılması ilə güclənəcək. Naxçıvanın baza iqtisadiyyatı yeni bazarlar və xidmətlər üçün genişlənə bilər. Bu baxımdan Naxçıvanda turizm və yerli resursların hazır məhsula çevrilməsi texnologiyaların artımı ilə mümkündür. Məhz yeni spektr göstəriciləri Naxçıvan MR-in iqtisadiyyatını formalaşdırır.

Naxçıvanın iqtisadi və sosial inkişafı alternativ enerji və ev təsərrüfatlarının idarə edilməsi və proteksionizm siyasətinin tətbiqi ilə yeni konseptual inkişaf strategiyası kəsb edir. *"Eyni zamanda, Naxçıvan Muxtar Respublikasında "Yaşıl enerji" potensialının yaradılması, enerji səmərəliliyi və ekoloji təmiz texnologiyaların tətbiqi tədbirləri genişləndiriləcək, ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin (minik avtomobilləri, avtobuslar və s.) dövriyyəsi stimullaşdırılacaqdır"* [96]. Naxçıvanın yaşıl enerji zonasına çevrilməsi və ixracat potensialında onun rolu perspektiv prioritet istiqamətdir.

### 1.2. Sahibkarlığın sosial-iqtisadi rolu və qiymətləndirilməsi

Sahibkarlığın inkişafı və onun stimullaşdırılması bir sıra iqtisadi, təşkilatı və dövlət himayəsi amillərdən asılı olub, müxtəlif dövrlərdə, fərqli və əsaslı metodlarla idarə edilir. Onun rolu göstəricilər sistemi və problemlərin həllində vacibliyi, iqtisadi səmərəsinin həcmi və nəticələri ilə qiymətləndirilir. Sahibkarlıq fəaliyyətinin makro, mikro və funksional rolu qoyulan problemlərin kəskinliyi və onun səmərəsi ilə ölçülür. İqtisadi ədəbiyyatlarda sahibkarlığın funksional aspektlərinə ayrı-ayrı sahə və vəzifələrin həllindəki vasitə kimi baxılmaqla tədqiq olunur. Sahibkarlıqda dövlət dəstəyi rolunu və dövlət tənzimlənilməsinin vacibliyi siyasi və qanunvericilik yanaşma ilə əlaqəli professor Q.Manafov yazır: *"Sahibkarlığın formalaşması və inkişafı*

*qarşısında dayanan əsas problemlərdən biri iş adamlarının fəaliyyətinə müxtəlif dövlət orqanları tərəfindən əsassız müdaxilələrin olmasıdır. Bu baxımdan dövlətin rolunun vacibliyi və qanunvericiliyin təkmilləşməsi əhəmiyyətli siyasət və təşkilati amil kimi qiymətləndirilir. Strateji amil olaraq iqtisadi inkişaf modelində sahibkarlığın bazar iqtisadiyyatı şəraitində rolu rəqabət münasibətlərinin təməli kimi qəbul edilir"* [9, s.187]. Sahibkarlığa dəyər baxımından baxmaq fikrimizcə daha düzgün yanaşmadır. Onun əsaslanması aşağıdakı müddəalarla öz mahiyyətini açır:

- Sahibkarlıq nəticəsində maddi və mənəvi nemətlərin həcmi və strukturu kəmiyyət və keyfiyyət üstünlüyü əldə edir. Onun dinamikası digər dəyişmələrə fəal təsir edir;
- Sahibkarlıq təkrar istehsalın maddi və maliyyə potensialı mənbəyi olmaqla bölgü və yenidən bölgü yolu ilə istehsal və istehlak amillərini formalaşdırır;
- Sahibkarlıq artan dəyər və təkmilləşən kapital rolunu oynayır, onun nəticəsində geniş təkrar istehsal halı baş verir;
- Sahibkarlığın dəyər baxımından təhlili və proqnozu, elmi texniki, yeni texnoloji layihələrin və kadr potensialının formalaşması və təkmilləşməsi nəticələrinə səbəb olur;
- Sahibkarlığın dəyəri, işçi qüvvəsində yoxsulluğun azalması və yeni kadrların hazırlanması istiqamətlərini formalaşdırır;
- Sahibkarlığın inkişafı regionların sosial problemlərini, məskünlaşma, miqrasiya və regional inkişaf meyllərini idarə etməyə şərait yaradır;
- Sahibkarlıq maddi maliyyə tarazlığı yaradır.

Sahibkarlığın iqtisadi rolu islahatların və təşkilatı mexanizmlərin forma və məzmununu onun əsaslandırılmasının prinsiplərini və metodologiyasını formalaşdırır. Cari və perspektiv tədbiqlərin tərtibi və proqnozuna əsas verir.

Sahibkarlığın rolu ərazinin istehsal həcminin və onun əsas strukturunun formalaşması ilə özünü idarə edir. Sahibkarların sayı, onların əlaqə formaları və sistem təsviri ərazi komplekslərinin yaradılması ilə nəticələnir. Sahibkarlıq məcmuu tələb və məcmuu təklifin tarazlı inkişafı və balanslı dəyişilməsi metodlarını özündə birləşdirir.

Ərazi və sahə kompleksləri sahibkarlıq baxımından tam yeni məqsədlər və imkanlar yaradır. Həmin imkanlar qanunvericilik bazasında təkmilləşir, region və makrosəviyyəli inkişaf strategiyasının hazırlanmasına şərait yaradır.

Region sahibkarlığı kimi imkanların genişlənməsi ərazi və sahə komplekslərinin bağlılığı və maraqlarının təmin olunması istiqamətlərində təkmilləşir.

*"Sahibkarlıq subyektlərinin təsnifləşdirilməsi prinsiplərin spesifik konfiqurasiyalarda fərdi şərait üçün tətbiq edilməsi bəlli elmi-nəzəri əsaslarla möhkəmləndirilməlidir. Onun mühüm məqamları sırasında regional miqyasda real kəmiyyət ifadələrindən istifadə olunması, onların müqayisəli şəkildə təqdimatının təmin edilməsi, müxtəlif kəmiyyət formalarından istifadənin təmin edilməsi və s. nümayiş oluna bilər"* [70, s.292].

Sahibkarlığın rolunun, yerinin və əsas istiqamətlərinin formalaşması, müasir biznes mühiti və bazar diktəsi ilə yaranan tələblərə uyğun təşkil olunur. Onun əlamətləri gəlirlilik, mənfəət və həmçinin sosial hədəflər, sosial müdafiə və təminat məqsədlərinin reallaşması baxımından qiymətləndirilir və uyğun şərait yaradılır. Dövlət, özəl və bələdiyyə mülkiyyətləri arasında əmtəə formaları və öhdəliklər tərtib edilir.

Sahibkarlıq özü liberal iqtisadi fəaliyyət olmaqla yanaşı onun əlaqə formaları və öhdəlikləri müəyyən şəraitlər və prinsiplər üzərində qurulur. Bu prinsiplər aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

- gəlirlilik;
- əməlilik;
- sosial yönümlülük;
- əmək tutumluluq;
- bazara yönəldilən çevik siyasət;
- dominantlıq.

Gəlirlilik hər bir fəaliyyətin təkrar istehsalı üçün və onun genişlənməsinin kapital mənbəyidir. Rəqabət qabiliyyətli sahibkarlıq mühiti hər bir fəaliyyətin davamlı rəqabətqabiliyyətliyi təmin edən təşkilatı-iqtisadi mexanizmlər yaratmağa səbəb olur.

Beləliklə, gəlirlilik təmin edilməsi biznes fəaliyyəti üçün məsrəflər-fayda və xərc modelinə uyğun tədbirlər və mexanizmlər yaradır. Sahibkarlıq fəaliyyəti inkişaf, davamlı fəaliyyət və bazar rəqabətli təşkilati tədbirlərə stimul yaradır. Gəlirləri artırmaq sahibkarlığın kapital tutumlu fəaliyyətini yeni texnologiyalar tətbiqini və bazara sahiblik mühitini formalaşdırır. Rəqabətqabiliyyətli istehsal və xidmət bazarda məhsulun və xidmətin reallaşması mühitini səmərəli təşkilinə səbəb olur.

Sahibkarlıq gəlirləri dövlət və əhali gəlirlərinin artımı mənbəyi rolunu artırır. Sahibkarların gəlirləri dövlətin vergi gəlirlərini və əhalinin real gəlirlərinin artımına səbəb olur. Onun bölgüsü və yenidən bölgüsü təkmilləşdikcə maraqlar uzlaşır və hər mərhələdə onun artımına stimul yaranır. Meyar olaraq hər bir sahibkar bütün imkanlar cərçivəsində innovativ metodlarla maksimum səmərə əldə etmək məqsədi ilə fəaliyyət göstərir.

$$\sum_{i}^{n}\sum_{j}^{m} Xij \rightarrow max \tag{1.2.1}$$

$$\sum_{i}^{n}\sum_{j}^{m} aij \rightarrow min \tag{1.2.2}$$

$$\sum_{i}^{n}\sum_{j}^{m} aij = A \tag{1.2.3}$$

Burada: Xij-j-mənası və xidmətin i sahibkarlıq fəaliyyəti ilə istehsalı.

$aij$-j-məhsul və xidmətin vahidinə çəkilən xərclərdir.

A – məhdudiyyət.

Sahibkarlıq maraq üzərində təşkil olunan və tələb-təklif qanununa uyğun olaraq sahibkar idarəetmə obyekti olduğu üçün qiymətləndirilməsi məqsəd və xərc arasında tarazlığın dəyişmə dinamikasına uyğun qərar qəbulu deməkdir. Sahibkarlıq fəaliyyəti dinamik inkişafda makro səviyyəli nisbət və tarazlıqların təmin olunması məqsədi ilə ölçülür, qiymətləndirilir və perspektiv inkişaf üçün əlavə tədbirlər hazırlanması və tətbiqi ilə təkmilləşir. İlkin növbədə makrosəviyyəli tələbat və uyğun təklifin dinamikası strukturu və ödənilmə dərəcəsi qiymətləndirilir. Bu məqsədlə adambaşına

düşən ümumi daxili məhsulda yerli sahibkarlığın rolu və həmçinin bazar tələbatının ödənilməsində istehsal həcmi və idxal məhsullarının hər birinin xüsusi çəkisi hesablanır. Normativ göstəricilərə uyğun tələbatın ödənilməsi dərəcəsində yerli sahibkarlıq üzrə hər bir məhsula görə tələbatın ödənilmə dərəcəsi qiymətləndirilir. Belə ki, idxal və yerli istehsalın növləri üzrə tələbatın ödənilməsində sahibkarlıq məhsullarının dinamikası qiymətləndirilir. Bu baxımdan tələbatın ödənilməsində prioritet və səmərəli istehsal strukturu müəyyənləşir. Hər bir sahibkarlıqda bazar tələbinə uyğun istehsal strukturu proqnozlaşdırılır. Təbii ki, bu yanaşma perspektiv inkişaf istiqamətlərini müəyyən edir.




**Şəkil 1.2.1. Sahibkarlığa tələbat sistemi**
***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

Şəkildən göründüyü kimi tələbat sisteminin tədqiqi və onun dinamikası uyğun məhsul və xidmət istehsalını, onun marketinq quruluşunu və sahibkarın təşkilati idarəetmə metodlarını hazırlayır. Sosial təminat, iş yerlərinin açılması kadr potensialından istifadə mexanizmlərini hazırlamağa imkan verir.

Tələbat sahibkarlıq fəaliyyətində bazarın tutumu və onun kommersiya baxımından əhəmiyyətli istiqamətlərini əhatə edir. Daha çox iqtisadi maraq kəsb edən fəaliyyətlər bazarda əmtəə və xidmət təklifini artırır, yeni iş yerləri açılır, ixracat potensialı güclənir. Ona görə də sahibkar üçün bu sahələr və fəaliyyətlər iqtisadi

cəhətdən daha səmərəli olur. Onun digər rolu dövlət resurslarının artmasında rolu ilə güclənir.

Üçünçü tərəfdən hər bir sahibkarın resurslarının ehtiyatı və onun sosial müdafiə üçün ayırdığı vəsaitlər artır. Bu üç istiqamətdə sahibkar fəaliyyətinin tənzimlənilməsi sxemi və əsas parametrləri formalaşdırılır. Bununla yanaşı hansı istiqamətə üstünlük vermək və tənzimləmək mexanizmləri, sahibkarlığın iqtisadi və sosial sistemdə rolunu tənzimləməyə imkan verir.

Müasir şəraitdə sahibkarlıq xidməti, onun rolu kompleks və prioritet göstəricilərdə öz əksini tapır. Gəlirli, sosialyönümlü müəssisə və təşkilatlara dövlət dəstəyi və yaxud stimullaşma sistemi formalaşdırılır. Sahibkarlığın təyinatına görə təşkili, sosial tələbata görə istiqamətləndikdə onun maliyyə imkanlarının və maliyyə dəstəklənməsi prosesinin özünün problemləri və xüsusi mexanizmləri yaranır. Sosial sahibkarlıq bütün regionlarda və əhali qrupları, sosial qruplar üzrə zəruri və inkişafa şərait yaradan norma və normativlər üzrə tənzimlənir. Hər bir regionda səhiyyə, təhsil və mədəni-sosial obyektivlərin sahibkarlıq mənası biznes və kommersiya marağı deyil, əhalinin sosial təminatı, mənəvi dəstək proqramları və əldə olunan nəticələrə perspektiv inkişaf baxımından dəstək proqramları reallaşdırmaqdır. Bu sahibkabkarlıq fəaliyyətlərində əmlakın və iş qüvvəsinin təkrar istehsalı üçün xüsusi məsələlər hesabına dəstək və yaxud stimullar mexanizmləri tətbiq edilir. Sahibkarlıq gəlirləri, dövlət və əhali, həmçinin sahibkarın xüsusi vəsaitlərinin formalaşmasında rol oynamaqla yanaşı, mülkiyyət münasibətlərini və bölgü sistemini təkmilləşdirir. Dövlət gəlirlərinin sahibkarlıqdan asılılıqları dövlətin sosial-iqtisadi inkişafına lazım olan pul vasitələri ilə ödənilir. Azərbaycan Respublikasında sahibkarlıq gəlirlərinin xüsusi çəkisi daima dəyişərək artma meyli ilə 70-75%-ə yüksəlir. Təbii ki, müxtəlif sahələr və ərazilərdə sahibkarlıq gəlirlərinin dövlət və əhali gəlirlərində xüsusi çəkisi, fəallıq, əmtəə və xidmət dövriyyəsindən onların qiyməti və səmərəlilik göstəricisindən asılıdır. Sahibkarlığa dəstək məhz gəlirlərin artımına səbəb olan amillərin və təsirlərin tənzimlənilməsi ilə baş verir. Sahibkarlıq gəlirlərinin artımı hər bir müəssisə və

fəaliyyətin təşəbbüsü, fəallığı, səmərəli bazar tələbinə uyğun fəaliyyət mexanizmləri ilə təkmilləşir.

Gəlirlərin artımı dövlət və əhali tələbatına uyğun istehsal, xidmət və digər fəaliyyətlər hesabına daxilolmalardan formalaşır. Açıq iqtisadi şəraitdə ölkə resurslarının və regionun maddi və maliyyə potensialının istifadəsi yolu ilə zəruri olan büdcə gəlirlərini formalaşdırmaq modeli müxtəlif konseptual yanaşmalar ilə təşkil olunur. Belə ki, regionda yumşaq vergi və yaxud rüsumlar, ödəmələr tətbiq etməklə sahibkarlığa dəstək proqramları və metodları tətbiq edilə bilir. Beləliklə, gəlir siyasəti çox hallarda mütləq mənada funksional modelə yox, çevik dəyişən və müəyyən güzəştlərlə tənzimlənən inkluziv inkişaf modelinə uyğun təşkil olunur.

Bu araşdırma göstərir ki, sahibkarlıq təkcə istehsal və istehlak baxımından deyil, həmçinin dövlət iqtisadi tənzimləmə siyasəti kimi daha geniş rol oynayır. Məhz bu rolu qiymətləndirmək metodiki yanaşma və qiymətləndirmə göstəricilərinin yeni anatomiyasını layihələndirmək və reallaşdırmağı tələb edir. Region yanaşmasında gəlir konsepsiyası regionun rolu və onun hər hansı resursda fəal iştirakı, həmçinin perspektiv baxımından qiymətləndirilər. Sahibkarlıq fəaliyyəti iqtisadi əlaqələr, kompleks inkişaf və şaxələnmə üçün dominant rolunu oynayır. Belə ki, sahibkarlıq hesabına sahələrarası komplekslərin, iqtisadi seqmentlərin və təşkilatı orqan olan klasterlərin təşkili mexanizmidir.

Sahibkarlığın dominant rolu, onu digər sahələr və fəaliyyətlərlə tərəf olmaq, istehsal, istehlak və iqtisadi əlaqələr formasında iştirak edir. Bu istiqamətdə sahibkarlığın iqtisadi sistemdə ierarxik struktur elementə çevrilir. Sahibkarların əlaqə forması iqtisadi əlaqələr və maraqlar üzərində şaxələnir və sintez olunur. Əlverişli struktur olaraq optimal struktur yaratmaq məqsədi ilə hər bir sahibkarlıq növü iqtisadi sistemin qapayıcı rolunu oynayır. Sahibkarlığın rolu həmçinin qlobal və mikrosəviyyəli aspektdə tələbat, istehlak və konkret marketinq strukturuna görə formalaşan bir sistemdir. Ona yanaşma mövcud vəziyyəti qiymətləndirmək, təhlil etməklə qərar və proqnozlar verməklə yanaşı strukturalaşma baxımından da baxılmalıdır.

Sahibkarlığın hər bir məhsul və xidmətə görə ixtisaslaşması resurs potensialına və onun strukturuna əsaslanır.

Ərzaq, qeyri ərzaq, xidmət, turizm və digər sahələrin sahibkarlıq obyektində xüsusi çəkisi və yaratdığı dəyər, hər bir regionun sahibkarlıq panoramasını və onun strukturunu müəyyənləşdirir. Bu yanaşma resurs yanaşması kimi qiymətləndirilir. Sahibkarlığın konseptual inkişaf istiqamətlərində rolu və yeri onun tarazlı və təminatçılıq funksiyası ilə ölçülür. Regional inkişafda məşğulluq və rifah problemləri həll edilməsə, həmin regionun inkişafı çətin problemlərlə üzləşir. Ona görə də iqtisadi regionları və inzibatı idarəetmə funksiyalarında meyar olaraq məşğulluq və rifah səviyyəsi qiymətləndirilir. Regionda rifahın yüksəldilməsi üçün, həmin regionun iqtisadi və sosial potensialından istifadə texnologiyaları və istiqamətləri sahibkarlığın mövcud vəziyyətini və perspektivini yaradır. Bu da sahibkarlığın və regionun inteqrasiya amili olmasına səbəb olur. *"Regionların inteqrasiya amili olaraq təbii və əmək resursları və nəqliyyat əlaqələri ilə formalaşdığı və bu istiqamətdə inkişaf etdirilməsi tədqiqat obyekti olaraq coğrafiya və iqtisadçı amillərin tədqiqatlarında öz əksini tapır"* [83, s.20].

Hər bir ölkənin beynəlxalq əmək bölgüsündə və bazar tələb təklifinin formalaşmasında rolu onun potensialının xammal, hazır məhsul və xidmət olaraq ixracatı ilə bağlıdır. Ona görə də regionların iqtisadi və sosial potensialının daxili və xarici tələbata uyğun istifadəsi üçün investisiya. İnsan və kapital axını intensivliyi ilə ölçülə bilir. Perspektiv inkişaf baxımından bu amillərin təsiri qiymətləndirilir. Xarici iqtisadi əlaqələrin formaları və istiqamətləri müasir dövrdə beynəlxalq sahibkarlıq formalarına səmərəli kapital axını kimi yaradır. Bu istiqamətdə regionların resurs potensialını istifadə etmək, yaxud bazarına uyğun idxalı stimullaşdırmaq məqsədi ilə sahibkarlıq inkişaf etdirilir. Regionların resursları məhdud və birtərəfli olduqda onlardan istifadə etmək üçün beynəlxalq resurslar dəvət olunur. Təbii ki, bu resursların miqdarı forması və istifadəsi regional sahibkarlıq əlaqələrinin məzmunu ilə uyğunlaşır.

Xarici kapitalın hesabına yerli resurslardan istifadə, region imkanlarını və potensialını artırır. Ona görə də müasir şəraitdə sahibkarlığın fəzası daha da genişlənir.

Hər bir regionda iqtisadi və sosial potensial xarici sahibkarların istifadəsinə cəlb olunduqda, əldə olunan gəlirlərin və sosial dividentlərinin artması prosesləri tənzimlənir. Hər bir sahibkarlıq imkanları müştərək və mülkiyyət hüququnu saxlamaqla sahibkarlıq fəaliyyətinə verilməsi gəlirlərin bölgüsü ilə tənzimlənir.

Sahibkarlığın əlavə əlamətləri və onların prinsipləri formasından asılı olmayaraq iştirak payı və gəlirlərin bölgüsündə tətbiq olunan mexanizmlər vasitəsi ilə reallaşır. Azərbaycanda bir sıra beynəlxalq və regional layihələr təcrübəsində iştirak və pay bölgüsü layihələri öz səmərəsini verir və təkmilləşir. *"İştirak payı və gəlir payı arasında ədalətli sistem və stimullar yaradılması 1994-cü ildən əsrin müqaviləsində tətbiq edilir"* [46].

*"Azərbaycanda sahibkarlığın tədqiqi yönündə atılan addımları üç əsas istiqamətə ayırmaq olar:*

- *sahibkarlığın sosial-iqtisadi kateqoriya kimi öyrənilməsi;*
- *sahibkarlığın müəyyən idarəetmə üsulu, təsərrüfatçılıq forması kimi öyrənilməsi;*
- *sahibkarlığın müəyyən iqtisadi təfəkkür və iqtisadi mədəniyyət tipi kimi öyrənilməsi"* [90, s.32].

Sahibkarlıq fəaliyyəti iqtisadi və sosial səmərə ilə ölkənin iqtisadi və sosial inkişafının tərkib hissəsi və inkişaf meylinin sinergetik amilidir. Bu zaman hər bir fəaliyyət bazar və sosial müdafiə qanunları ilə idarə edilir. Sahibkarlığa dəstək proqramları sosial müdafiə məqsədini güdür. Dövlət, bələdiyyə və sahibkarın sosial öhdəlikləri qanunlar sistemi ilə tənzimlənir. Belə ki, hər bir sahibkar iş yerləri və sosial müdafiə sistemində uyğun mexanizmlər yolu ilə iştirak edir. Pulsuz təhsil, pulsuz səhiyyə, ictimai təşkilatlar yolu ilə sosial obyektlərin fəaliyyəti sahibkarlıq və istehlak sferasında azad rəqabəti və maraqlara uyğun strategiyanı formalaşdırır. *"Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir"* [13].

İqtisadi və sosial maraqların tarazlı inkişafı uyğun planlaşma və idarəetmə metodları tələb edir. Sahibkarlığın səmərəsi daha çox iqtisadi göstəricilərlə tənzimlənir. İqtisadi artım və səmərəlilik strategiyası müəssisə və təşkilatın dayanıqlı və uzunmüddətli təminatı deməkdir. Məqsəd hər bir sahibkarın dayanıqlı və uzunmüddətli iqtisadi siyasətini formalaşdırır. Strateji plan obyekti olaraq sahibkarların inteqrasiyası mühüm şərtdir. İxtisaslaşma nə qədər dərin olsa da onun inteqrasiyaya ehtiyacı artır. Bazarların yenilənməsi daha çox yeni məhsul, xidmət və şərait yaratmaqla rəqabətin müxtəlif formalarında təşəbbüsü ələ almaqla mümkün olur. Bu məqsəd hər bir sahibkarın yeni texnologiyalara ehtiyacını və onun səmərəli tətbiqini tələb edir. Yeni texnologiyalar şərait və fəaliyyətin hazırlanması şərtlərini formalaşdırır.

Sahibkarlıq fəaliyyətinin əsas mexanizmi olaraq dövlət siyasətinin istehsal və sosial tədbirlərinin həyata keçirilməsi üçün tətbiq edilən mexanizmlərin hüquqi-iqtisadi normativlərin tərtibi və tətbiqi üçün metodiki şəraitin yaradılması təşkil edir. Hüquqi əsas olaraq qanunlar sistemi tətbiq edilir. *"Sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq Azərbaycan Respublikasının Konstitusiyası, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı, "Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında" Konstitusiya Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının qanunları, bu Qanun və bunların əsasında qəbul edilmiş digər qanunvericilik aktları ilə tənzimlənir"* [14]. Bu qanunlara aşağıdakı istiqamətləri həll etmək vəzifələri düşür:

- iqtisadi artım və məhsul istehsalına stimul yaratmaq yolu ilə vergi və ödəmələr sistemində sahibkarlara dəstək mexanizmlərinin tətbiqi;
- istehlakçıların hüquqlarının qorunması üçün dövlət nəzarətinin təşkili və idarə edilməsi;

- regionlar və sosial qruplar üzrə dəstək proqramlarının tətbiqi, bəzi məhsul və xidmətlər, fəaliyyətlər üzrə güzəştli maliyyə maddi və təşkilatı tədbirlərin keçirilməsi;
- sahibkarlığa ünvanlı maliyyə kredit və vergi güzəştləri etməklə daha çox stimullar yaradılması;
- bəzi məhsullar üzrə istehsal və istehlak bazarını təmin edən güzəştli kreditlər və dotasiyaların verilməsi;
- sosial müdafiə məqsədi ilə az təminatlı ailələrə və xüsusi istedadlara təhsil, ipoteka və uzunmüddətli kreditlər verməklə onların məşğulluğu və inkişafı üçün ilkin vəsaitlər ayrılması və şəraitlərin təşkili.

Sahibkarlığın mövcud vəziyyəti və onun rolu, kompleks göstəricilər, bir başa hesablamalar və analitik dəyişmələr yolu ilə qiymətləndirilir. Belə ki, müəssisə, təşkilatların sayı və onların dinamikası, buraxılan məhsulun miqdarı və səmərəlilik göstəriciləri qiymətləndirilir.

Sahibkarlığın qiymətləndirilməsi, perspektiv dəyişmələrə uyğun olaraq balanslaşdırılır. Prioritet istiqamət olaraq sahibkarlığın dinamikası aşağıdakı göstəricilərlə qiymətləndirilir:

- sahibkarlığın adambaşına istehsal göstəricisi və məhsulun növləri üzrə istehsalın struktur təhlili;
- sahibkarlığın ixracat potensialının və həcminin yüksəldilməsində payı və dəyişmə dinamikası, sahibkarlığa qiymət vermək metodikası və modeli.

Hər bir tədqiqatçının və yaxud idarəetmə subyektinin məqsədi və onun imkanları, həmçinin xarici təsirlərin effekti yaxud əks təsiri ilə izah olunur. Professor Ş.Qafarov qlobal və yerli sahibkarlıq fenomenini, biznes və innovasiya prizmasından ölçmək ideyasını verir. Makro və mikro səviyyədə sahibkarlıq xüsusiyyətləri açılmaqla onun dünya təcrübəsində reallaşmaq xüsusiyyətləri verilir.

*“Sahibkarlığa daha çox mexanizm kimi baxan alimlər və praktiki orqanlar onu ehtiyacın ödənilməsi yolu və ölkə iqtisadiyyatının təşkili mexanizmi kimi qiymətləndirirlər”* [67].

Sahibkarlığın inkişafının keyfiyyət meylləri və tənzimlənilməsi, onun strukturunun təkmilləşməsi ilə bağlıdır. Struktur model olaraq sahibkarlığın sahə, ərazi, funksional struktur kimi qiymətləndirilir. Sahibkarlığın özünün texnoloji, təşkilatı və idarəetmə strukturu da formalaşır. Struktur amil olaraq sahibkarlığın fond strukturu, məsrəf və xərc strukturu həmçinin kadr potensialına görə strukturu ilə fərqlənir. Məhz bu strukturun səmərəsi onun istehsal, xidmət və bazar, tələb və təklifi ilə bağlandıqda səmərəlilik göstəricisinin hesablanması mümkündür. Struktur amil olaraq yeni texnologiyaların və İKT-nın tətbiqi proqnozlaşdırılır.

Sahibkarlığın strukturu funksional səviyyədə iqtisadi inkişafın potensialını, daxili bazara təklif olunan məhsul və xidmətlərin həmçinin onun marketinq qurluşunu, ixracat potensialını və gəlirlilik səviyyəsində hər bir sahibkarlıq fəaliyyətinin səmərəsini formalaşdırır. Beləliklə sahələrarası tarazlılıq və balanslaşmanın son məhsula və daxili məhsula olan təsirini qiymətləndirməyə imkan verir.




**Şəkil 1.2.2. Struktur amilinin təsirlərini nəzərə almaqla qiymətləndirmə**

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

Şəkildən göründüyü kimi istehsal və istehlak strukturu bazarın marketinq strukturunu formalaşdırır.

Rəqabət mühiti bazar iqtisadiyyatının əsas prinsipi olmaqla və şəraiti üçün yaradılan liberallaşma, təşəbbüskarlıq və mənafelərin azad olaraq əldə edilməsinə yaradılan şəraitlə ifadə olunur.

Müasir şəraitdə sahibkarlıq mühiti, inhisar və antiinhisar, özəlləşmə və azad bazar rəqabəti prinsipləri ilə reallaşır. Hər bir sahibkarın fəaliyyəti bu prinsiplərin elmi və metodiki təminatı ilə reallaşır. Metodiki təminat olaraq azad iqtisadi fəaliyyət və təşkilatı idarəetmə sisteminin müasir tələblərə uyğun olması hər bir sahibkarın inhisarçı olmasına gətirib çıxara bilər. Amma *"inhisarçılığın suni yolla yaradılmasına qarşı antiinhisar qanunu və onun reallaşması mexanizmləri təkmilləşir"* [7]. Belə qanunlar bazarda ədalətli rəqabəti təmin etmək, istehlakçıların maraqlarını qorumaq və inhisarçılığın qarşısını almaq məqsədini güdür.

### 1.3. Regional sahibkarlığın xüsusiyyətləri

Sahibkarlığın miqyasına görə, iqtisadi artıma, sosial dəyişikliyə və ictimai inkişafa necə töhfə verdiyini müəyyən etmək üçün fərqli rollarına və tədqiqat obyeklərinə görə tədqiqatçılar tərəfindən araşdırılır. *"Sahibkarlıq miqyasına və roluna uyğun olaraq təsnifatlaşdırılır və tədqiqat obyekti olaraq təşkil olunur"* [38, s.86].

Regional iqtisadiyyat ölkə iqtisadiyyatının iyerarxik strukturunda makro səviyyəli vəzifələr və mikro səviyyəli tədbirlərin, proqramların və resursların region marağına və ölkə marağına uyğun əlaqəsini qurmaq funksiyasını reallaşdırır. Beləliklə region iqtisadiyyatı qapalı deyil, açıq və inteqrasiya iqtisadiyyatı rolunu oynamaqla, fərqli və elmi metodoloji xüsusiyyətlər kəsb edir. *"Bu xüsusiyyətləri nəzəri və praktiki aspektdən təhlil edib, planlaşma və idarəetmə sistemini qurmaq və uyğun işlək hala gətirmək təcrübəsi bu iqtisadi araşdırmaların metodoloji əsasıdır"* [35, s.44].

Region iqtisadiyyatının bir sıra problemləri, ümumi, sahə və funksional təyinatı ilə fərqlənir. Bu baxımdan idarəetmə sistemi yaradılır. Regionun iqtisadi və sosial potensialı onun ehtiyatları və perspektiv istifadəsi istiqamətləri, səmərəsi sahibkarlığın xüsusiyyətlərini formalaşdırır. Metodiki baxımdan hər bir regionda resurs potensialının istifadə texnologiyaları və onlardan istifadə mexanizmləri eyni olmadığı üçün özünəməxsus differensial yanaşma qaydaları istifadə olunur.

Regionun yalnız özünün maliyyə və maddi resurslar ilə inkişafı konsepsiyası siyasi və tərəqqi baxımından düz olmaz. Ona görə də regionun inkişafına müdaxilə formaları və mexanizmləri müxtəlif olur və müxtəlif qipotetik mülahizələrlə uyğunlaşır.

*"İlk növbədə regionun xarici və daxili amillərinin dəyişmə meylləri və mümkün transformasiyası nəzərə alınmaqla planlaşma və idarəetmə mexanizmləri tətbiq edilir. Regionda sosial və iqtisadi mexanizmlərin tarazlı inkişafı müasir innovasiyalı sistemin əsas prinsipidir. Rəqabət mühiti və bazar tələbi, maddi, maliyyə resursları və kadr potensialı hər bir regionda mövcud imkanları, yaxud potensialı formalaşdırır"* [89, s.93].

Hər bir regionun inkişafına müdaxilə dövlət resursları, büdcədən kənar vəsaitlər, xarici ölkə və firmalardan, dünya bank və maliyyə sistemindən ayırmalarla tənzimlənir. Regionda sahibkarlıq meyarı və göstəriciləri ölkənin uyğun parametrləri ilə müəyyənləşir. Hüquqi baza, ixtisaslaşma istiqaməti və məhsuldarlıq regiona uyğun resurslarla sahibkarlar tərəfindən planlaşdırılır. Sahibkar qərar qəbulu etməklə özünün imkanları və perspektiv hədəfləri ilə fərqlənir.

Regionun sahibkarlığı coğrafi və onun inteqrasiya imkanları ilə ölcülür, hər bir sahibkar olaraq regionun bazar infrastrukturu əsas rol oynayır. Regionda sahibkarlıq mühiti yaradılan infrastruktur şəraiti və dövlətin himayəsi ilə göstərilən maliyyə kredit, ipoteka və güzəştlər mexanizmi ilə tənzimlənir.

Proqmatik yanaşma, təhlil, qiymətləndirmə və strateji istiqamətləri əsaslandırmaqla sistem yanaşması tətbiq edilir. Ölkənin iqtisadi inkişafı və onun sosial problemləri tarixi gerçəklik və perspektiv dəyişmələrin qarşılıqlı əlaqəsində axtarılır. Azərbaycanın iqtisadi və sosial inkişafı mövcud potensialı və ərazi problemlərinin həlli üçün zəruri olan təşkilati idarəetmə yollarını özündə birləşdirir. *"Ölkədə tərtib olunan strateji planlaşma və islahatlar bu istiqamətləri əhatə edir"* [10].

"2022-2026-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın monitorinqi hər bir strateji məqsəd üzrə müəyyən olunmuş fəaliyyət indikatorları əsasında həyata keçiriləcəkdir.

**Cədvəl 1.3.1**

## Strateji məqsədlər üzrə əsas hədəf indikatorları

| Milli prioritetlər | Məqsədlər | İndikatorlar | 2021 | 2026 |
|---|---|---|---|---|
| Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat | Davamlı və yüksək iqtisadi artım | ÜDM-in artımı | 5,6% | 1,2dəfə (2021=100) |
| | | Qeyri-neft/qaz ÜDM-in artımı | 7,2% | 1,3dəfə (2021=100) |
| | | Qeyri-neft/qaz ixracının həcmi | 2,7 mlrd ABŞ | 1,8dəfə artım (2021=100) |
| | | Qeyri-neft/qaz sektoruna cəlb olunan birbaşa xarici investisiyaların həcmi | 790,4 min ABŞ dolları | hər il 10-15%artım |
| | | Əhalinin içməli su ilə təminat səviyyəsi | 70% | 85% |
| | | Əkin sahələrinin suvarma suyu ilə təminat səviyyəsi | 80% | 90% |
| | | Illik infilyasiya səviyyəsi | 12% | 4+2% |

*Cədvəl 1.3.1-in ardı*

| | | | | |
|---|---|---|---|---|
| Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat | Daxili və xarici təsirlərə dayanıqlıq | İcmal büdcənin qeyri-neftbaza kəsirinin qeyri-neft/qaz ÜDM-ə nisbət göstəricisinin orta müddətli dövr üzrə hədəflənən yuxarı həddi | 23,5% | 17,5% |
| | | Məcmu dövlət borcunun ÜDM-ə nisbət göstəricisinin orta müddətli dövr üzrə hədəflənən yuxarı həddi (o cümlədən 2022-ci il yanvarın 1-nə xarici dövlət borcu14,9%, daxili dövlət borcu isə 3,3%) | 18,2% | 20,0% |
| Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət | Inkişafdan hər bir vətəndaşın bəhrələnməsi | Qadınların orta əməkhaqqının kişilərin orta əməkhaqqına nisbəti | 65.8% | 80% |
| | Paytaxt və regionların tarazlı inkişafı | Ümumi məhsul buraxılışında regionların payı | 35% (2020-ci il) | 42% |
| | XXI əsrin tələblərinə uyğun təhsil | PİSA-da mövqe | 402 bal (2018-ci il) | 422 bal(2028-ci il) |
| | | Dünyada top 800-lükdə təmsil olunan Azərbaycan Universitetlərinin sayı | 0 | 3 |

| | | | | |
|---|---|---|---|---|
| Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı | Yaradıcı və innovativ cəmiyyət | Yüksək və orta yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdə xüsusi çəkisi | 10,1% (2020-ci il) | 15,0% |
| | Vətəndaşların sağlam həyat tərzi | Doğulanda gözlənilən ömür uzunluğu | 73,2 il (2020-ci il) | 75,2 il |
| | Dayanıqlı məskünlaşma | İşğaldan azad edilmiş ərazilərdə məskünlaşma | - | İlkin mərhələdə əhalinin planlaşdırılan məskünlaşması |
| İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış | İqtisadi fəaliyyətə reinteqrasiya | İşğaldan azad edilmiş ərazilərin ölkə üzrə iqtisadi fəaliyyətdə payının artırılması | - | Regionun ölkə üzrə əsas iqtisadi göstəricilərdə payının davamlı artması |
| | Yüksək keyfiyyətli ekoloji mühit | Ümumi ərazidə yaşıllığın payı<br><br>İstifadəyə yararsız torpaq sahəsinin payı | 12%<br><br>25% | 12,3% (əlavə 30 min ha sahə)<br>15% |
| Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi | "Yaşıl enerji" məkanı | Elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbəələrinin payı | 17,3% | 24% |

***Mənbə:*** *Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. URL: https://e-qanun.az/framework/50013*

Regionda inkişaf həmçinin digər regionlarla əlaqə və qarşılıqlı təsirlə müəyyənləşir. Regionda sahibkarlıq fəaliyyəti daxili bazar və xarici əlaqələri gücləndirmək üçün zəruri olan əmtəə və xidmətlərin istehsalı və istehlakı sferalarında təşkil olunur. Azərbaycanda region bazarları əhali tələbatı, miqrasiya intensivliyi və ixracat potensialını təmin etmək üçün daima genişlənir. Əmtəə və xidmət çeşid və keyfiyyətinə görə təkmilləşir. Ona görə də region səviyyəsində bazarın təşkili, bazarların qiymətləndirilməsi ilə başlayır. Müasir şəraitdə dünya iqtisadi və inteqrasiya sistemində daxili sahibkarlıq fəaliyyəti ilə məşğul olan sahələr və bazarları ələ alan əmtəə xidmət ixracatı ilə ixtisaslaşan regionlar mövcuddur. Belə ki, istehlakın növü və funksiyasına uyğun olaraq səhiyyə, təhsil, yaxud yeni texnologiya bazarları olan regionlar mövcuddur. Naxçıvan MR-in sahibkarlıq fəaliyyəti üzrə qiymətləndirilməsi mövcud vəziyyətə görə və perspektiv hədəflər şəraitində yeni layihələrə görə tədqiq və

təhlil edilə bilər. Belə ki, resurslar baxımından Naxçıvan MR-də aşağıdakı sahibkarlıq növü xarakterikdir:

- Turizm sahəsi üzrə sağlamlıq və kənd turizminin inkişafı;
- Sənaye üzrə xalq istehlakı malları, ərzaq və emal sənayesi məhsulları, ət, süd emalı müəssisələri;
- Ev təsərrüfatları üzrə daxili bazarı ödəmək üçün kənd təsərrüfatı məhsulları, meyvə, tərəvəz və həmçinin heyvandarlıq üzrə sahibkarlıq formaları;
- Naxçıvanda özünəməşğulluq üzrə, xalqa geyim əşyaları, ev təsərrüfatı üzrə sənət əşyaları və ev təsərrüfatı üçün lazım olan əmək alətləri;
- Tikinti sahəsi, o cümlədən təbii resurslardan istehsal olunan kərpiç, sement, kəc və keramik əşyalar;
- Naxçıvanda sənət üçün zəruri olan xidmətlər və təsərrüfatlara kömək edən səhiyyə, məsləhət və həmçinin təmir və bərpa xidmətləri müəssisələri;
- Yaşıl enerji istehsalı və ixracatı.

Yuxarıda göstərilən hər bir sahənin bazarı onun mütəşəkilliyini və onun əlaqəli sahələrinin kompleksliyini əhatə edir. Yuxarıdakı təsnifat blokada şəraitində Naxçıvanda inkişaf üçün fəaliyyət göstərən sahələrdir. Təbii ki, perspektiv sahələrdə meydana gəlməsi proqnoz xarakterli tədbirlərdən asılıdır. Sahibkarlığın fəaliyyət istiqaməti təşkilatı quruluş kimi daima dəyişir, yeni idarəetmə və struktur amillərlə bazara uyğun formalaşır.

Təbii ki, sahibkarlıqda bir sıra region üstünlüklər mövcuddur. Belə ki, regionun geosiyasi vəziyyəti, onun yerləşmə xüsusiyyəti və xarici iqtisadi əlaqələr xüsusiyyətləri kapital axınına səbəb olur. Kapitalın axını xarici və daxili maraqlar üzrə müəyyənləşir. Belə ki, məhsuldar kapital daha çox pul, investisiya kredit qoyuluşları və iş qüvvəsinin miqrasiyası ilə baş verir. Naxçıvan MR-sı, İran islam respublikası və Türkiyə ilə sərhəddə olduğu və blokada şəraiti, onun özünəməxsus ixrac, idxal və sahibkarlıq strukturunu formalaşdırır. Naxçıvanın perspektiv inkişaf istiqaməti olaraq onun məhz xarici ölkələrlə əlaqəsini nəzərə almaqla proqnozlaşdırılır. Daha çox şərq, qərb, cənub və şimal dövlətləri arasında iqtisadi əlaqələrin inkişafı Naxçıvanda

infrastruktur sahibkarlığın inkişafına səbəb ola bilər. İnfrastruktur sahibkarlığın inkişafı Naxçıvanda da səmərəli sferadır. Bu istiqamətlərə aşağıdakılar daxildir:

- Nəqliyyat sahəsi üzrə yol, təmir və içtimai iaşə üzrə, gəlmə-getmə amilləri üzrə göstəricilər;
- Naxçıvan prosesində turizmin inkişafı ilə bağlı olan infrastrukturun və xarici vətəndaşlara xidmət sahələrinin genişlənməsi;
- Naxçıvanda ev təsərrüfatının xarici vətəndaşlar, hüquqi və fiziki şəxslər üçün genişlənməsi;
- Naxçıvan MR-in istehsal məhsul və xidmətinin ixrac potensialı kimi istifadə edilməsi;
- Naxçıvan MR-də əlverişli əmək ehtiyatları balansının olması, onun sahə və məşğulluq strukturunda ixracat potensialının artırmaqla şərait yarada bilir. Məhz bu amillərin daha səmərəli təsərrüfat fəaliyyətinə cəlb edilməsi strategiyası tətbiq edilir;
- Naxçıvanın təbii coğrafi şəraitinin xüsusi iqlim və mövsum əlamətlərini nəzərə alaraq bu şəraitə uyğun təsərrüfat fəaliyyəti qurmaq və xarici bazarlara çıxmaq üçün məhsul və xidmətin keyfiyyətini yüksəldir.

Naxçıvan MR-in sosial iqtisadi inkişafı digər regionlarla sıx əlaqədə şəhər və kənd regionlarının ümumi respublika səviyyəsinə yaxınlaşması və dünya səviyyəsinə uyğun meyllərin formalaşmasına aparan islahatlar keçirilməsi ilə mümkün ola bilər. Regionun sosial-iqtisadi inkişafı respublika və region əlaqələrinin təsərrüfat mexanizmləri ilə tarazlı və maraqların uzlaşması prinsipi ilə həll olunur. Bu mexanizmlərə mərkəzləşdirilmiş büdcə ilə yerli büdcə arasında əlaqələr, regionun iqtisadi və sosial meyllərini, ümumi və gözlənilən hədəflərin çatdırılması üçün tətbiq edilən stimullar, bölgü və yenidən bölgü mexanizmlərinin tətbiqi aiddir. Regional differensasiya zəruri və obyektiv iqtisadi islahatlar və bir sıra təşkilati-iqtisadi idarəetmə metodları ilə təmin olunur. Bu məqsədlə məqsədli proqram və normativ sosial baza yaratmaq üçün modellər tətbiq edilir. Regionlarda klasterlər, sənaye və infrastruktur qovşaqları və mərkəzləri yaradılır. Regional klaster və mərkəzlər diktəedici və hərəkətverici funksiya rolunu artırır. Regionların infrastruktur sferası öz

tabeliyi və təşkilati qurluşuna görə fərqlənir. Regionların infrastruktur sahələrinə tələbat və istehlakçıların potensialı eyni deyil, hətta kənd yerlərində mövcud istehlakçı kontingentinin sayının azalması ucbatından həmin müəssisələrin bağlanması və yaxud zərərli işləməsi zəruriyyəti yaranır. Belə vəziyyət məskünlaşma səviyyəsinə və onun strukturuna təsir gücü ilə tənzimlənir. Bu da öz növbəsində dövlətin regional inkişaf strategiyasında rolunu və əlavə himayəçilik təsirini artırmağı tələb edir. Sosial müdafiə ilə regiona maddi-maliyyə dəstəyi, yaxud yumşaltma mexanizmləri tətbiq edilir. Təbii ki, bu təsirlərin hər biri elmi əsaslarla tərtib edilməli və onun tətbiqində hər bir təsərrüfat və yaxud idarəetmə orqanının, son nəticədə dövlətin vəzifəsi və imkanlarına təklif verən yollar tətbiq edilməlidir.

*“Regionun sosial problemlərinin həlli prioritet istiqamət olaraq əhalinin məşğulluğu və yaşayış şəraitinin yaxşılaşması, təhsil, səhiyyə, mədəni xidmət və digər sahələrin inkişafı ilə mümkün olur. Regionun inkişaf məqsədləri və Azərbaycan Respublikasının qlobal inkişaf strategiyası arasında qarşılıqlı təsir bölgü və yenidən bölgü mexanizmləri ilə təşkil olunur”* [89, s.93].

Hər bir iqtisadi və inzibatı regionun ictimai əmək bölgüsündə rolu, onun ərazi və sərəncamında olan sahibkarlıq obyektlərinin, təsərrüfatların və yaxud icarə edilən əmlak və təsərrüfatların sayı, məcmuu istehsalda payı və iş qüvvəsinin yerləşməsində rolu ilə müəyyənləşir.

Sahibkarların tövhəsi, onun mülkiyyət formasından və həmçinin liberallaşma səviyyəsi və koorperativ quruluşundan asılıdır. Bu proses dinamik olaraq struktur sfera kimi təkmilləşir.

Regional sahibkarlığın quruluşu və hədəfləri, xarici çağırışlar və təsirlərdən asılı olaraq dəyişmələrə və təkmilləşmə prosesinə məruz qalır. Bu aspektdə maliyyə amili, mülkiyyət formalarının üstünlüyü və ayrı ayrı sahələrin yerləşmə xüsusiyyətləri, həmçinin bazarın tələbi ilə formalaşır. Regionda investisiya mənbəyi olaraq xarici investisiyaların cəlb edilməsi və daxili investisiyaların istifadəsi üçün yaradılan şərait investisiyaların təşviqi, qorunması və gəlirlərin əlverişli bölgüsü ilə xarakterizə olunur. Hər bir investor rəqabət mühiti şəraitində gəlirlilik səviyyəsinə və onun perspektivinə

uyğun olaraq investisiya riskinə meyl edir. Maliyyə bazarına daxil olmaq, düzgün istehsal və bölgü sisteminin səmərəsi ilə ölçülür. Regionda özəlləşmə məhdud olmaqla yanaşı, maliyyə tarazlığı cəhətdən (maliyyə qıtlığı) disbalans yaradır. Ona görə də regionlara xarici və daxili investorların əsas bazarı xidmət və təbii resurslardan istifadə etmək strategiyası təşkil edir. Maliyyə resurslarının əsas mənbəyi olaraq xarici investorları cəlb etmək və sahibkarların kredit resurslarına tələbatını ödəmək yolu ilə həlli prioritet istiqamət olaraq qalır.

Maliyyə qıtlığı özü də məhsulun maya dəyərinin artmasına, borc faizinin artımı ilə məhsul və xidmətin gəlirlilik səviyyəsinin aşağı düşməsinə səbəb olur. Kredit faizi və əsaslı kapital xərcləri artır.

Regional sahibkarlıq inkişafının əsas mexanizmi makro və mikrosəviyyəli region siyasəti və onun mexanizmləri ilə ölçülür. Regionlara dəstək proqramları və bir sıra mexanizmlərin xüsusiləşməsi, ünvanlaşması regionda sahibkarlıq mühitini yaxşılaşdırır və rəqabət mühiti şəraitində təşəbbüskarlığı, kapital axınını artırır.

Regiona dövlət və beynəlxalq normalara uyğun olaraq baxış və konkret müdaxilə, həmin regionlarda sahibkarlıq mühitini formalaşdırır. Bu məqsədlə aşağıdakı istiqamətlər əsas rol oynayır:

- Faiz siyasətinin təkmilləşməsi və regionlara kapital axınını stimullaşdırmaq üçün güzəştli kreditlər və uzunmüddətli faiz normaları tətbiq etmək;
- Regionlarda əmək ehtiyatlarını stimullaşdırmaq üçün region əmsalları və yaxud sahələr üzrə əmək haqqının differensiyasında köklü fərqləri tətbiq etmək;
- Regionda xarici investisiya axını üçün azad iqtisadi zonalar, xüsusi məşğulluq obyektləri yaratmaq;
- Regionlarda infrastruktur obyektlərinin genişlənməsi və xidmət sferasının təşkilində və keyfiyyətində milli ənənəvi amillərin saxlanılması.

Region iqtisadiyyatı təbii coğrafi şərait və dövlətin, yerli icra orqanlarının, əhalinin təsərrüfatçılıq fəaliyyəti, mövcud resursları qiymətləndirməklə, istehsal və xidmət sferasını təşkil etmək qabiliyyəti ilə bağlıdır.

Dövlət siyasəti həmin regiona yaradılan şərait, mexanizm və həmçinin himayəçilik siyasətinin gücü ilə bağlıdır. Dövlətin himayəçilik siyasəti, dövlət maraqları və yerli əhalinin sosial iqtisadi inkişaf meyarları ilə tənzimlənir. Dövlətin mərkəzləşdirilmiş vəzifələri, təminatçılıq funksiyası və iqtisadi gücü, regionların payı və onların iştirakı ilə həll olunur. Ona görə də dövlətin büdcə, maliyyə, kadr potensialı və regionların inkişafına təsir tənzimlənir. Müasir şəraitdə hər bir regionda dövlət bələdiyyə və xüsusi mülkiyyətə əsaslanan fəaliyyət sahələri və vəsaitlər ümumi işin icrasında iştirak edir. Daha çox müasir təminat vasitələri və gəlir gətirmək imkanlarının fəaliyyətin keyfiyyətindən asılı olmasıdır. Hər bir regionda məhz təmin və himayə etməklə sosial maraqlara uyğun prioritetlər əsas aparıcı rol oynayır. Bu prioritetlərə daxildir:

- əhalinin məskunlaşmasının artması və miqrasiyanın azalması;
- iş yerlərinin və əmək ehtiyatlarının tarazlığının qorunması və işsizliyin azalması;
- əhalinin bütün təbəqələrinin rifah və tələbatı üçün təminat olan sosial müdafiə obyektlərinin və sosial müdafiə resurslarının təmin olunması;
- regiondaxili və regionlararası əlaqələrin tənzimlənilməsi;
- regionun resurs potensialının təkrar istehsalı üçün bölgü və yenidən bölgü mexanizmlərinin ədalətli və stimullaşdırıcı funksiyasının təmin olunmasına səbəb olan mexanizmlərin tətbiqi;
- regionların qərar vermək, bazara daxil olmaqda sərbəst seçim etmək və dövlət vəzifələrini yerinə yetirməkdə hüquqi və normativ əsaslarla iştirak etməsi;
- regionun ehtiyatlarının bərpa olması və onun müəyyən təminat səviyyəsinə yüksəldilməsi üçün sahibkarların və hər bir təsərrüfat formasının öhdəliklərinin olması;
- regionun sahibkarlarının dövlət prinsiplərinə uyğun inteqrasiya sisteminə qoşulması;
- mərkəzləşmiş fond və resursların təşkilində hər bir sahibkarın iştirak payına uyğun fəaliyəti.

Bütün bu vəzifələr və funksiyalar regionun subyekt və vahid sistem olmasını göstərir. Bu səlahiyyətlər regionun vahid təsərrüfatçılıq fəaliyyəti kimi sahibkarlıq subyekti kimi planlaşması və idarə edilməsi sistemini yaradır.

Regionda sahibkarlıq funksiyası həmin regionun daxili və xarici tələbatını ödəməyi və onun inkişafı üçün perspektiv tədbirlərin daşıyıcısı kimi qiymətləndirilməsi baş verir.

Belə ki, *"ölkədə innovativ inkişaf nəticəsində regionlarda istehsal və xidmət sahəsində innovativ sahibkarlıq fəaliyyəti inkişaf edə bilər. Bundan əlavə regionda regional innovasiya mərkəzlərini, elmi biznes və biznes inkubatorların yaradılması məqsədəuyğundur. Təyin olunmuş prioritetlərin həyata keçirilməsi nəticəsində regionların tam iqtisadi inkişafını müşahidə etmək olar"* [155, s.106].

Sahibkarların xarici iqtisadi əlaqələri və onların bazara uyğun fəaliyyət mexanizmi dövlət funksiyasını azaldır və dövlət gəlirlərinin formalaşması mənbəyi kimi çıxış edir. Beləliklə sahibkar əmək bölgüsündə və bazarın tələb və təklifində xüsusi rol oynayır. Bu rolun qiymətinə uyğun özünün dayanaqlığını və regionun resurs təminatını ödəyir. Sahibkarlıq gəlirləri üç əsas amildən asılı olaraq formalaşır:

- bazarın tələbinə uyğun qiymətli və gəlir gətirən fəaliyyət növü, məhsul və xidmətin bazar qiymətlərinin yüksək olması;
- müəssisə və təşkilat baxımından idarəetmə və optimal struktur əlaqələrin təşkili və ahəngdarlıq, texniki quruluş və məhsuldarlığın fərqli olması;
- müəssisələrdə yeni texnologiyaların tətbiqi və inovativ idarəetmə sisteminin tətbiqi ilə əlavə gəlir əldə edilməsi.

Bu gəlirlərin bölgüsü təkrar istehsal və əməyin dəyərinin ödənilməsi üçün əmək haqqı siyasətinin düzgün təşkil olunması regionda sahibkarlığa stimul yaradır. Hər bir regionda bu fəaliyyətlərin əlaqəsi vahid prinsiplə olsa da, onun reallaşması fərqli olur. Naxçıvan MR-də əhali gəlirləri daha çox fərdi sahibkarlıq hesabına yaranır. Torpaqların özəlləşməsi və fərdi sahibkarlığın şəraiti, Naxçıvanda ümumi məhsulun fərdi sahibkarlıq hesabına yaranmasına səbəb olur. Təhlil göstərir ki, əsas məhsulların 80-100%-i məhz sahibkarlıq yolu ilə yaradılır. Ət və ət məhsulları, respublikada fiziki

şəxs kimi fərdi sahibkarlıq yolu ilə 100 %-ə qədər məhsul təklifi bazarını təmin edir. Naxçıvanda ticarət, xidmət sferası və ictimai iaşə tamamilə özəlləşib. Hüquqi şəxs olaraq Naxçıvanda ticarət, xalq istehlakı malları, nəqliyyat sferası və bir sıra sağlamlıq-sanatoriya xidməti respublikada sahibkarlığın əsas istiqamətləridir.

Regionun inkişafı onun ərazisində yerləşən sahələrin kompleks təşkili və bir sıra vacib məhsullar üzrə klasterlərin yaradılması ilə baş verir. Bu aspektdə Naxçıvan MR-də mineral su istehsalı, sağlamlıq turizmi və təbii məhsulların əczaçılıq üçün emalı və istehsalı əsas prioritet istiqamətlər ola bilər.

Azərbaycan Respublikasında Naxçıvan MR-də olan resursların qıtlığı və ancaq bu ərazidə ehtiyatları, həmin ərazidə xüsusi zonalar yaratmaqla xarici investorların və ölkədaxili sahələrin cəlb edilməsini surətləndirmək olar. Naxçıvan MR-də daş duz istehsalı və bu ərazilər də müalicə-sanatoriya komplekslərinin genişlənməsi üçün sağlamlıq kompleksləri, uyğun otellər, amblatoriya müalicə müəssisələri və mineral su zavodları tikmək olar. Naxçıvan MR-in daxilində sahibkarlığın ərazi üzrə yerləşməsi və onun təşkili respublika ərazisində layihələşdirilən proqramlar ilə baş verir. Naxçıvan MR-in inzibatı ərazi rayonlarında çoxşaxəli resurs potensialı mövcuddur. O, cümlədən heyvandarlıq, əkinçilik və meyvə-tərəvəz istehsalı istiqamətində istehsal sahələri və sahibkarlıq formaları genişlənir. Daha səmərəli məşğulluq sahəsi olan aran regionlarda tərəvəz, taxıl və əkinçilik geniş yayılıb. Dağ regionlarında heyvandarlıq və meyvəçilik sferasında ailə və fərdi təsərrüfat formalarının potensialı daha yüksəkdir. Bu istiqamətlərdə sahibkarlığa dəstək proqramları tətbiq etmək olar.

Sahibkarlığın inkişafının Naxçıvan bölgəsi üçün ümumi cəhətlərlə yanaşı xüsusi aspektləri real və proqmatik prinsiplər kəsb edir. İlkin növbədə blokada şəraitli və onda çıxmaq şəraitində islahatlar proqramlarının əsaslandırılması əsas fərqli cəhətlər kəsb edir. Müasir şəraitdə regionun infrastruktur amillərinin təsirini qiymətləndirməklə perspektiv inkişafı hədəflərin qiymətləndirilməsi strateji planlaşma obyektidir. Digər tərəfdən perspektiv struktur dəyişmələri və Zəngəzur dəhlizinin, Şərq-Qərb, Cənub-Şimal iqtisadi, nəqliyyat və kommunikasiya əlaqələrinin təşkili şəraitində baş verən səmərəliliklərin nəzərə alınması mühümdür. Təbii ki, bu iqtisadi əlaqələri, iqtisadi

məkanın və bazar münasibətlərinin yeni variantını formalaşdırır. Beynəlxalq əlaqələr sistemində Naxçıvanın xüsusi zona kimi rolu genişlənir. Onun kompleks tədqiqi bu xüsusiyyətləri qiymətləndirir.

*"Naxçıvanın geosiyasi və sərhədlər məkanı olması onun ixracat potensialını artırmaq potensialıdır. Təbii və coğrafi resurslardan istifadə etməklə Türkiyə Respublikası və İranla iqtisadi əlaqələr genişlənə bilər"* [12]. Naxçıvanın strateji mövqeyi, təbii və coğrafi resursları, o cümlədən kənd təsərrüfatı məhsulları, mineral ehtiyatlar və digər yerli istehsal məhsulları kimi ixracat bazasının olması xarici bazarlara çıxış imkanının, həmçinin hər iki ölkə ilə iqtisadi əlaqələri genişləndirmək üçün imkanlar yarada və Naxçıvan iqtisadiyyatını gücləndirə bilər.

# II FƏSİL.
# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SAHİBKARLIĞIN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Naxçıvan Muxtar Respublikasında sahibkarlığın təhlili və meylləri

Region iqtisadiyyatında inkişaf, həmin regionun iqtisadi potensialı və regionun xarici-iqtisadi əlaqələri ilə ahəngdar olaraq inkişaf etdirilir. Regionun iqtisadi potensialı təbii-coğrafi əmək ehtiyatları, onlardan istifadə səmərəsi, həmçinin kompleks dəstək gücü ilə inkişaf etdirilir.

Regionda sahibkarlıq fəaliyyəti, həmin regionun daxili potensialından istifadə etmək və xarici resursların cəlb edilməsi hesabına əldə olunan gəlirlər və onun bölgüsü, yenidən bölgüsü ilə formalaşır. Kompleks şərait regionda formalaşır. Dünya və respublikanın iqtisadi və təşkilatı müdaxiləsi ilə həmin region inkişaf etdirilir.

Tədqiqatlar göstərir ki, Naxçıvan MR-də yaradılan dəyər, onun bütün tələbatını ödəmir. Ona ölkə səviyyəsində müdaxilə edilməklə, onun iqtisadi inkişaf dinamikası təmin edilir. Əgər müqayisəli təhlil etsək Azərbaycanın regionları ilə müqayisədə Naxçıvan MR-də təbii və coğrafi şəraitinə görə inkişaf etdirilməsi üçün imkanları vardır. Amma Naxçıvanın blokada şəraiti onun respublika və digər rayonlarla əlaqəsi kəsildiyi üçün onun iqtisadi inkişaf meylləri özünəməxsus kəmiyyət və keyfiyyət dəyişmələri kəsb edir. Onun dinamikasında qaçılmaz mənfi meyllər mövcuddur.

*“Naxçıvanın sosial-iqtisadi inkişaf istiqamətləri və təşkil mexanizmləri onun tranzit və sərhəd olması və blokada şəraitində bir sıra beynəlxalq və digər ölkələrlə əlaqədə həll olunur. Naxçıvan mövcud potensialı, təbii iqlim şəraiti və əhali artımında olan xüsusiyyətləri ilə digər regionlardan fərqlənir”* [88, s.32]. Sərhəd ticarəti yerli istehsalçıların məhsullarını asanlıqla ixrac etmələrini təmin edə bilər. Ticarət mübadiləsi, investisiya imkanları və birgə layihələr vasitəsilə yalnız Naxçıvanın deyil, həm də bütövlükdə bölgənin iqtisadi inkişafına töhfə verə bilər.

*“Naxçıvanın MR kimi hüquqi bazası dövlət statusu kəsb edir. Onun idarəetmə strukturu dövlət strukturu ilə eynidir”* [98].

Ümumi daxili məhsul Naxçıvanın xüsusi vəsaitlərinin mənbəyidir. Onun dinamikası 2000-2022-ci illərdə aşağıdakı göstəricilərlə ifadə olunur.

**Cədvəl 2.1.1**

**Ümumi daxili məhsulun dinamikası**

| İllər | Cəmi | | Hər bir nəfərə düşən | | |
|---|---|---|---|---|---|
| | min manat | min ABŞ dolları | Manat | ABŞ dolları | 1$ = manat |
| 2000 | 84862,4 | 94839,5 | 236,2 | 264 | 0,8948 |
| 2001 | 98 100,9 | 105337,6 | 269,9 | 289,8 | 0,9313 |
| 2002 | 118211,6 | 121591,9 | 321,9 | 331,1 | 0,9722 |
| 2003 | 168040,4 | 1711085,7 | 453,4 | 461,6 | 0,9822 |
| 2004 | 232441,6 | 236533,6 | 621,3 | 632,2 | 0,9827 |
| 2005 | 305796,5 | 323252,1 | 807,3 | 853,4 | 0,9460 |
| 2006 | 405657,3 | 45412,6 | 1059,7 | 1186,5 | 0,8931 |
| 2007 | 544958,9 | 634263,2 | 1407,4 | 1638 | 0,8592 |
| 2008 | 795763,6 | 968553,6 | 2016,6 | 2454,5 | 0,8216 |
| 2009 | 973649,3 | 1211458,6 | 2437,7 | 3029,4 | 0,8037 |
| 2010 | 1171305,7 | 1459389,1 | 2882,9 | 3591,9 | 0,8026 |
| 2011 | 1786341,6 | 2262050,9 | 4311,7 | 5459,9 | 0,7897 |
| 2012 | 2103424,3 | 2677474,9 | 4973,8 | 6331,2 | 0,7856 |
| 2013 | 2338927,7 | 2981044,7 | 5423,0 | 6911,8 | 0,7846 |
| 2014 | 2391004,2 | 3048195,1 | 5465,2 | 6867,4 | 0,7844 |
| 2015 | 2467422,4 | 2404660,8 | 5581,1 | 5439,1 | 1,0261 |
| 2016 | 2582361,4 | 1618122,3 | 5779,7 | 3621,6 | 1,5959 |
| 2017 | 2701663,0 | 1569730,4 | 5990,4 | 3480,6 | 1,7211 |
| 2018 | 2773020,5 | 1631188,5 | 6101,3 | 3589,0 | 1,7000 |
| 2019 | 2839650,0 | 1670382,4 | 6201,5 | 3647,9 | 1,7000 |
| 2020 | 2907810,5 | 1710476,8 | 6310,4 | 3712,0 | 1,7000 |
| 2021 | 3016315,0 | 1774302,9 | 6524,6 | 3838,0 | 1,7000 |
| 2022 | 2990130,1 | 1758900,1 | 6440,1 | 3788,3 | 1,7000 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır – URL: https://nstat.gov.az/storage/macros/March2025/aehtzvEZefXvZeCBs87h.xls*

ÜDM-un artım tempi və onun hər bir nəfərə düşən səviyyəsi iqtisadi inkişafın maliyyə imkanlarını formalaşdırır. 2022-ci ildə Naxçıvan MR-də adambaşına düşən ÜDM 2000-ci ildə 236,2 manatdan 6440,1 manata yüksəlmişdir. Yəni, 30 dəfəyə yaxın artmışdır. Naxçıvan MR-də ÜDM-nın artımı istehsalın və ixracın artımı ilə əsaslandırılır. Əhalinin artım tempi əvvəlki illərə nisbətən azalma meylinə malikdir.

**Cədvəl 2.1.2**

**Ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı, faizlə**

| İllər / Göstəricilər | 2006 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul-cəmi | 85,2 | 86,4 | 87,3 | 87,3 | 88,8 | 88,4 | 88,6 | 88,3 | 88,4 | 87,6 |
| Sənaye | 79,8 | 88,6 | 96,2 | 96,3 | 95,8 | 95,7 | 94,7 | 93,9 | 92,9 | 91,4 |
| Tikinti | 85,7 | 94,7 | 80,7 | 84,6 | 86,8 | 85,7 | 85,3 | 86,9 | 89,8 | 89,6 |
| Kənd təsərrüfatı | 98,2 | 97,9 | 98,4 | 98,4 | 98,4 | 98,4 | 98,4 | 98,4 | 98,5 | 98,4 |
| Nəqliyyat | 74,0 | 89,7 | 88,8 | 82,5 | 81,3 | 80,6 | 80,9 | 92,7 | 85,0 | 81,2 |
| İnformasiya və rabitə | 74,6 | 85,0 | 82, 9 | 81,4 | 81,4 | 80,4 | 79,8 | 77,3 | 72,8 | 71,4 |
| Topdan və pərakəndə ticarət | 99,8 | 99,8 | 99,9 | 99,8 | 99,8 | 99,8 | 99,8 | 99,8 | 99,8 | 99,8 |
| Yaşayışın təşkili və ictimai iaşə | 92,6 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100, 0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Sosial və digər xidmətlər | 9,5 | 29,0 | 29,5 | 29,5 | 28,0 | 26,7 | 31,7 | 27,8 | 26,5 | 24,6 |


| İllər / Göstəricilər | 2006 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul-cəmi | 85,2 | 86,4 | 87,3 | 87,3 | 88,8 | 88,4 | 88,6 | 88,3 | 88,4 | 87,6 |
| Sənaye | 79,8 | 88,6 | 96,2 | 96,3 | 95,8 | 95,7 | 94,7 | 93,9 | 92,9 | 91,4 |
| Tikinti | 85,7 | 94,7 | 80,7 | 84,6 | 86,8 | 85,7 | 85,3 | 86,9 | 89,8 | 89,6 |
| Kənd təsərrüfatı | 98,2 | 97,9 | 98,4 | 98,4 | 98,4 | 98,4 | 98,4 | 98,4 | 98,5 | 98,4 |
| Nəqliyyat | 74,0 | 89,7 | 88,8 | 82,5 | 81,3 | 80,6 | 80,9 | 92,7 | 85,0 | 81,2 |
| İnformasiya və rabitə | 74,6 | 85,0 | 82, 9 | 81,4 | 81,4 | 80,4 | 79,8 | 77,3 | 72,8 | 71,4 |
| Topdan və pərakəndə ticarət | 99,8 | 99,8 | 99,9 | 99,8 | 99,8 | 99,8 | 99,8 | 99,8 | 99,8 | 99,8 |
| Yaşayışın təşkili və ictimai iaşə | 92,6 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100, 0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Sosial və digər xidmətlər | 9,5 | 29,0 | 29,5 | 29,5 | 28,0 | 26,7 | 31,7 | 27,8 | 26,5 | 24,6 |


***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır – URL: https://nstat.gov.az/storage/macros/January2025/dBMGahi16imzIvq0Lnz1.xls*

ÜDM-nın artımı onun sahə quruluşunda baş verən mütərəqqi dəyişmələr innovasiyalı texnologiyaların tətbiqi həmçinin beynəlxalq iqtisadi əlaqələrin səmərəli inkişafı ilə izah olunur. Naxçıvanda sahibkarlığın bəzi sahələrdə ÜDM-də xüsusi çəkisi

85-100% təşkil edir. Bu artım Naxçıvanda özəlləşmənin hesabına baş vermişdir və özəl sektorun məhsul və xidmət istehsalında xüsusi çəkisinin artımı ilə izah olunur. ÜDM-də qeyri-dövlət sektorunun payı 2022-ildə 88% təşkil edib. Bir sıra sahələr bütövlükdə qeyri-dövlət sektorunun inkişafı ilə bağlıdır.

Ümumi daxili məhsulun strukturunda sənaye, tikinti, kənd təsərrüfatı, ticarət, yaşayış evləri və içtimai iaşə demək olar ki, 95-100% özəlləşib. Qeyri-dövlət sektorunun rolu sosial xidmətlər sahəsində xeyli aşağı, yəni, 24,6%-dir.

Naxçıvan MR-in ÜDM-nun 50%-ə qədəri sənaye tikinti və kənd təsərrüfatı hesabına yaradılır. Bu sahələrin xarakteri kiçik və orta sahibkarlıq üçün əlverişlidir.

**Cədvəl 2.1.3**

**Ümumi daxili məhsulun sahə strukturu, faizlə**

| İllər / Göstəricilər | 2006 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sənaye | 10,8 | 18,3 | 28,7 | 27,8 | 27,6 | 27,4 | 27,6 | 27,6 | 27,1 | 25,7 |
| Tikinti | 12,0 | 19,0 | 21,7 | 20,7 | 19,9 | 19,6 | 19,3 | 19,3 | 19,1 | 18,0 |
| Kənd təsərrüfatı | 18,2 | 14,3 | 11,4 | 11,2 | 11,2 | 11,6 | 12,0 | 12,4 | 12,9 | 13,4 |
| Nəqliyyat | 5,1 | 2,5 | 1,7 | 1,8 | 1,7 | 1,7 | 1,7 | 1,5 | 1,6 | 1,7 |
| İnformasiya və rabitə | 2,0 | 2,5 | 1,5 | 1,5 | 1,5 | 1,5 | 1,5 | 1,5 | 1,6 | 1,6 |
| Topdan və pərakəndə ticarət, avtomobillərin təmiri | 23,9 | 24,4 | 23,4 | 25,8 | 27,0 | 26,9 | 26,7 | 26,3 | 25,9 | 26,6 |
| Yaşayışın təşkili və ictimai iaşə | 0,5 | 0,8 | 0,6 | 0,6 | 0,6 | 0,6 | 0,6 | 0,2 | 0,1 | 0,1 |
| Sosial və digər xidmətlər | 23,0 | 15,3 | 9,3 | 9,1 | 9,0 | 9,0 | 8,8 | 9,0 | 8,8 | 9,0 |
| Məhsula və idxala xalis vergilər | 4,5 | 2,9 | 1,7 | 1,5 | 1,5 | 1,7 | 1,8 | 2,2 | 2,9 | 3,9 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır – URL:* *https://nstat.gov.az/storage/macros/March2025/SrAwhIbP0Kvdam9uC6Ry.xls*

Sahibkarlığın sahə quruluşu resursların mahiyyəti, onun ailə və kollektiv təsərrüfat üçün əlverişli bazarı ilə müəyyənləşir. Belə ki, dövlət mülkiyyətində olan

mineral su ehtiyatları istifadə üçün özəl sektorlarla istifadə edilir. Hüquqi şəxs kimi içməli su ehtiyatları şirkətlərlə sənaye istehsalı çoxdur. Bu ehtiyatlar kənd təsərrüfatı və məişət üçün istifadə olunur.

Öz xüsusi çəkisinə görə tikinti sektoru prioritet istiqamət olaraq 2015-ci ildə 21,7%-ə qədər yüksəlmişdir. Ümumilikdə bu rəqəm 2006-cı ildə 12,0 % olduğu halda 2022-ci ildə 18,0 %-ə qədər yüksəlmişdir. Tikinti sektorunda fərdi sahibkarlıq daha xarakterikdir. Mənzil tikintisi kənd yerlərində özünün prioritetliyini saxlayır.

Naxçıvan MR-də iqtisadi inkişaf və sahibkarlıq fəaliyyəti blokada şəraitində yerli potensiala və tələbata əsaslanıb iqtisadi böhrandan çıxmaq məqsədi ilə təşkil olunub və təkmilləşib. *"1992-1993-cü illərdə Naxçıvanda sahibkarlığın ilkin əsası olan bazar tipli modelə uyğun olaraq, özəlləşmə və kolxoz-savxozun miras qalmış əmlakı və resurslarının özəlləşmə modeli ulu öndər Heydər Əliyev tərəfindən xüsusi model olaraq tətbiq edilir"* [27]. Sonradan bu təcrübə respublika üzrə 1994-cü ildən başlayaraq tətbiq olunur. Özəlləşmənin prinsipi mülkiyyətdə rəqabətqabiliyyətli istifadə şəraiti yaratmaqdan ibarət olmuşdur. Naxçıvanın sahibkarlıq strukturunda və onun dinamikasında resurslara əsaslanan və özünütəminat, ixracat yönümlü fəaliyyətlər, prioritet istiqamət olaraq strateji xətt kimi özünü göstərir. Kənd təsərrüfatı və xidmət sferası Naxçıvanda prioritet olaraq aparıcı xalq təsərrüfatı həlqəsidir. Müasir şəraitdə bir sıra xidmət və tranzit resurslardan istifadə etmək layihələri genişlənib. Qədim ipək yolunun bərpası, turizm və yükdaşıma, ticarət və içtimai iaşə sahələri sahibkarlıq üçün əsas istiqamət olaraq inkişaf edir. Ölkədə iqtisadi və sosial potensiala uyğun reallaşan proqramlar o, cümlədən turizmin inkişafına dair 2010-2014-cü il dövlət proqramı, turizmin inkişafına təsir etmişdir. Naxçıvan MR-da duz dağından sağlamlıq turizmi, dini turizm, ekoloji turizm və etnik turizm növləri sahibkarlığın inkişafında yeni istiqamətlərdir. Daha çox blokada şəraitində nəqliyyat və yerli əhalinin Bakı, İran və Türkiyə marşrutları ilə hərəkəti hava nəqliyyatı, avtomobil səyahətləri və tranzit əlaqələri geniş yayılıb.

*“Azərbaycan regionlarında turizmin inkişafı haqqında dövlət tədbirləri ilə yanaşı ev təsərrüfatı və özünəməşğulluq sferası turizmin inkişafına səbəb olur”* [50, s.28].

Naxçıvan MR-in tranzit ərazi olması onun infrastruktur layihələrinin şaxələnməsini tələb edir. Müasir dövrdə və perspektiv transformasiya modeli olaraq beynəlxalq səlahiyyətli xidmət və maliyyə sistemləri inkişaf etməlidir. Təbii ki, Naxçıvanın sahibkarlığında istehsal və xidmət infrastrukturunun inkişafı üçün investisiya mənbəələrini stimullaşdırmaq mexanizmləri hazırlanmalı və tətbiq edilməlidir.

İnvestisiya mənbəyi olaraq ölkədə bank kreditləri, ipoteka yolu ilə vəsaitlər və xarici investisiyalar əsas rol oynayır. İnvestisiyanı xarici ölkələrdən və respublikanın sahibkarları ilə gətirilməsi üçün azad iqtisadi zonalar, ünvanlı kapital qoyuluşları və ədalətli bölgü sistemi yaradılmalıdır. İnvestisiya imkanlarını artırmaq, iştirak ölkələri və şirkətləri cəlb etmək üçün resurs potensialından səmərəli istifadə etmək və onun təkrar istehsalı üçün pay bölgüsünün təkmilləşməsini tələb edir. Bu baxımdan ucuz resursların təkrar istehsalı üçün təkcə xərc strukturu ilə bölgü aparmaq yox, son məhsulun istehlak qiymətlərinin hesabına gəlirlərin formalaşmasında əlavə dividient, yaxud renta gəlirləri tətbiq etmək olar.

Bu baxımdan Naxçıvan MR-də sahibkarlıq mexanizmləri regionun sosial-iqtisadi inkişafı və ərazinin inkişafı üçün zəruri olan ehtiyatları qiymətləndirməklə reallaşmalıdır. Naxçıvanda perspektiv sahibkarlıq növü enerji ehtiyatlarından istifadə və ixracat həcmini artırmaq təşkil edir. Naxçıvanda ehtiyat mənbəyi olaraq, Araz çayı, Arpa şayı, Əlincə və Naxçıvan çayı təşkil edir. Müasir şəraitdə alternativ enerji mənbəələri genişlənir. Daha çox günəş enerjisi və dağ çaylarına uyğun olaraq enerji istehsalı perspektiv sahibkarlıq obyektləri kimi səmərəli fəaliyyət növüdür.

Sahibkarlıq fəaliyyəti xüsusi vəsaitlərin, əmlakın istifadəsi üçün alternativ məşğulluq sahələri ənənəvi bir sahələri nəzərə almaqla fərdi, ailə və kollektiv təsərrüfat formaları əhəmiyyətlidir.

Sosial sahibkarlıq, özünəməşğulluq, ev təsərrüfatına dəstək proqramları müasir sahibkarlığın səmərəli formasıdır. Sahibkarlığın Naxçıvan modeli, onun daxili tələbatını ödəmək və ixracat potensialını artırmaq hədəflərinə doğru inkişaf meyllərini təmin etmək vəzifəsini qarşıya qoyur. Ev təsərrüfatının ənənəvi xarakteri, məhsul və xidmətin keyfiyyəti ixracat yönümlü fəaliyyət kimi müasir imkanlarla təzələnir.

Enerji resurslarına təbii yolla istehsalını artırmaq və ixracat yönümlü kənd təsərrüfatı istehsalı aparıcı rol oynamalıdır. Naxçıvan MR-də kənd təsərrüfatı məhsullarının dinamikası aşağıdakı istiqamətlərdə inkişaf edir.

**Cədvəl 2.1.4**

**Naxçıvan Muxtar Respublikasının 2000-2022-ci illər ərzində kənd təsərrüfatının ümumi məhsulu ( faktiki mövcud qiymətlərlə, milyon manatla)**

| İllər | Kənd təsərrüfatı məhsulu | Əkinçilik məhsulları | Heyvandarlıq məhsulları | Adambaşına, manatla |
|---|---|---|---|---|
| 2000 | 55,4 | 32,2 | 23,2 | 152,6 |
| 2001 | 62,3 | 36,6 | 25,7 | 169,8 |
| 2002 | 69,2 | 41,5 | 27,7 | 186,8 |
| 2003 | 71,8 | 43,7 | 28,1 | 192,02 |
| 2004 | 78,1 | 42,9 | 35,1 | 206,7 |
| 2005 | 98,3 | 59,5 | 38,7 | 257,3 |
| 2006 | 109,0 | 67,2 | 41,8 | 282,4 |
| 2007 | 122,4 | 68,7 | 53,7 | 312,4 |
| 2008 | 153,4 | 93,9 | 59,5 | 386,1 |
| 2009 | 185,1 | 116,4 | 68,7 | 460,0 |
| 2010 | 247,1 | 156,0 | 91,1 | 602,5 |
| 2011 | 296,1 | 193,0 | 103,1 | 707,5 |
| 2012 | 318,8 | 211,6 | 107,2 | 746,3 |
| 2013 | 337,1 | 223,0 | 114,2 | 774,4 |
| 2014 | 355,2 | 229,6 | 125,5 | 807,6 |
| 2015 | 403,0 | 256,1 | 146,9 | 906,8 |
| 2016 | 429,5 | 263,8 | 165,6 | 956,4 |
| 2017 | 453,4 | 282,2 | 171,2 | 1001,3 |
| 2018 | 480,0 | 302,7 | 177,3 | 1052,4 |
| 2019 | 507,6 | 323,6 | 184,1 | 1104,4 |

*Cədvəl 2.1.4-ün ardı*

| | | | | |
|---|---|---|---|---|
| 2020 | 537,6 | 348,7 | 188,9 | 1164,4 |
| 2021 | 573,4 | 376,1 | 197,3 | 1238,2 |
| 2022 | 590,6 | 384,8 | 205,8 | 1268,2 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır – URL: https://nstat.gov.az/storage/section-graphs/September2023/ZJcESmnJdl1NDH8y51UQ.xls*

Kənd təsərrüfatı məhsullarının emalı üzrə sahibkarlıq fəaliyyəti ixracat yönümlü məhsulların istehsalı üzrə ixtisaslaşmalıdır. Şərqi Zəngəzur dəhlizinin istifadəyə verilməsi şəraitində Naxçıvan ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının ixracatı mümkün olacaq.

Kənd təsərrüfatı mallarının istifadəsi daha çox yerli əhalinin tələbatına və ixrac məhsulu kimi istifadə olunur. Naxçıvanda kənd təsərrüfatı məhsullarının marketinq təhlili, onun keyfiyyəti və çeşidlərinin xüsusi olaraq bu ərazi ilə bağlı olması xarakterik hal kimi qiymətləndirilir. Meyvə, tərəvəz növü nümunəvi əmtəə kimi daxili və xarici bazarda daha çox alıcılıq qabiliyyəti ilə səciyyələnir. Bu məhsulların emalı yolu ilə alınan məhsulların artımı məşğulluğun artımına və gəlirlərin artımına səbəb olur. Naxçıvanda kənd təsərrüfatı ilə bağlı sənaye və xidmət sferasının genişlənməsi, regionun kompleks inkişaf istiqaməti olaraq daha da prioritet istiqamətdir. Kənd təsərrüfatında məşğulluq və sahibkarlıq daha xarakterikdir.

Kənd təsərrüfatı məhsullarının istehsalı infrastruktur sahələrinin tələbata uyğun yerləşməsi və onlardan istifadə səmərəsi ilə formalaşır. Su ehtiyatları meliorasiya və suvarma sisteminin inkişafını iş qüvvəsi, məşğulluq və və istehsal həcmi ilə kənd təsərrüfatı istehsalı amillərinin tarazlaşması aspektində problemlər mövcuddur. Naxçıvanda fərdi təsərrüfatçılıq dinamik olaraq inkişaf edir. Daha çox meyvə-tərəvəz və heyvandarlıq məhsulları bazara çıxarmaq üçün səmərəli fəaliyyət dairəsidir. Naxçıvanda istehsal olunan enerji resurslarının dinamikası aşağıdakı kimidir.

**Cədvəl 2.1.5**

**Naxçıvan Muxtar respublikasında enerji istehsalı, mln. kvt-saat**

| İllər | Həcm |
|---|---|
| 2015 | 450,6 |

*Cədvəl 2.1.5-in ardı*

| | |
|---|---|
| 2017 | 437,2 |
| 2018 | 431,4 |
| 2019 | 423,4 |
| 2020 | 429,8 |
| 2021 | 451,0 |
| 2022 | 474,8 |

***Mənbə:*** *Cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır – URL: https://www.stat.gov.az/source/regions/#*

Naxçıvan MR-in resurs potensialı təbii resurslar və insan amili üzərində transformasiya olunur və özünün inkişaf modelini kəsb edir.

Resurs modeli olaraq əhalinin sayı, onun dinamikası və yerli əhalinin məşğulluğu həmçinin onun təsərrüfatçılıq sahələri ilə məhsul və xidmət istehsal etmək qabiliyyətidir. Resurs modeli olaraq əhalinin məşğulluğu əsas hədəf olaraq kiçik və orta sahibkarlıq formalarına uyğun təşkilati, maliyyə yardımı götürülməlidir.

Resursların ehtiyatları tükənir. O, cümlədən əsas resurs olan içməli və mineral suların istehsalı və ixracatı üçün yeni istiqamətlər əsaslandırılır. Daha çox təbii sərvətlər olan hava, su və minerallar istehsalı və istifadəsi istiqamətləri olan yeni sahələr inkişaf etdirilir. İşçi qüvvəsinin məşğulluğunun artırılması yolu olan özəl sektorun və ev təsərrüfatının inkişafı əsas istiqamət olaraq genişlənir.

Məskunlaşma strategiyası olaraq əmək ehtiyatları balansı və onların istifadəsi üçün iş yerlərinin açılması əmək balansları tərtib edilir.

Naxçıvan MR-də əhalinin dinamikası artım tempinə malik olsa da miqrasiya daha intensiv artır.

**Cədvəl 2.1.6**

**Naxçıvan Muxtar Respublikasında əhalinin dinamikası, min nəfərlə**

| İllər | Əhali | Əmək qabiliyyətli | Miqrasiya |
|---|---|---|---|
| 2000 | 358.8 | 173,8 | -5,5 |
| 2001 | 363.1 | 174,5 | -4,7 |
| 2002 | 366.9 | 175,6 | -3,1 |
| 2003 | 370.4 | 177,2 | -1,3 |
| 2004 | 373.9 | 178,8 | -0,4 |
| 2005 | 377.8 | 180,3 | -0,9 |

*Cədvəl 2.1.6-nın ardı*

| | | | |
|---|---|---|---|
| 2006 | 382.1 | 182,5 | -0,4 |
| 2007 | 386.0 | 184,7 | -1,1 |
| 2008 | 391.8 | 193,5 | 1,1 |
| 2009 | 397.3 | 207,3 | 0,9 |
| 2010 | 402.4 | 211,8 | 1,4 |
| 2011 | 410.1 | 216,5 | 1,7 |
| 2012 | 418.5 | 221,0 | 2,0 |
| 2013 | 427.2 | 224,6 | 2,3 |
| 2014 | 435.3 | 228,6 | 1,1 |
| 2015 | 439.8 | 231,0 | 1,1 |
| 2016 | 444.4 | 233,5 | 1,5 |
| 2017 | 449.1 | 235,54 | 1,2 |
| 2018 | 452.8 | 237,4 | 1,6 |
| 2019 | 456.1 | 249,1 | 0,4 |
| 2020 | 459.8 | 251,6 | 1,1 |
| 2021 | 461.7 | 253,7 | 1,8 |
| 2022 | 463.1 | 256,2 | 1,8 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır – URL: https://nstat.gov.az/sectiongraphic?id=12*

Naxçıvan əhalisinin artımı ilə miqrasiya arasında meyl artır. Bunun regionun blokada şəraitində olması, kiçik sahibkarlıq fəaliyyətinin, məhsul istehsalının xarici bazarlara çıxış imkanlarının azalması, hətta bəzi məhsulların daşınmasında İran İslam respublikasının ərazisindən keçməsinə Bakı və digər regionlara, ölkələrə daşınması əlavə xərclərin və vaxtın artmasına səbəb olur. Bu da ev təsərrüfatı məhsulunun bazara və yaxud istehlak üçün daşınmasına ciddi maneçilik edir. Əhalinin Naxçıvanla əlaqəsi ancaq hava yolu ilə mümkün olduğu üçün turistlərin və yerli əhalinin gediş-gəlişini azaldır, əlavə xərcləri çoxaldır. Əhalinin məşğulluq sferası daha çox kənd təsərrüfatı sahəsi və ticarət sferasıdır. İctimai iaşə xidməti hələ ki, müasir inkişaf etmiş regionlarla müqayisədə xeyli aşağıdır. Bu isə əhali gəlirlərinin aşağı olması və içtimai iaşə müəssisələrində xərcin yuxarı olması ilə bağlıdır.

Naxçıvanda xidmət sahibkarlığının özünün xüsusiyyətləri mövcuddur. Dinamik olaraq xidmət sferası genişlənir. Aşağıdakı dinamika xidmət istehlakının əsas istiqamətlərini müəyyənləşdirir.

**Cədvəl 2.1.7**

**Naxçıvan Muxtar Respublikasında pərakəndə əmtəə dövriyyəsi və əhaliyə göstərilən pullu xidmətlərin dinamikası, min manat**

| İllər | Pərakəndə əmtəə dövriyyəsi və əhaliyə göstərilən pullu xidmətlərin ümumi həcmi | Pərakəndə əmtəə dövriyyəsi, iaşə daxil olmaqla | Əhaliyə göstərilən pullu xidmətlər |
|---|---|---|---|
| 2000 | 77651,8 | 66925,3 | 10726,5 |
| 2005 | 174273,3 | 147971,7 | 26301,6 |
| 2010 | 723696,7 | 616454,4 | 107242,3 |
| 2015 | 1472816,2 | 1276986,7 | 195829,5 |
| 2016 | 1719995,0 | 1506343,6 | 213651,4 |
| 2017 | 1895877,2 | 1659917,9 | 235959,3 |
| 2018 | 1941909,2 | 1702011,3 | 239897,9 |
| 2019 | 1968616,2 | 1725839,5 | 242776,7 |
| 2020 | 1981244,5 | 1737755,2 | 243489,3 |
| 2021 | 2040391,3 | 1790453,2 | 249938,1 |
| 2022 | 2072470,5 | 1819458,3 | 253012,2 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır – URL: https://nstat.gov.az/sectiongraphic?id=1*

Naxçıvan MR-də pulsuz xidmət sferası olaraq dövlət müəssisələri və ümumi məqsədlərə xidmət edən fəaliyyətlər daxildir. Respublika daxili problemlərin həlli, insanların bütün sosial qruplarının tələbatına yönəldilən sahələrdir. O, cümlədən təhsil, səhiyyə və mədəni sferada rəqabət mühiti yaratmaqla yanaşı dövlət himayəsi altında olan xidmətlər, uşaq bağçaları, pulsuz səhiyyə xidməti ilə yanaşı özəl müəssisələr də mövcuddur.

Sahibkarlığın əsas nüvəsi, ev təsərrüfatları və fərdi sahibkarlıq fəaliyyəti təşkil edir. Daha çox kənd təsərrüfatı ilə məşğul olan hüquqi və fiziki şəxslər, torpaq icarəsi və icarə müəssisələrində fəalliyyət göstərən icarədarlar, menecerlər və özünün qabiliyyətinin sahibi olan iş qüvvəsi mövcuddur. Naxçıvan MR-də təhsil səviyyəsi 100% savadlıq meyarına cavab verir. Əhalinin ən ucqar kəndlərdə tələbatını ödəmək üçün pulsuz təhsil müəssisələri mövcuddur. Nəqliyyat xidməti bütövlükdə özəlləşib yükdaşıma, şəhərlərarası nəqliyyat və hava nəqliyyatı müasir tələblərə cavab verməklə, beynəlxalq standartlara uyğun gəlir. Gömrük xidmətləri və beynəlxalq yükdaşıma sahibkarlığın müxtəlif aspektlərini və sahələrini birləşdirir. Bu sahələr yeni rəqəmsal

şəraitdə yeniləşir. Fiziki şəxs kimi sahibkarlıq fəaliyyəti nəqliyyat və ev təsərrüfatına muzdlu əməkçilərin cəlb edilməsi ilə iqtisadi sistemin tərkib hissəsidir.

*"Naxçıvanın sahibkarlıq modeli özünəməxsus xüsusiyyətlər və idarəetmə mexanizmləri əks etdirir. Ümumiyyətlə, Naxçıvan MR-də aşağıdakı idarəetmə mexanizmi olaraq təkmilləşdirmək lazımdır:*

- *kiçik sahibkarlığa dəstək proqramları üzrə prioritetlər;*
- *Naxçıvanda yerli tələbata uyğun məhsul və xidmət növü üzrə fəliyyət;*
- *ev təsərrüfatı və özünəməşğulluq sahəsində fəaliyyətin təşkili və təşəbbüskarlıq fəaliyyəti kimi stimullaşdırılması;*
- *Naxçıvan Muxtar Respublikasında mövcu bazarlara uyğun və ixrac yönümlü istiqamətdə təsərrüfat fəaliyyətinin qurulması;*
- *Naxçıvan Muxtar Respublikasında daha çox yerli resurslara əsaslanan emal sənayesinin formalaşdırılması və kənd təsərrüfatı məhsulları istehsalı üzrə brend texnologiyaların tətbiqi;*
- *Naxçıvanda yerli və təbii resurslar olan mineral su istehsalının, ərzaq istehsalının mülkiyyət formalarının və istifadə texnologiysının yenilənməsi;*
- *Naxçıvanda infrastrukturların şərq-qərb və şimal-cənub istiqamətində istifadəsi zamanı obyekt və fəaliyyətlərin təşkili;*
- *Naxçıvan Muxtar Respublikasının təhsil, səhiyyə və bir sıra mədəni sahələrinin dünya və respublika səviyyəsinə çatdırılması məqsədi ilə lahiyələrin hazırlanması.*

*Təbii ki, bu və ya digər təşkilatı-iqtisadi tədbirlər Naxçıvan Muxtar Respublikasının mövcud resurslarının səmərəli istifadə edilməsi yolları ilə mümkündür. Bu da muxtar respublikada elmi əsaslara söykənən elmi-texnoloji lahiyələrin təşkili ilə əlaqəlidir"* [88, s.36]. Naxçıvanın sahibkarlıq modeli iqtisadi, mədəni və coğrafi amillərin unikal şəkildə vəhdəti ilə xarakterizə olunur. Resurslarını, strateji mövqeyini və dövlət dəstəyini istifadə edərək Naxçıvanın sahibkarlıq mühitini inkişaf etdirməklə onun iqtisadi inkişafına töhfə vermək olar.

## 2.2. Sahibkarlığın məşğulluq və sosial inkişafa təsiri və qiymətləndirilməsi

Sahibkarlıq fəaliyyətinin sosial mənası, əhali, ailə və fərdlərin rifahı ilə əlaqədə özünü göstərir. Hər bir ölkədə sosial prioritetlər olaraq rifah və məşğulluq strategiyası əsas sayılır. İqtisadi artımın iki əsas istiqaməti mövcuddur. Ümumi daxili məhsulun artımı, əhalinin rifahının yüksəldilməsi, məhz metodiki olaraq əhalinin adam başına düşən gəlir səviyyəsi, onun rifahı və həyat səviyyəsi göstəricisi kimi qəbul edilir. Sosial məna olaraq rifahın maddi və maliyyə mənbəyi gəlirlər və istehlak olunan maddi və mənəvi nemətlərin həcmidir. Heç təsadüfi deyildir ki, əməkdar elm xadimi, iqtisad elmlər doktoru, professor Əli Əlirzayevin fikrincə, *"sosial inkişafın əsas meyarı olaraq sahibkarlıq çoxsaxəli və proqmatik yoldur. Birbaşa və dolayısı yolla sahibkarlıq sosial iqtisadi-inkişafın əsas amilidir. Sahibkarlığa sosial aspektdən yanaşma onun məşğulluq və rifah problemlərinin həlli yolu kimi tədqiq olunmasını əhatə edir. İqtisadi nöqteyi-nəzərdən sahibkarlıq iqtisadi artım göstəricisi, istehsal və istehlak səviyyəsinin artımı və onun keyfiyyətinin yüksəldilməsi amili kimi araşdırıla bilər"* [41, s.143]. Bu məqsədlə sahibkarlığın verdiyi səmərə, faydalılıq makro və mikro səviyyədə qiymətləndirilir.

Makro səviyyədə sahibkarlığın bazar tələbatına uyğun istehsal həcmi, ixracat olunan məhsullarda rolu və həmçinin rifah və iş yerlərinin açılması, onların gəlirləri və əmək haqqının dinamikası əsas yer tutur. Rəqabət mühit şəraitində sahibkarlıq fəaliyyəti işçinin əməyinə verilən qiymət, onun əmək haqqı, sosial müdafiəsi həmçinin mənəvi tələbatını ödəyən dəyərlərlə olçülür. Bu da sosial səmərə ilə qiymətləndirilir. Sahibkarlığın sosial inkişafa təsiri və birbaşa və dolayı mexanizmlər vasitəsi ilə təhlil oluna bilər. Birincisi, gəlirlər, əmək haqqı və yaxud sosial xidmətlər vasitəsi ilə, ünvanlı dəstək mexanizmləri yolu ilə əhali rifahı, özünün tələbatı və perspektivi üçün zəruri olan dividentlər vasitəsi ilə təminatın yaxşılaşması məqsədləri reallaşır. Digər tərəfdən bütün inkişaf sahələrinin ictimai fəallığa və tələbata uyğun xidmətlər və mühit yaradılması yolu ilə təmin olunur. Sahibkarlıqda rifah üçün əsas müdaxilələr, muzdlu əməyə görə verilən haqq və pulsuz xidmətlər təşkil edir. Naxçıvan MR-da əhalinin

gəlirləri fərdi təsərrüfatçılıq, özünəməşğulluq və həmçinin hüquqi və fiziki iş olaraq muzdlu əməyə görə verilən haqqla ifadə olunur.

**Cədvəl 2.2.1**

**Naxçıvan Muxtar Respublikasında əhalinin gəlirlərinin dinamikası**

| İllər | Gəlirlər | | Əmək haqqı | | Sahibkarlıq | | Sosial müdafiə | |
|---|---|---|---|---|---|---|---|---|
| | ayda adambaşına, manatla | faizlə | ayda adambaşına, manatla | faizlə | ayda adambaşına, manatla | faizlə | ayda adambaşına, manatla | faizlə |
| 2015 | 262,9 | 100 | 111,3 | 42,3 | 53,9 | 20,5 | 2,0 | 0,8 |
| 2016 | 279,3 | 100 | 126,1 | 45,2 | 50,0 | 17,9 | 2,2 | 0,8 |
| 2017 | 292,8 | 100 | 132,8 | 45,3 | 50,9 | 17,4 | 2,5 | 0,9 |
| 2018 | 303,5 | 100 | 140,9 | 46,4 | 53,6 | 17,7 | 2,8 | 0,9 |
| 2019 | 322,0 | 100 | 155,1 | 48,2 | 113,0 | 35,1 | 2,9 | 0,9 |
| 2020 | 310,7 | 100 | 148,9 | 47,9 | 103,9 | 33,4 | 2,2 | 0,7 |
| 2021 | 322,7 | 100 | 159,7 | 49,5 | 97,0 | 30,0 | 2,3 | 0,7 |
| 2022 | 342,2 | 100 | 168,8 | 49,3 | 100,7 | 29,4 | 3,8 | 1,1 |

***Mənbə:*** *Cədvəl ARDSK-nin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Əhali gəlirlərinin dinamikası artım tempi ilə müşahidə olunur. 2022-ci ildə 2015-ci ilə nisbətin əhali gəlirləri 30%-ə qədər artmışdır. Gəlirlərin tərkibində sahibkarlıq gəlirlərinin xüsusi çəkisi 29-35%-ə qədər təşkil edir. Əhalinin miqrasiyası ilə bağlı olaraq sosial müdafiə gəlirləri nisbətən az artmışdır.

Əhali gəlirlərinin dinamikası göstərir ki, artımla yanaşı, onun strukturunda dəyişmələr mövcuddur. Daha çox sahibkarlıq gəlirləri artım tempinə malikdir. Sahibkarlıq gəlirlərinin əsas istiqamətləri, ev təsərrüfatı, özünəməşğulluq və ticarətdir. Sosial inkişaf meyli Naxçıvanda xüsusi model olaraq tətbiq edilir. İlkin növbədə blokada şəraitində bazar iqtisadiyyatına keçid modeli qurulur. Bu daha çox sosial məqsədləri və tələbatı ödəmək yolları daxili imkanlar hesabına və xarici resursları cəlb etmək yolu ilə daxili potensialın istifadə yolları tətbiq edilir.

Naxçıvanın sosial müdafiə sistemi qonşu ölkələr olan İran və Türkiyənin iqtisadi potensialının Naxçıvan iqtisadi və sosial potensialı ilə tarazlığı və qorunması iqtisadi modelin reallaşmasına cəlb edildi. Blokada şəraitində sərhədyanı ticarət, özəlləşmə və xarici ölkələrdən investisiya və himayəçilik yardımları gətirildi. Naxçıvanda kiçik

biznes inkişaf etdirildi. Sahibkarlıq gəlirləri dövlət, xüsusi və ailə təsərrüfatı və xidmətləri yolu ilə əldə olunan xalis mənfəətdir. Təbii ki, bu mənfəətin həcmi və onun xərclərlə müqasiyəli təhlili rəqabət mühiti şəraitində sahibkarlığın sonrakı və cari fəaliyyətinin həmçinin investisiya mənbəyi olaraq geniş təkrar istehsalın bölgü və yenidən bölgüsü vasitəsi ilə rolunu formalaşdırır. Sahibkarlıq gəlirlərinin bölgüsü vergi, qiymət və xərc strukturu ilə əlaqədə formalaşır. Dövlət, bələdiyyə və xüsusi gəlirlər, xərclər və qiymət mexanizmi ilə əlaqədə planlaşdırılır. Daha çox gəlir əldə etmək hər bir sahibkar və fərdin əsas meyarı olmaqla təşkilati innovasiya bacarıqlarını formalaşdırır.

Məşğulluq problemi Naxçıvan MR-də tarixən özünün çətinlikləri və həlli yollarının xüsusiyyətləri ilə region və respublika qərarları ilə həll olunub. Əhalinin təbii artımı, onun əmək ehtiyatlarına və iş qüvvəsinə olan tələbatını ödəyib. Əhalinin artım tempinin iş yerlərinin artım tempindən yüksək olması nəticəsində miqrasiya üstünlük təşkil edib. Naxçıvanda əhali məşğulluğu yerli resurslara əsaslanıb və yerli tələbatı ödəmək üçün zəruri məhsul və xidmətlərin istehsalı formalaşıb. Daha çox kənd təsərrüfatı məhsullarının xammal və emal sənayesi ilə dövlət, xüsusi təsərrüfat formasında fəaliyyət təşkil olunub. Naxçıvanda ev təsərrüfatında məşğul olanların sayı dövlət müəssisələrindən çox olub. Naxçıvan MR-da kənd təsərrüfatında ənənəvi və yerli şəraitə uyğun ev təsərrüfatları ailə və kənd əhalisinin məşğulluğunu formalaşdırır. Kənd əhalisinin məşğulluğu daha çox heyvandarlıq və əkinçilik təşkil edir. Naxçıvan MR-da inzibatı, iqtisadi regionların ixtisaslaşması mövcuddur. Dağ rayonlarında sahibkarlıq meyvə və heyvandarlıq məhsullarının istehsalıdır. Aran rayonlarda isə daha çox əkinçilik və tərəvəz istehsalı iqtisadi cəhətdən səmərəlidir. Sahibkarlığın yeni formaları olan hüquqi şəxslər təşkil edir. Bu baxımdan iri şirkətlər və beynəlxalq əlaqələri tənzimləyən dövlət şirkətləri daxili və xarici bazarı tənzimləyir. İran İslam Respublikası və Türkiyə Cümhuriyyəti arasında ticarət əlaqələri genişlənir.

Sahibkarlığın regional modelinin əsas məqsədi olaraq məşğulluq və yerli əhalinin rifahının yüksəlməsi proseslərinə təsiri ilə qiymətləndirilir. İş yerləri ilə əmək ehtiyatları və onların istifadəsi arasında tarazlılıq və mütləq bərabərlik balansı mümkün

deyildir. Çünkü region tranzit ərazi olduğu üçün və ixtisaslı kadrların açıq iqtisadiyyat şəraitində əmək fəaliyyətinin keyfiyyət və kəmiyyətcə tələbatının artması, miqrasiyaya səbəb olur. Miqrasiya şəraiti regionun sosial inkişafı baxımından xüsusi rol oynayır. Türkiyə və Rusiya, Bakı şəhərində əmək fəaliyyəti ilə məşğul olanlar təhsil və iş yerlərini dəyişən insanların artımı blokada şəraitində nisbətən artır. Məşğulluğun artırılması islahat proqramları, investisiya layihələri və həmçinin ev təsərrüfatı üçün yaradılan dövlət siyasəti və himayəsi ilə mümkündür. Naxçıvanın büdcəsinin gəlir və xərc strukturu, onun formalaşma mənbəələri istehsal və istehlak dinamikası ilə müəyyənləşir. İstehsal strukturu, dövlət büdcəsinə daxil olmaların dinamikasını, onun vergi tutumunu müəyyənləşdirir. İstehlak dinamikası isə əhali və sosial xidmətlərin dinamikasını müəyyənləşdirir. Naxçıvan MR-də vergi və vergiqoyma qanunvericiliklə müəyyənləşir. Naxçıvan MR-in dövlət büdcəsinin dinamikası aşağıdakı kimidir.

**Cədvəl 2.2.2**

**Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi**

| İllər | Gəlirlər | Xərclər | Dotasiyalar |
|---|---|---|---|
| 2013 | 55000000 | 332700000 | 277700000 |
| 2014 | 74084717 | 349702322 | 283700000 |
| 2015 | 69000000 | 366700000 | 297700000 |
| 2016 | 69000000 | 351350000 | 282350000 |
| 2017 | 69500000 | 348400000 | 278900000 |
| 2018 | 73400000 | 355300000 | 281900000 |
| 2019 | 83340000 | 383700000 | 300360000 |
| 2020 | 113200000 | 482090000 | 368890000 |
| 2021 | 128400000 | 506531000 | 378131000 |
| 2022 | 146000000 | 577600000 | 431600000 |

***Mənbə:*** *Cədvəl müvafiq illər üzrə dərc edilmiş Şərq Qapısı qəzetinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi respublika Ali Məclisinin büdcə tərtibi ilində təsdiq olunur. Respublikada yerli büdcə daxilolmaları və tələbata uyğun xərc strukturuna baxılıb təsdiqlənərək və mərkəzləşdirilmiş gəlir hesabına əlavə xərclər balansı tərtib edilir. Büdcə tərtibində ölkə iqtisadiyyatının inkişaf meylləri və mərkəzləşdirilmiş gəlir mənbələri hesabına sosial inkişaf üçün vəsait ayrılır. Naxçıvanda xərc həcmi onun regionda yaranan gəlirlərindən çoxdur.

Naxçıvan dövlət büdcəsinin gəlirləri yerli və mərkəzləşdirilmiş maliyyə mənbəyi hesabına daxil olmalardan ibarətdir. Naxçıvanda xərc strukturu onun ayrı ayrı sahələrinin inkişafı, dövlət idarəetmə xərclərini və sosial müdafiə xərclərini əhatə edir. Təşkilatı idarəetmə orqanlarının xərcləri, təhsil və səhiyyə xərcləri, həmçinin dövlət müəssisələrinin xərclərini ödəmək yolu ilə Naxçıvan bazar iqtisadiyyatı formalaşır. Özəl sektorun payı bəzi sahələrdə, o cümlədən ticarət və kənd təsərrüfatı, nəqliyyat sahələrində də özəl sektorun hesabına inkişaf etdirilir.

Sahibkarlıq fəaliyyəti olaraq fiziki şəxs kimi özəl sektor bütövlükdə bazara çıxarılan ərzaq məhsullarını təmin edir. Sahibkarlar həmçinin fərdi tələbatı ödəyir.

Sosial sahələr olaraq əhalinin rifahı və sosial müdafiəsi əsas yer tutur. Hər bir şəxsin pensiya təminatı və sosial müavinatı qanunvericiliyə uyğun və sosial normalara mütənasib olaraq planlaşdırılır. Naxçıvan MR-in əhalisinin yaş tərkibi və onun məşğulluğu, xüsusiyyətləri, sosial müdafiənin mənbəə və səviyyəsini müəyyənləşdirir. Əsas pensiya təminatı qanunvericiliyə uyğun olaraq məşğulluq sahəsi və onun sığorta yığımı ilə təyin olunur. Əhalinin sosial müdafiəsinin əsas mənfəəti yerli büdcənin və mərkəzi büdcədən ayrılan vəsaitlərlə müəyyənləşir. Naxçıvanda sahibkarlıq gəlirləri sosial müdafiə, yerli büdcə və sahibkar gəlirlərini müəyyən edir.

**Cədvəl 2.2.3**

**Naxçıvan Muxtar Respublikasında pensiyaçıların dinamikası, nəfər**

| İllər | Pensiyaçıların sayı | Yaşa görə | Əlilliyə görə | Ailə başçısını itirdiyinə görə |
|---|---|---|---|---|
| 2017 | 54087 | 30562 | 14198 | 9327 |
| 2018 | 53344 | 29684 | 14082 | 9578 |
| 2019 | 52741 | 29156 | 13925 | 9660 |
| 2020 | 50258 | 28309 | 13531 | 8418 |
| 2021 | 49115 | 27564 | 13345 | 8206 |
| 2022 | 48716 | 27367 | 13071 | 8278 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır – URL: https://nstat.gov.az/storage/section-graphs/July2024/9mRMs7VbKLMhPOFlsK9B.xls*

Cədvəldən göründüyü kimi pensiyaçıların sayı ilbəil aşağı düşür, daha çox ailə başçısını itirməyə görə say son iki ildə artıb. Rayon torpaqlarında məşğulluq pensiyaçıların əməyi hesabına təmin olunur.

Pensiyaçıların məşğulluğu formal olmayan gəlir mənbəyi yaradır. Kənd əhalisinin məcmuu gəlirlərinin formalaşması amili olaraq ev təsərrüfatından gələn pul və natural gəlirlər ilə ölçülür.

Naxçıvanda özəlləşmə torpaq və əmlakın xüsusi təsərrüfata verilməsi və kiçik sahibkarlığın şəraiti ilə səciyyələnir. Daha çox kənd təsərrüfatı məhsulları ev təsərrüfatında istehsal edilir.

Naxçıvanda məcmuu gəlirlərin əsas mənbəyi xüsusi mülkiyyət və muzdlu əməyə görə bölgü və yenidən bölgü forması təşkil edir. Ailələr və sosial qruplar arasında bölgü müzdlu əməyə və istehlaka görə baş verir. Əhalinin rifahı və sosial inkişafı, məşğulluq, yoxsulluq və gəlirlərin artım tempi ilə səciyyələnir, region iqtisadiyyatı olaraq Naxçıvan MR-də istehlak səviyyəsində idxal potensialının rolu daha genişdir. Pandemiya şəraitində xarici əlaqələrin məhdudlaşması yerli məhsulların istehsalına tələbatı artırır. Bu daha çox heyvandarlıq məhsullarının artımı ilə səciyyələnir.

Daxili bazarda idxal məhsullarının məhdudlaşması, məşğulluğun xarakterini və əsas istiqamətlərini formalaşdırdı. Daha çox şirkətlər yolu ilə sahibkarlığın meyilləri dəyişir, sahibkarlıq meyillərində ticarət və xidmət sferası üstünlük təşkil edir. Sahibkarlığın sosial dəyərləri iqtisadi artıma təsir, iş yerlərinin artımı və hər bir işçinin əmək haqqısının artımı ilə istehlak səviyyəsinin və struktur dəyişmələrin ardıcıllığı ilə multipikasiya səmərəsi kimi ifadə olunur. İstehlakın formalaşması yerli istehsal və demoqrafik situasiya və əhalinin kənd yerlərində təsərrüfatçılıq fəallığı ilə formalaşır. Xüsusi istehsal ailə gəlirlərinin formalaşmasında aparıcı rol oynayır.




**Şəkil: 2.2.1 Sahibkarlığın sosial və məşğulluq səviyyəsinin təsirinin modelləşməsi.**

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

Sosial-inkişaf maddi və mənəvi nemətlərin bazarı ilə, istehlak olunan nemətlərin və xidmətin səviyyəsi ilə ölcülür. Sahibkarlıq və məşğulluq konseptual yanaşma modeli olmaqla bazara çıxmaq və dayanıqlı inkişafa təsir etmək deməkdir.

Əhali gəlirlərinin artımı, dövlət və özəl mənbəələr hesabına maliyyələşmələr ilə həll olunur. Hər bir işçinin əmək haqqısı yaradılan dəyərin artımı və istehlak səbətinin həcmi ilə müəyyənləşir. Naxçıvan MR-də əmək haqqının dinamikası bir sıra amillərlə bağlıdır və perspektiv məqsədləri əhatə edir.

Onun differensiyası məhsuldarlıq və əmək resurslarının təklifi ilə formalaşır. Naxçıvanın aktiv olmayan əmək ehtiyatları respublikada nisbətən yüksəkdir. Bu da miqrasiyanı gücləndirir. Əmək haqqının differensiyası sahələrarası və sahədaxili amillər və bazar tələbinə uyğun əmtəə, xidmət istehsalının xərcləri və gəlirləri ilə əlaqəlidir.

$$dif^{s} = \frac{ƏH^{s}}{ƏH^{R}} \quad (2.2.1)$$

$$dif^{s.d} = \frac{ƏH_{i}}{ƏH_{orta}} \quad (2.2.2)$$

Burada,

$dif^{s}$– sahə differensiyası,

$ƏH^{S}$ – əmək haqqının orta səviyyəsi,

$ƏH^{R}$ – respublika üzrə orta əmək haqqı səviyyəsi,

$dif^{s.d}$ – sahədaxili differensasiya,

$ƏH_{i}$ – əmək haqqı səviyyəsi,

$ƏH_{orta}$ – sahə orta əməkhaqqı səviyyəsi.

Naxçıvanda sahibkarlığın ön istiqaməti olaraq, xidmət və infrastruktur sahəsidir. Belə ki, özünəməşğulluq, fərdi sahibkarlıq və infrastruktur obyektlərinin artım tempi, sahibkarlığa şərait yaradır. Bu istiqamətdə Naxçıvanda aşağıdakı sahələr prioritet rol oynayır:

- Nəqliyyat-logistika xidməti və uyğun təşkilati quruluş;
- Özünəməşğulluq və fərdi xidmət sferası, o cümlədən kənd və şəhərlərdə ev təsərrüfatı və şəxsi məişət xidmətlərinin artması;
- Turizm xidməti və aqroturizm, etnik turizm və təbii-coğrafi şəraitin səmərəli olması;

- Naxçıvanda əhalinin şəxsi və ailə istehlak səviyyəsi, maddi və mənəvi tələbatını təmin etmək üçün pullu xidmət və fiziki şəxs kimi sahibkarlıq sferasının genişlənməsi;
- Perspektiv layihələrə əsasən Naxçıvan ərazisinin dünya əhəmiyyətli tranzit ərazi kimi istifadə olunması beynəlxalq investisiyaların və müştərək müəssisələrin artması proqnozu;
- Naxçıvanda xüsusi növ sahibkarlıq forması olan azad iqtisadi zonaların, sərhədyanı ticarət və loqistik mərkəzlərin yaradılmasının, yeni iş yerlərinin açılmasında mühüm amilə çevrilməsi;
- Naxçıvan dövlət idarəetmə strukturlarının artmasının, ərazidə məşğulluq səviyyəsinin yüksəlməsinə müsbət təsiri.

Naxçıvan MR-in sosial şəraiti, bütövlükdə respublikada olan islahatlar, dövlət tənzimləmə siyasəti və respublikanın regional siyasəti təşkil edir. Regional siyasət olaraq məskünlaşma, təbii artım və regional kadr potensialını artırmaq müxtar respublikanın sosial-iqtisadi inkişafının konseptual siyasətidir.

Naxçıvana beynəlxalq layihələrin planlaşması, yeni prinsiplərə əsasən beynəlxalq əlaqələrin təşkili, Naxçıvanda yeni sahibkarlıq forma və mahiyyətcə yeni keyfiyyətli fəaliyyətlərin qurulmasına əsas verir.

**Cədvəl 2.2.4**
**Dövlət büdcəsindən ayrılan vəsaitlər**

| İllər | Dotasiyalar | Gəlirlər | | Xərclər | |
|---|---|---|---|---|---|
| | | Mərkəzləşdirilmiş | Yerli | Mərkəzləşdirilmiş | Yerli |
| 2014 | 283700000 | 47710000 | 19090000 | 263425905 | 87074095 |
| 2015 | 297700000 | 48870000 | 20130000 | 276424400 | 90275600 |
| 2016 | 282350000 | 47270000 | 21730000 | 254281000 | 97069000 |
| 2017 | 278900000 | 49288000 | 22362000 | 326374000 | 24176000 |
| 2018 | 281900000 | 50085000 | 23315000 | 330169000 | 25131000 |
| 2019 | 300360000 | 57010000 | 26330000 | 355535000 | 28165000 |
| 2020 | 368890000 | 74296800 | 38903200 | 440636900 | 41453100 |
| 2022 | 431600000 | 101130000 | 44870000 | 529979200 | 47620800 |

***Mənbə:*** *Cədvəl müvafiq illər üzrə dərc edilmiş Şərq Qapısı qəzetinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Naxçıvanda infrastruktur layihələri mərkəzləşdirilmiş resurslar və normalar, həmçinin yerli resurslar hesabına formalaşdırılır. Yerli büdcə gəlirləri Naxçıvan MR-də qanunvericiliklə vergi və rüsumlar, gömrük ödəmələri və sahibkar gəlirləri hesabına formalaşdırmaq planlaşdırılır. Onu qeyd edək ki, cədvəl 2.2.4-dən göründüyü kimi Naxçıvan MR-in xərcləri gəlirlərini üstələyir. Bu meyllər mərkəzləşdirilmiş gəlirlər hesabına ödənilir. Naxçıvan MR-də sahibkarlığa kömək məqsədi ilə mərkəzləşdirilmiş gəlirlərdən vəsaitlər ayrılır. Dövlət büdcəsi hər il respublika büdcəsinin təsdiqi ilində baxılır. Naxcıvana ayrılan vəsaitlərin dinamikası onun ümumi daxili məhsulun artımı ilə mütənasib artmasını göstərir.

*"Sahibkarlıq fəaliyyətinin səmərəsi onun iqtisadi artım və sosial təminat resurslarının formalaşması və artımında rolu ilə qiymətləndirilir. Təhlil və qiymətləndirmə təcrübəsi göstərir ki, sosial müdafiə sistemində sığorta ödəmələrinin əsas mənbəyi işləyən müəssisələrin əmək haqqı fondu və hər bir işçinin muzdlu əmək haqqı səviyyəsi ilə müəyyənləşir"* [38, s.231]. Əmək tutumlu sahələrin çox olması, sığorta ayırmalarını artırır.

Sosial müdafiə sistemi, kompleks tədbirlər və mexanizmlər vasitəsi ilə ünvanlı və differensial yanaşma prinsipləri ilə tənzimlənir. Belə ki, Naxçıvanda əhalinin təminatı səviyyəsi, onların gəlirlərinin differensasiyası və sosial vəziyyəti ilə qütbləşir. Qütbləşmə məşğulluğa görə, ərazi fərqlərinə və gəlirlərin səviyyəsinə uyğun olaraq formalaşır. Differensial yanaşma region daxili sosial vəziyyət və demoqrafik fərqlər, həmçinin kənd və şəhər üzrə qiymətləndirilir. Daha çox ehtiyacı olan ailə və insanlar məşğulluğu olmayan və ev təsərrüfatı ilə məşğul olmayan ailələr üçün xarakterikdir. Naxçıvanda əhalinin dinamikası və onların əmək fəaliyyəti maddi rifahı müəyyənləşdirir.

Əhalinin miqrasiyası bir sıra iqtisadi, obyektiv və sosial problemlərin yaranmasından baş verir. Blokada şəraiti, nəqliyyat əlaqələrinin kəsilməsi, Naxçıvanda idxal və ixrac imkanlarının azalması ilə sahibkarlıq fəaliyyətində çətinliklər və müxtəlif geriləmələr baş verir. Müasir şəraitdə Naxçıvan ərazisində yerli resurslara əsaslanan istehsal və xidmət sferası ilə məşğulluğun artırılması meylləri baş verir.

Əhalinin məskunlaşması məqsədi ilə özəlləşmə və dövlət tənzimlənilməsi arasında əlaqələr genişlənib.

Yerli resurslar olan mineral su və duz yataqları, təbii qaz istehsalı, bitki örtüklərinin müalicə və sənaye tələbatı üçün istifadəsi kiçik sahibkarlığın və fərdi təsərrüfatın genişlənməsinə əsas verir. Naxçıvanda sosial amil olaraq ailə təsərrüfatı hər bir ailənin tərkibi və onların əmlak və təsərrüfat fəallığı ilə əlaqəlidir. Torpaqlar pay torpağı olaraq təsərrüfat altında fərdi sahibkarlıq, yaxud icarə üçün istifadə edilir. Naxçıvanda resurs potensialı olaraq əmək ehtiyatlarının müsbət saldosu mövcuddur. Bu saldo əmək qabiliyyətli insanların Türkiyə və digər respublikalara məşğulluq üçün miqrasiyasına səbəb olur. Bu baxımdan sahibkarlığa kömək məqsədi ilə dövlət tənzimləmə siyasəti reallaşdırılır. Sahibkarların sosial məqsədləri bazarda əhali tələbatının ödənilməsi üçün zəruri olan məhsul və xidmətləri istehsal etmək, həmçinin məşğulluğu təmin etməkdir. Bu məqsədlər daim prioritet olmaqla dövlət tənzimləmə siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir. Dövlətin təhsil, səhiyyə xidmətlərinə müdaxiləsi, dövlət sosial müdafiə məqsədləri ilə məhsuldar qüvvələrin ərazi və ayrı-ayrı sosial qruplar üçün təşkil edilməsi tənzimləmə siyasətinin əsasını təşkil edir.

Naxçıvan MR-də sosial müdafiə sistemi, respublika norma və normativləri ilə yanaşı, regional xüsusiyyətlər kəsb etməklə əhalinin rifahında olan differensasiyası ilə ölçülür. Həyat səviyyəsində differensasiyası respublika ilə müqayisədə aşağıdır. Ev təsərrüfatı üzrə gəlirlərin adam başına düşən səviyyəsinin paylanması normal paylanma qanunu ilə səciyyələnir. Gəlirlərin paylanması aşağıdakı kimi ifadə olunur.

**Cədvəl 2.2.5**

**Əhali gəlirlərinin adambaşına düşən səviyyəsinə görə paylanması**

| İllər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün ev təsərrüfatları | 100% | 100% | 100% | 100% | 100% | 100% | 100% | 100% |
| 150 manata qədər | 2,6 | 3,1 | 1,4 | 1,4 | 0,2 | 0,5 | 0,3 | - |
| 150,1-200,0 | 36,6 | 24,5 | 12,4 | 12,4 | 1,6 | 3,2 | 2,5 | 0,6 |
| 200,1-300,0 | 50,5 | 54,4 | 59,2 | 59,2 | 38,4 | 38,3 | 29,5 | 7,3 |
| 300 və çox | 10,3 | 18,0 | 27,0 | 27,0 | 59,8 | 58,0 | 67,7 | 92,1 |

***Mənbə:*** *Cədvəl ARDSK-nin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*
https://www.stat.gov.az/source/budget_households/az/bul/bul_evtes_2024.pdf

Qrafik olaraq bu paylanma aşağıdakı şəkildəki kimi ifadə olunur.




**Şəkil 2.2.2 Əhali gəlirlərinin adambaşına düşən səviyyəsi**

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.*

https://www.stat.gov.az/source/budget_households/az/bul/bul_evtes_2024.pdf

Əhalinin gəlirləri paylanması, normal paylanma qanunu ilə təsvir olunur.

Gəlirlərin formalaşması mənbələri və onun dinamikası sosial inkişafın maddi əsası olmaqla, perspektiv meyllərin dinamikasına təsir edir. Hər bir regionda iş yerlərinin və əməyin xarakterinin məcmuusu sosial dinamikaya təsir edir. Əhalinin dövlət, özəl və fərdi təsərrüfat fəaliyyəti onların rifahı və inkişafının spektrini və davranış modelini formalaşdırır. İctimai və fərdi əmək fəaliyyəti mülkiyyət formasına görə əmək fəaliyyəti, həmçinin maddi və insan amilləri arasında tarazlığın dinamikasını təmin edən tənzimləmə siyasətini formalaşdırır.

Dövlətin sosial siyasət istiqaməti olaraq məşğulluğa dəstək proqramları, resurslardan istifadə yollarını müəyyənləşdirir. Daha çox əsaslı dövriyyə resurslarına istifadə motivini formalaşdırır.

Regional inkişaf strategiyası olaraq regionun maliyyə potensialını artırmaq yolu ilə özünü maliyyələşdirməsi strategiyası hədəf olsada, Naxcıvanda inteqrasiya amilini

gücləndirmək və məskunlaşma strategiyasını tənzimləmək üçün mərkəzləşdirilmiş gəlirlər hesabına maliyyələşmə davam edəcək. Naxçıvan MR-də sosial təminat kontingenti kifayət gədər artım tempinə malikdir. Belə ki, əhalinin tərkibində pensiyaçıların sayının yuxarı olması və uşaqların sayının yüksək olması mərkəzləşdirilmiş fondlardan normativ əsaslarla ayrılan vəsait öz xüsusi çəkisinə görə fərqlənir. Naxçıvanda əhali tərkibində 18 yaşına qədər uşaqların sayı 29,9% və pensiyaçıların sayı 10,7% təşkil edir. Naxçıvan MR-da sahibkarlıq mühiti, bazar rəqabəti, idarəetmə meyarları və metodları ilə tənzimlənir. İlkin növbədə tələbat sistemi makro səviyyədə artım və istehlak tələbatını müəyyən edən istehsal və xidmət müəssisələrinin cəmi, onların resurs potensialı və rəqabət mühiti şəraitində bacarıq potensialı ilə ölçülür. Sahibkar bacarığı dövlət və fərdi qabiliyyətlərin yönəldilməsi mexanizmləri ilə ölçülür. Dövlət mexanizmləri tətbiq edilən vergi siyasəti və mexanizmləri, subsidiya siyasəti və dövlət dəstəyi proqramları ilə təmin olunur. Daxili təşəbbüs isə marketinq planlaşması ilə təmin olunur. Sahibkarlıq sosial amil olaraq məhsuldarlıq, təşəbbüskarlıq və maraqlar sistemi üzrə idarə edilir.

Sahibkarlıqda əhalinin resurslardan istifadə etmək imkanları və ona yaradılan şəraitlə müəyyənləşir. Hər şeydən əvvəl yaradılan sahə və xidmət sferasının sahibkarlığa təsir gücü planlaşdırılır. Bu məqsədlə kənd təsərrüfatı, sənaye və xidmət üçün infrastruktur sahələrinin potensialı və ondan istifadə planlaşdırılır. Naxçıvanda bütün resurslar məhduddur. Pay torpaqları, suvarma və içməli su ehtiyatları, enerji və qida məhsulları tələbatla müqasiyədə aşağıdır. Bu resursları artırmaq intensiv iqtisadi artımla təmin olunur. Naxçıvan MR-də əsas sahibkarlıq fəaliyyəti kənd təsərrüfatı məhsulları istehsalı və xidmət məhsuludur. Xidmət sferası olaraq kiçik sahibkarlıq və fərdi istehlakı təmin etmək məqsədləri prioritet istiqamətlərdir.

Sahibkarlığın stimullaşdırılması dövlətin proteksionizm siyasəti ilə bağlıdır. Ən vacib məhsulların istehsalı üçün mərkəzləşdirilmiş resurslar hesabına müdaxilə edilir. Belə ki, subsidiya və güzəştli kreditlər, yaxud suvarma suyu ilə təminat məsələsi Naxçıvanda məhdud resurslar şəraitində daha da zəruridir. Ona görə də ərazi və

sahibkar maraqlarının qarşılıqlı əlaqəsi gəlirlər və onun bölgüsü ilə müəyyənləşir. Kənd təsərrüfatı məhsulları istehsalı aşağıdakı kimi dəyişir.

**Cədvəl 2.2.6**

**Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı (faktiki mövcud qiymətlərlə, milyon manatla)**

| İllər | Cəmi | Əkinçilik məhsulları | Heyvandarlıq məhsulları |
|---|---|---|---|
| 2000 | 55,4 | 32,2 | 23,2 |
| 2001 | 62,3 | 36,6 | 25,7 |
| 2002 | 69,2 | 41,5 | 27,7 |
| 2003 | 71,8 | 43,7 | 28,1 |
| 2004 | 78,1 | 42,9 | 35,1 |
| 2005 | 98,3 | 59,5 | 38,7 |
| 2006 | 109,0 | 67,2 | 41,8 |
| 2007 | 122,4 | 68,7 | 53,7 |
| 2008 | 153,4 | 93,9 | 59,5 |
| 2009 | 185,1 | 116,4 | 68,7 |
| 2010 | 247,1 | 156,0 | 91,1 |
| 2011 | 296,1 | 193,0 | 103,1 |
| 2012 | 318,8 | 211,6 | 107,2 |
| 2013 | 337,1 | 223,0 | 114,2 |
| 2014 | 355,2 | 229,6 | 125,5 |
| 2015 | 403,0 | 256,1 | 146,9 |
| 2016 | 429,5 | 263,8 | 165,6 |
| 2017 | 453,4 | 282,2 | 171,2 |
| 2018 | 480,0 | 302,7 | 177,3 |
| 2019 | 507,6 | 323,6 | 184,1 |
| 2020 | 537,6 | 348,7 | 188,9 |
| 2021 | 572,1 | 376,1 | 196,0 |
| 2022 | 590,6 | 384,8 | 205,8 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*
*https://nstat.gov.az/storage/section-graphs/October2024/beR8jJBn99R10FMqHZTy.xls*

İstehlak strukturunun formalaşması respublikada gəlirlər, demoqrafik tərkib və həmçinin sosial parametrlərin dinamikası ilə müəyyənləşir. Ərzaq istehlakı sosial inkişafın keyfiyyət göstəricisidir. Belə ki, adambaşına vacib məhsulların istehlakı, hər bir fərdin sosial-demoqrafik xarakteristikası, həmçinin onun həyat tərzi, davranışı ilə

əlaqəlidir. Naxçıvanda coğrafi-iqlim şərait və bir sıra resursların olması, həyat şəraitini differensiallaşdırır. Yoxsulluq səviyyəsinə görə istehlak fərqləri dəyişir. Yaşayış səviyyəsi və dayanıqlı inkişaf meylləri daha çox məşğulluq səviyyəsinin artımı ilə dəyişir. Bu baxımdan regional siyasət olaraq özünəməşğulluq Naxçıvanda dövlət mexanizmləri ilə dəstəklənir. Dövlətin özəlləşmə strategiyası və istehsal fəallığına təsir etmək mexanizmləri sosial müdafiə, sosial sığorta və sosial təminat sistemi ilə həll olunur.

Naxçıvanda sosial müdafiənin əsas istiqamətləri qanunvericiliklə və yerli xüsusiyyətləri nəzərə almaqla aparılır:

- əmək pensiyasının əmək haqqı və yaşayış minimumu ilə tarazlaşması;
- sosial pensiyaların ehtiyac minimumu və yaşayış minimumu ilə tarazlaşması;
- Naxçıvanda ünvanlı sosial yardım və özünəməşğuluq üçün sahibkarlığa dövlət fondu və həmçinin xüsusi vəsaitlər və büdcədən kənar fondlar hesabına himayəçilik siyasəti regional imkanlarla idarə olunur;
- əhalinin dövlət hesabına sosial inkişafı üçün güzəştli dövlət resurslarının bazar qiymətlərindən aşağı satılması və pulsuz verilməsi dolayı olaraq kənd və şəhər əhalisinin sosial inkişafı üçün şərait yaradır;
- respublikada təhsil, səhiyyə və mədəni xidmət, idman və infrastruktur sahələrinin genişlənməsi prioritet olmaqla regional hamarlama siyasətinin əsas istiqamətidir;
- dövlətin təhlükəsizlik və ümumi bəşəri dəyərlərə dəstək proqramları əhalinin rifahına və onların mənəvi inkişafına əsas verir.

Sahibkarlığın rifaha və məşğulluğa təsiri hər bir regionun sosial-demoqrafik tərkibi, fəallığı və rifah səviyyəsinin mövcud vəziyyəti, struktur meylləri, həmçinin üstünlük vermək qabiliyyəti ilə müəyyənləşir. Bu baxımdan Naxçıvan əhalisinin milli-mənəvi ehtiyacları, normativ və standart yaşama tərzi ilə yanaşı perespektiv tələbat və ehtiyaclar daha üstünlük təşkil edir.

Bunun əsas mənası perspektiv investisiyalar, insan kapitalı, insan resurslarının təkmilləşməsi üçün zəruri olan iqtisadi və sosial tədbirlərin, mexanizm olaraq formalaşmasına səbəb olur. İnsan kapitalı olaraq təhsil və tərbiyyə metodları geniş və keyfiyyət dəyişikliyi kəsb edir.

Əhalinin davranış tərzi, onun bazar münasibətləri şəraitində istehlak və investisiya motivi ilə qiymətləndirilir. Əgər əhalinin yığım vəsaitlərinin motivini təhlil etsək, daha çox təhsilə, səhiyyə və insan inkişafı üçün zəruri olan maddi və mənəvi nemətlərə tələbat artır. Əhali istehlakında perspektiv tələbat üçün yığımın xüsusi çəkisi saxlanılır.

Naxçıvanda təhsil və səhiyyə üçün əhali xərcləri və dövlət xərcləri artır. Dövlətin xərc strukturunda təhsil və səhiyyə, müdafiə xərcləri əsas prioritetlər olaraq qalır. Naxçıvanda tələbat sistemi, yerli tələbatla yanaşı, ixracat üçün sərfəli sahədir. Tələbatın xarici bazarlara yönəlməsi, daha çox yeni innovasiyalı strukturaların formalaşmasına və rəqabətqabiliyyətli bazarların tətbiqinə yönəlir. Naxçıvanın təbii-coğrafi və istehsal resursları investisiya mənbəyi olan xarici resurslar idxalı üçün əlverişlidir.

Xarici investisiyaları cəlb etməklə iqtisadi inkişaf strategiyası aşağıdakı yerli resurslara əsaslanır:

- təbii resurslar;
- insan resursları;
- ixracat üçün məkanın əlverişliliyi;
- infrastruktur;
- idarəetmə təcrübəsi.

Naxçıvanda planlı təsərrüfat sistemində çalışan istehsal və ixracat potensialı yeni şəraitdə daha yeni innovasiyalar tələb edir. İnvestisiya mənbəyi olaraq sahibkarlıq resursları, dövlət büdcəsi, bank resursları və xarici investisiyalar təşkil edir.

Xarici resursların cəlb edilməsi üçün investisiyaların təşviqi və sahibkarlıq mühiti əsas rol oynayır. Naxçıvanın xarici ölkələrlə sərhəd olması və bir sıra təsərrüfat formalarının vahidliyi yeni təsərrüfat formalarını əsaslandırır. Daha çox sərhədyanı

ticarət və azad iqtisadi zonaların yaradılması yolu ilə investisiya axınına səbəb olmaq olar. İnvestisiya mənbəələrinin dinamikası aşağıdakı kimidir.

**Cədvəl 2.2.7**

**Naxçıvan Muxtar Respublikasında əsas kapitala yönəldilmiş investisiyaların dinamikası, min manat**

| İllər | Cəmi | Mənbələr | |
|---|---|---|---|
| | | Daxili mənbələr | Xarici mənbələr |
| 2000 | 12449,9 | 11809,0 | 640,9 |
| 2001 | 14419,6 | 13539,3 | 880,3 |
| 2002 | 15525,1 | 14544,7 | 980,4 |
| 2003 | 63210,3 | 60389,5 | 2820,8 |
| 2004 | 80196,1 | 75853,5 | 4342,6 |
| 2005 | 126051,7 | 120161,6 | 5890,1 |
| 2006 | 191757,2 | 185016,3 | 6740,9 |
| 2007 | 222948,0 | 214167,2 | 8780,8 |
| 2008 | 309598,1 | 297117,8 | 12480,3 |
| 2009 | 411522,0 | 396781,4 | 14740,6 |
| 2010 | 501105,5 | 484733,1 | 16372,4 |
| 2011 | 815572,6 | 797736,6 | 17836,0 |
| 2012 | 982264,7 | 956269,3 | 25995,4 |
| 2013 | 1037748,4 | 997562,2 | 40186,2 |
| 2014 | 924628,6 | 917384,6 | 7244,0 |
| 2015 | 951196,5 | 924949,4 | 26247,1 |
| 2016 | 997609,0 | 916398,4 | 81210,6 |
| 2017 | 1005761,0 | 992340,8 | 13420,2 |
| 2018 | 1017079,0 | 1009782,3 | 7296,7 |
| 2019 | 1029283,9 | 1029283,9 | - |
| 2020 | 1041017,7 | 1041017,7 | - |
| 2021 | 1062165,8 | 1062165,8 | - |
| 2022 | 995958,3 | 995958,3 | - |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*
*https://nstat.gov.az/storage/macros/dBMGahi16imzIvq0Lnz1.xls*

Azərbaycan Respublikasında, o cümlədən, Naxçıvan Muxtar Respublikasında iqtisadi sahələrdə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və onun dövlət tənzimlənməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. *"Son illər Naxçıvan MR-nın sənaye sektorunda da sahibkarlıq subyektlərinin sayında xeyli artım müşahidə olunur. Məsələn, 2018-ci ildə təsərrüfat subyektlərinin sayı 824 idisə, 2020-ci ildə bu*

*göstərici artaraq 985-ə çatıb. 2021-ci ildə isə təsərrüfat subyektlərinin sayı 1013 təşkil etmişdir.*




**Şəkil 2.2.3 Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində sahibkarların sayı**

**Mənbə:** ARDSK-nin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır – URL: https://www.stat.gov.az/source/industry/az/025.xls

*Təhlillər göstərir ki, Naxçıvan MR-da sahibkarlıq subyektlərinin sənaye sahəsində fəaliyyəti genişlənir"* [156, s.57].

Naxçıvanda sənaye potensialının innovasiyalı amillərlə istifadəsi istehsalın adambaşına səviyyəsinin yüksəldilməsi və ixracatın artması ilə izah olunur. Sənaye məhsulu son 20-ildə adam başına 32 manatdan 2259 manata, yəni, 70-dəfə artmışdır. Əhali artımı ilə sənaye məhsulunun artımı arasında nisbət məhsuldarlığın və innovativ amillərin rolunu qiymətləndirir. Sənayenin strukturu elmi-texnoloji və əməyin xarakterini dəyişmək yolu ilə transformasiya olunur.

Sənaye məhsulunun istehsalı daha çox ixracat potensialına və resursların emalı üzrə təkrar istehsal sferasına yönəlir.

**Cədvəl 2.2.8**

**Naxçıvan Muxtar Respublikasında sənaye məhsulu**

| İllər | İstehsal olunmuş sənaye məhsulu, min manat | Hər bir nəfərə düşən sənaye məhsulu, manat | Əvvəlki ilə nisbətən, faizlə (müqayisəli qiymətlərlə) |
|---|---|---|---|
| 2000 | 13765,4 | 38,3 | 107,2 |
| 2001 | 11390,9 | 31,2 | 69,8 |
| 2002 | 15627,9 | 42,6 | 113,6 |

| | | | |
|---|---|---|---|
| 2003 | 17600,3 | 47,5 | 127,6 |
| 2004 | 25555,0 | 68,3 | 129,7 |
| 2005 | 41207,3 | 108,8 | 156,2 |
| 2006 | 70443,6 | 184,0 | 164,2 |
| 2007 | 122679,5 | 316,8 | 166,0 |
| 2008 | 164451,9 | 418,5 | 126,7 |
| 2009 | 212469,1 | 534,6 | 124,5 |
| 2010 | 318564,8 | 776,8 | 144,4 |
| 2011 | 680921,2 | 1643,5 | 2,1 dəfə |
| 2012 | 799492,4 | 1890,6 | 115,7 |
| 2013 | 862870,5 | 2000,6 | 106,3 |
| 2014 | 891486,4 | 2037,3 | 102,5 |
| 2015 | 916817,9 | 2073,8 | 102,0 |
| 2016 | 942944,7 | 2110,4 | 101,7 |
| 2017 | 967060,0 | 2144,3 | 101,4 |
| 2018 | 990067,0 | 2178,5 | 101,3 |
| 2019 | 1014971,5 | 2216,8 | 101,4 |
| 2020 | 1040475,9 | 2259,1 | 101,4 |
| 2021 | 1069655.7 | 2310.3 | 101.7 |
| 2022 | 1048584.9 | 2257.9 | 85.9 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*
https://nstat.gov.az/storage/section-graphs/wszkYKSuxQpm5fDTahsm.xls

Sənaye məhsulunun dinamikasında kəmiyyət və struktur dəyişmələri baş verir. Daha çox ixracat yönümlü və sənaye xarakterli məhsullar, turizm xidmətləri, sosial infrastruktur sahələri üstün artım meylləri ilə müşahidə olunur. Naxçıvanın sənaye məhsullarında emal və kənd təsərrüfatı sahələrinə xidmət sferası genişlənir.

### 2.3. Sahibkarlığın bazar məhsullarına və xidmətlərinə təsiri

Daxili və xarici bazarın formalaşmasına sahibkarlıq fəaliyyəti birbaşa və dolayı olaraq təsir edir. Hər bir tələbat növünə uyğun olaraq istehsal sferası formalaşır. İstehsalın bazar yönümlülüyü tələbat, qiymət və məşğulluq tələbatı ilə ölçülür və qiymətləndirilir.

Rəqabət mühiti yaratmaq sahibkarlığın məqsədi, hədəfi və idarəetmə şəraitidir. Bunun üçün mülkiyyət münasibətlərinin azad rəqabət və səmərəlilik üzərində

qurulması ilə baş verir. Rəqabət mühitini yaratmaq üçün dövlət siyasəti və hüquqi baza əsasında yeni və ənənəvi istehsal sahələri formalaşır. Sahibkarlıq şəraiti Naxçıvan MR-da ənənəvi olub, daha çox ailə və kollektiv təsərrüfat formasında baş verib. Ərzaq istehlakının 80-90%-i sosial qruplar üzrə fərqli olub yaşamaq vasitəsi kimi rol oynayır. Ərzaq istehsalının əsas obyekti ev təsərrüfatıdır. Naxçıvanda heyvandarlıq məhsulunun 100% ev təsərrüfatı ilə istehsalı mövcuddur.

Müasir şəraitdə sahibkarlıqda rəqabət bazarın tələbi və gəlirlilik səviyyəsi ilə ölçülür. Rəqabət sahələrarası və sahibkarların fərdi səmərəlilik göstəriciləri ilə formalaşır. Ev təsərrüfatı şəraiti, regionun kompleks şəraiti və həmçinin bazarda marketinq tələbatı ilə ölçülür. Hər bir sahibkar rəqabətə dözümlü olmaq üçün gəlir gətirən və əməktutumu, xərc tutumu az olan sahələrə və xidmətlərə can atır.

Müasir şəraitdə sahibkarlıq fəaliyyəti hər bir obyektin təşkili ilə müəyyənləşir. Sahibkarlıq məqsədyönümlü fəaliyyət olmaqla xüsusi və dövlət, həm də işçilərin maraqlarının uzlaşması və vahid hədəflərə uyğun sinergetik səmərə ilə təşkil olunur. Bazarda fəallıq sahibkarlığın sonrakı inkişafına təsir edir. Təşkilatı quruluş olaraq sahibkarlığın təsiri iqtisadi artım və bazarın məcmuu tələbatına uyğun fəaliyyət obyekti kimi formalaşır.

Rəqabət şəraiti yaratmaq üçün vahid prinsip və idarəetmə mexanizmləri tətbiq edilir. Vergi, subsidiya və faiz siyasəti bütün sahibkarlar üçün norma və normativlər, məhdudiyyətlər və təşəbbüskarlıq mexanizmləri ilə idarə edilir. Məhsul və xidmət istehsalında sahə və eyni məhsulların marketinq quruluşu üzrə differensiyası, onun dividientlərini artırır. Tələbat sistemi marketinq və qiymət amili ilə formalaşır. Gəlirlərin səviyyəsinə sahibkarlıq fəaliyyəti səmərəsi alıcılıq qabiliyyəti bazarın təklifini müəyyənləşdirir.

Tələb əyrisi olaraq gəlir, qiymət və sosial demoqrafik tərkiblə uyğunlaşır. Tələb əyrisinin Naxçıvanda formalaşması, sosial qruplar üçün xarakterik dinamika kəsb edir. Ev təsərrüfatı üzrə aparılan təhlillər göstərir ki, gəlirlərin artımı daha çox mədəni və xidmət məhsullarına tələbatı artırır. Müəyyən gəlir səviyyəsində istehlakın optimal strukturu formalaşır.

**Cədvəl 2.3.1**

**İstehlak xərclərində ərzaqın dinamikası (ayda adambaşına, manatla)**

| Illər | İstehlak | ərzaq |
|---|---|---|
| 2015 | 266,4 | 105,3 |
| 2016 | 285,9 | 114,3 |
| 2017 | 305,0 | 130,3 |
| 2018 | 311,0 | 133,6 |
| 2019 | 325,7 | 136,6 |
| 2020 | 318,8 | 133,9 |
| 2021 | 324,9 | 139,1 |
| 2022 | 345,4 | 155,0 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

*"Sahibkarlıq və bazarın arasında əlaqə istehsal və bölgü münasibətlərinə görə formalaşır"* [34, s.220]. Məntiqi olaraq idarəetmə və tənzimləmə üçün bu əlaqələrin təşkili mexanizm olaraq elmi mülahizələrə əsaslanır. *"Büdcə gəlirlərinin formalaşması və xərcləri istehsal və istehlak xərcləri ilə müəyyənləşir"* [32, s.132].




**Şəkil 2.3.1 Sahibkarlıq və bazar tələbi**

***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunub.*

Region sahibkarlığının daxili və xarici bazara yönəlməsi əhalinin məşğulluğu və sahələr üzrə regionun ixtisaslaşmasına səbəb olur. Belə ki, xidmət sferası Naxçıvanda

turizm və nəqliyyat sisteminin genişlənməsi və inkişafı ilə istehsal güclərini artırır. Daxili bazarın ödənilməsi üçün yerli sahibkarlıq, əhalinin miqrasiyasını və idxalı azaldır. Daha çox turizmin idxalı ixracata və məşğulluğa təsir edir. Naxçıvanın idxal və ixrac strukturu daxili bazarın məhsul və xidmət təklifinə təsir edir. Sahələrarası əlaqələr genişləndikcə idxalın azalması və ixracın artması baş verir. Perspektivdə məqsəd enerji resurslarının və ərzaq məhsullarının ixracatda üstünlük əldə etməsi üçün islahatlar proqramları tərtib edilir.

**Cədvəl 2.3.2**

**Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrinin dinamikası, mln. ABŞ dolları**

| Göstəricilər / İllər | Ticarət dövriyyəsi | İdxal | İxrac | Saldo |
|---|---|---|---|---|
| 2009 | 220,0 | 107,8 | 112,2 | 4,4 |
| 2010 | 257,9 | 46,2 | 211,7 | 165,5 |
| 2011 | 400,9 | 78,3 | 322,6 | 244,3 |
| 2012 | 450,9 | 77,4 | 373,5 | 296,1 |
| 2013 | 512,0 | 109.6 | 402,4 | 292,8 |
| 2014 | 517,4 | 108,8 | 408,6 | 299,8 |
| 2015 | 512,3 | 97,9 | 414,4 | 316,5 |
| 2016 | 463,2 | 44,1 | 419,1 | 375,0 |
| 2017 | 459,9 | 36,6 | 423,3 | 386,7 |
| 2018 | 483,5 | 59,2 | 424,3 | 365,1 |
| 2019 | 497,1 | 82,0 | 428,5 | 346,5 |
| 2020 | 510,5 | 71,6 | 425,5 | 353,9 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Naxçıvan MR-nın iqtisadi inkişafı ilə yanaşı onun daxili və xarici bazara çıxışı məhsul və xidmətləri innovasiyalı xarakter daşıyır. İdxal strukturunda daha çox texnoloji məhsullar və avadanlıqlar gətirilir. Xaricə bazara çıxış üçün yeni məhsullar və keyfiyyətcə yeni xidmətlər təklif olunur.

Naxçıvan MR-də fərdi istehsal daha da geniş yer tutur. Bir çox məhsullar və xidmətlər istehlak üçün daha əhəmiyyətli və istehsal üçün faydalı olduğu üçün perspektiv əhəmiyyət kəsb edir.

Enerji ehtiyyatları Muxtar Respublikada alternativ variantlarda istehsal edilməklə yerli tələbatı ödəmək və ixracat üçün daha da artırılır. Mineral ehtiyyatlar istifadə istiqamətləri perspektiv istehsal və xidmət sferası olaraq özünün rolu ilə prioritet istiqamət kəsb edir.

Blokadanın götürülməsi Muxtar Respublikada yerli xammal və resursların iqtisadi dövriyyə cəlb edilməsi imkanlarını genişləndirəcək. Naxçıvan nəqliyyat dəhlizində cənub və şimal, şərq-qərb magistral əlaqələrin infrastruktur layihələri ilə zənginləşdirəcək.

Prioritet sahələr olaraq sahibkarlıq növü turizm infrastrukturu və xidmət sferasıdır. Xidmət sahələri olaraq sahibkarlığın infrastruktur və insanlara xidmət sahələri inkişaf edir. Naxçıvan MR-da xidmət sferasının dinamikası aşağıdakı göstəricilərdə öz əksini tapır.

**Cədvəl 2.3.3**

**Xidmət sferasının dinamikası, min nəfər**

| İllər | Xidmət sferasında məşğul olanların sayı |
|---|---|
| 2016 | 67,4 |
| 2017 | 68,0 |
| 2018 | 69,0 |
| 2019 | 82,4 |
| 2020 | 83,9 |
| 2021 | 84,5 |
| 2022 | 84,3 |
| 2023 | 84,9 |

***Mənbə:*** *Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən müəllif tərəfindən tərtib olunmuşdur.*

Təhlil göstərir ki, Naxçıvanda əhaliyə xidmət və özünə xidmət sferası prioritet istiqamətidir. Əhalinin məşğulluğunda muzdlu əmək forması və ev təsərrüfatı daha geniş yaranıb. Ev təsərrüfatında əhalinin məşğulluğu ailə üzvlərinin özünəməşğulluğu ilə reallaşdırılır. Təhsil və səhiyyə, nəqliyyat və ticarət sahələri xidmət sferası olaraq əhalinin məşğulluğuna və əhali gəlirlərinə təsir edir.

Hər bir regionda bazar tələbinə uyğun olaraq bazar marketinq quruluşuna malik istehsal və xidmət sferası xarakterik olaraq aparıcı rol oynayır. Naxçıvanda ailə və

özünəməşğulluq tarixi ənənəvi rol oynayır. Daha çox ev təsərrüfatı ilə bağlı olan istehsal vasitələri və istehsal xidməti üçün kiçik sahibkarlıq əhali məşğulluğu üçün əsas meyardır. Hər bir ev təsərrüfatında meyvə, tərəvəz və onun emalı daxili tələbatı ödəmək üçün mühim məşğulluq növüdür. İctimai iş və dövlət müəssisələrində çalışanlar da sərbəst vaxt ərzində və özünün tələbatı üçün ev təsərrüfatı ilə məşğul ola bilir. Bu da məhz sahibkarlığın xüsusi növ olması ilə perspektiv inkişaf istiqamətidir.

Naxçıvanda təbii sərvətlər turizm, təbii-mualicə və ekoloji sağlamlıq məhsulları istehsal etməyə şərait yaradır. Kiçik sahibkarlıq ənənəvi sahə olmaqla sosial qruplar üçün istehlak və rifah mənbəyi rolunu oynayır. Bu məqsədlə torpaq islahatları, kredit və güzəştli maliyyə dəstəyi proqramları reallaşa bilər.

Perspektiv sahə olaraq fərdi təsərrüfata himayəçilik və özünəməşğulluq proqramları tətbiq edilir. Özünəməşğulluq ev təsərrüfatına əsaslanır. Ailə tərkibi və demoqrafiq quruluş fərdi sahibkarlığın əsas amilidir. Kiçik sahibkarlığın dövlət tənzimlənilməsi mexanizmləri regionda idarəetmə prinsiplərini və metodlarını xüsusiləşdirir. Beləki, məşğulluq səviyyəsi və miqrasiya yönümlü regionlarda dövlət müəssisələrinin istehsal strukturu, müəssisə və təşkilatların yerləşməsi, tələbat və ixracat potensialını nəzərə almaqla aparılmalıdır. Əhalinin məşğulluğu iqtisadi cəhətdən səmərəli deyilsə belə onun sosial təminatı üçün məhsul istehsalına və xidmətin təşkilinə dövlət köməyi göstərilir.

Naxçıvan MR resurs baxımından nisbətən baha xərc hesabına fəaliyyəti olan regiondur. Amma onun sosial müdafiəsi həmişə strateji məqsəd olmaqla respublika regional siyasətinin aparıcı həlqəsi və özünəməxsus siyasi inteqrasiya yolu ilə fərqlənir. Bu amilləri nəzərə alaraq Naxçıvan MR-da sahibkarlığa dəstək proqramları özünün hədəfi və həlli yolları ilə fərqlənir. Naxçıvan büdcəsinin mərkəzləşdirilmiş büdcə hesabına müdafiəsi həm sosial, həmdə iqtisadi inkişaf baxımından həll edilir. Naxçıvanda sosial müdafiə elementləri və amilləri, özünün xüsusi çəkisini saxlamaqdadır. Beləki, təbii artım səviyyəsi 2022-ci ildə 2194 nəfər təşkil edir ki, bu da respublikada təbii artım səviyyəsi hər min nəfərə 4.8 təşkil edir. Əhalinin artımında baş verən dəyişikliklər onun məhsuldar qüvvə kimi iş yerlərinin açılmasına və məhsul

xidmət həcmini və marketinq quruluşunun dəyişməsinə səbəb olur. Daha çox infrastruktur və fərdi sahibkarlıq üzrə fəaliyyətlər birbaşa və dolayı yolla öz istehlakçısını tapır. Turizmin inkişafı və mineral su ehtiyatları, içməli su ehtiyatları sahibkarlıq üçün daha geniş əhəmiyyət kəsb edir. Sirab, Badamlı və Culfa su ehtiyatları, təbii qaz və dağ çeşmələri, içməli su üçün sahibkarlığın ən səmərəli sahəsidir. Respublikada baş verən inkişaf meylləri, kadr potensialı və təhlükəsizliyin qorunması məqsədi ilə dövlətçiliyin və təhlükəsizliyin iqtisadi əsaslarıdır.

Sahibkarlığa kömək iqtisadi, inzibati və təşkilati mexanizmlər vasitəsi ilə daha da möhkəmlənir. Bu yollar kompleks həllini tapır.

Naxçıvanda investisiyanın artması yerli sahibkarlardan daha çox xarici investisiyaların cəlb edilməsi yolu ilə mümkün olmalıdır. Bunun əsaslanması təbii və iqlim şəraiti ilə bağlı fəaliyyətlə izah olunur. Naxçıvanda strateji məqsədlər sərhəd, dövlətçilik və həmçinin beynəlxalq normalara uyğun sosial-iqtisadi metodlar ilə tənzimlənir. Ticarət və kommunikasiya əlaqələri, Naxçıvan və respublika maraqlarının optimal uzlaşması ilə mümkündür. Kiçik sahibkarlıq infrastrukturu hər bir regionda təsərrüfat fəaliyyəti və ənənəvi əməyə görə ixtisaslaşır. Kənd təsərrüfatı məhsullarının daxili və xarici bazarı emal müəssisələrini genişləndirməklə şaxələnir. Fiziki şəxs olaraq sahibkarlıq daha faydalıdır. Təkrar emal müəssisələri fərdi təsərrüfatçılığa əsaslanır. Fərdi təsərrüfatçılıq turizm kompleksinə daxil edilməklə yeni maliyyə mənbələri kəsb edir. Hər bir müəssisənin fəaliyyəti ilə əldə olunan gəlirlərin təkrar istehsal üçün cəlb edilməsi şəhər və kənd aqlomerasiya səmərəsini artırır. Kəndin kompleks inkişafı üçün əlavə mənbələr formalaşır. Bu daha çox dağ regionları üçün xarakterikdir. Naxçıvan kəndlərinin sosial-iqtisadi problemləri və inkişaf strategiyası ailə və kiçik sahibkarlıq üzərində qurulur. Bir çox kəndlərdə ərzaq təminatı fiziki şəxs kimi ailə təsərrüfatı hesabına ödənir. Ev təsərrüfatının səmərəsi yaradılan biznes mühiti və məhsulların satışı və istehlakı bazarının təşkilidir. Dövlətin və yerli idarəetmə orqanlarının sahibkarlığa dəstək himayəsi birbaşa, onun məhsulunu emal etmək, digər tərəfdən reallaşma üçün bazar və xidmət göstərmək fəaliyyətləri ilə təşkil olunur.

Qida istehsalının ev təsərrüfatında istehsalı həm istehlak həmdə satış üçün idarə edilir. Dövlətin rolu həmin məhsulları saxlamaq, daşımaq və logistik xidmətlər təşkil etmək vəzifəsi ilə müəyyənləşir. Bu baxımdan sahibkalığa dəstək proqramları tətbiq edilir.

Ev təsərrüfatına dəstək məqsədi ilə bazar tələbinə uyğun məhsulları istehsal etmək üçün özünəməşğulluq və yaxud strateji məhsullar istehsalı üçün güzəştli kreditlər, satış bazarı təşkil etmək və yaxud yeni texnologiyalar və resurslarla təminat vəzifəsi reallaşır. Müasir şəraitdə sahibkarlığa kömək fondu, dəstək sifarişi ilə istehsal olunan məhsullara subsidiyalar təqdim edilir. Daha çox taxıl və heyvandarlıq məhsulları istehsalı üçün subsidiyalar verilir. Naxçıvan MR-nın regional xüsusiyyətləri onun sahələrarası və ərazi kompleksində tarazlı inkişaf dinamikasının və iqtisadi-sosial münasibətlərin əlverişli variantlarını əsaslandırmaq və reallaşmasına təsir edən amillərin mövcud vəziyyətini və perspektiv dəyişmələri nəzərə almaqla qərar qəbulu və təşkilati-iqtisadi problemlər təşkil edir.

Sahələrarası tarazlıqda dominant rolunu oynayan sahə və fəaliyyət daima mərkəz yönümlü meyar və göstəricilər rolunu oynayır və tənzimlənir. Belə ki, sosial meyarlar hər bir region üçün əsas olmaqla yanaşı təsir gücü ilə başqa sahələrə təsir effekti ilə qiymətləndirilir. Sahələrarası və sosial meyarlar, fərqlər, idarəetmə və mexanizmlər sistemində əsas rol oynayır. Naxçıvanda məhsul, xidmət və sosial dəyişmələr arasında asılılıq perspektiv islahatlar və köklü dəyişmələr yolu ilə formalaşır. Mövcud reallıq şəraitində aşağıdakı ölçülə bilən meyilləri qeyd etməyi təklif edirik:

- Məşğulluğa can atma;
- əmlaka və varidata bağlılıq;
- əmək ağırlığına dözüm və perspektiv əhval ruhiyyə;
- ailə və kənd timsalında səfərbərlik;
- təhsilə bağlılıq və onun kommersiya yox mənəvi səmərəliliyinə üstünlük;
- iqtisadi maraqlardan çox mənəvi dəyərlərə üstünlük verməklə həyat fəaliyyətini qurmaq.

Bu istiqamətlər Naxçıvanda sahibkarlığın sosial nəticələrinə və prioritetlərinə üstünlük verməklə strateji və marketinq planlaşması metodlarına tətbiq etməyi tələb edir. Strategiya perspektiv meylləri və əlverişli nəticələri iqtisadi və sosial səmərəli meylləri əhatə edir.

Sosial səmərə kriteriyasını tətbiq etmək üçün ənənəvi sahibkarlıq, ailə və kollektiv fəaliyyət növü olan birgə əmək fəaliyyətini təşkil etmək əsas götürülür.

Bu baxımdan Naxçıvanda əhalisi azalan region və kəndlərdə ictimai və fərdi şirkətlərin, müəssisə və təşkilatların yaradılması ilə yaşayış mühitini yaratmaq mexanizmləri əsaslandırılır. Bu aspektdə daha çox Şahbuz, Ordubad, Babək regionlarının sərhəd kəndlərində təhsil və səhiyyə müəssisələrinə dəstək proqramları və dəstək mexanizmləri tətbiq edilir. Kadrların yerləşməsində hər bir insanın sosial tələbatları və yaşamaq keyfiyyətinə təsir edən amillərə nəzarət edilir.

Babək rayonunun Gərməçataq və digər kəndlərində heyvandarlıq məhsulları istehsalı üçün bütün şərait yaradılır. Dövlət dəstəyi proqramları əhalinin və ailələrin ehtiyaclarını nəzərə almaqla planlaşdırılmalıdır. Naxçıvanın dağ regionlarında yaşayış komplekslərini saxlamaq üçün dövlət və şirkətlərin müəssisə və obyektləri yaradılır.

Sahələrarası mexanizmlər olaraq kənd təsərrüfatı ilə emal müəssisələrinin və dövlət hesabına inkişaf etdirilən təhsil və səhiyyə müəssisələrinin əlaqəsi və kompleks təşkili - klasterləri yaradılır. Naxçıvanda sahibkarlığın əsasları, mülkiyyət və resurs təminatı ilə, bazara çıxış qabiliyyəti ilə planlaşdırılır. İşsizlik səviyyəsinin müəyyən edilməsində gizli iş qüvvəsinin və istehlak üçün natural təsərrüfatın rolunu və perspektivini qiymətləndirmək lazımdır. İşsizliyin səviyyəsi bütün fəaliyyət növünü nəzərə almaqla qiymətləndirildikdə investisiya layihələrinin əsas istiqamətləri formalaşır. İnvestisiya mənbələrinin dinamikası (cədvəl 2.2.7) struktur islahatların motivi və əsas məzmununu aşkar edir.

İnvestisiya dinamikası bir sıra amillər və perspektiv layihələr ilə uyğunlaşır. Naxçıvanda köklü islahatlar layihələri blokada şəraiti və pandemiya mühiti təsirlərindən riskli fəaliyyətdir. Risk olaraq əsas məsələlər əhalinin cari tələbatını ödəmək və məşğulluğunu təmin etmək vəzifələrini özündə əks etdirir.

İstehlak xarakterli investisiyalar xidmət və dövlət maliyyəsi ilə fəaliyyətini təşkil edən müəssisələr üçün istifadə olunur. Təhsil və səhiyyə obyektləri və kiçik sahibkarlığa maliyyə dəstəyi yolları dinamikada özünə yer tutur.

Bank kreditləri məhsulun istehsalı və daxili bazara yönəldilən məhsullar üzrə aparılır. Xarici investisiyalar daha çox təbii resurslardan istifadə sahəsində öz istiqamətlərini tapır. Əhalinin məhsul istehsalı onun təsərrüfatçılıq fəaliyyəti və sahibkar şəraitində yaratdığı məhsulun miqdarı və onun xərc strukturu ilə ölçülür.

Dövlət və xüsusi xidmət sahələrinin fiziki və hüquqi şəxs kimi sahibkarlıqda iştirak payı bölgü və yaradılan məhsulun dəyəri ilə qiymətləndirilir. Ərazi olaraq hər bir inzibati region özünün məhsul və xidmət, məşğulluq və təsərrüfatçılıq növü ilə fərqlənir. Ordubad meyvəçilik, Babək əkinçilik və tərəvəz, Şərur əkinçilik, Şahbuz rayonu heyvandarlıqla ixtisaslaşmış region olmaqla bazara çıxışda əlaqələnir. Naxçıvanda ərazi yerləşməsi əhalinin miqrasiyası və idxal, ixrac məhsul və xidmət strukturunu formalaşdırır. Təbii ki, dövlətlərarası iqtisadi əlaqələr şirkətlər və əhali vasitəsi ilə reallaşır. Culfa, Sədərək, Şahtaxtı kimi gömrük məntəqələri əhali və yükdaşımada rol oynayır. Təbii ki, gömrük sahibkarlıqla dövlət və onun xidməti isə əhali və hüquqi şəxslərlə əlaqədə reallaşır.

Qanunvericiliklə və gömrük tənzimlənilməsi ilə regiondan gedən və gələn məhsulların idarə edilməsi baş verir. Belə ki, yerli məhsulların və idxal məhsullarının çeşidi, keyfiyyəti, həcmi tənzimlənir. Bu istiqamətdə həmçinin əhali rifahı nəzərə alınır. Gömrük mühiti, güzəştli şərtlər və ayrı-ayrı məhsullar üzrə müəyyənləşməklə və az rüsumla tənzimlənir. Digər tərəfdən Naxçıvanın istehsal məhsullarının xaricə daşınması üçün ixrac güzəştləri edilir. Digər tərəfdən daxili bazarın qiymət tənzimlənilməsi və həmçinin daxili sahibkarlığın inkişafına təkan vermək niyyəti ilə region gömrük xüsusiyyətləri nəzərə alınmaqla tənzimləmə siyasəti aparılır. Naxçıvanda müştərək müəssisə və azad iqtisadi zonalar yaratmaqla daxili istehsal məhsullarının xaricə ixracatı təmin etmək olar. Perspektivdə Zəngəzur dəhlizinin açılması ilə məhz infrastruktur bazar potensialı genişlənəcək. Naxçıvan MR-nın iqtisadi inkişaf strategiyası onun ixracat yönümlü sənaye potensialının istifadəsidir.

Naxçıvanda kənd təsərrüfatının emalı sənayesi daha səmərəlidir. Beləki, meyvə, tərəvəz, dərman və həmçinin konserv sənayesi daha sərfəlidir. Bu aspektdə Türkiyə investorlarının cəlb edilməsi və güzəştli mexanizmlər tətbiq edilməsi vacibdir.

Sosial yönümlü siyasət olaraq iş yerlərinin artırılması üçün bir sıra ödəmələr və rüsumlar güzəştlə tətbiq edilir. Pay bölgüsü və iştirak payı maraqlar üzərində qurulur. Naxçıvanda sənayeləşmə strategiyası resurslara əsaslanır və rəqabət mühiti şəraitində əlverişli xərc strukturuna və sosial tutumuna görə prioritet yer tutur. Naxçıvanda qida və mineral sular üçün qaz qovşaqlarının genişlənməsi ixracat potensialını artırır. Qaz istehsalı ixracat üçün perspektiv sahədir.

İxracat potensialı olaraq tibbi pereperatlar və dərman zavodları əhəmiyyət kəsb edir. Naxçıvan bitki örtüyü, sərt və quru ekoloji şərait və həmçinin saf minerallar və hava şəraiti turizm sənayesini daha da aktuallaşdırır.

Naxçıvanda müsəlman ölkələri ilə sərhəd olduğu üçün meyvə, tərəvəz, konserv və həmçinin yarımfabrikalar hazırlanıb digər regionlara və Türkiyəyə, Rusiyaya ixrac üçün sərfəlidir. Naxçıvan ərazisinin coğrafi quruluşu, onun resurslarının çoxşaxəliliyi, yeni texnologiyalarının innovasiya xarakterli fəaliyyətin təşkili üçün iqtisadi və sosial səmərəyə görə fərqlidir və əmək tutumlu sahələr üçün əlverişlidir. Daha çox keyfiyyətli ərzaq məhsulları ixracat üçün xidmət məhsulları və investisiya idxalı üçün defisit olan və heç yerdə olmayan resurslarla bağlıdır. Naxçıvanda kiçik sahibkarlıq bazarı daha səmərəlidir. Hər bir ailənin istehsalı və istehlakı istehsal və bölgü qanunauyğunluğunu yaradır. Gəlilərin xarakterini istehlakın mənbəələrini və onun səmərəli strukturunu formalaşdırır. Ailə gəlirlərinin 60-70%-ini sahibkarlıq gəlirləri təşkil edir. Sahibkarlıq gəlirlərinin sosial-demoqrafik mahiyyəti, respublikada gəlirlərin formalaşması dinamikası və qanunauyğunluqlarını formalaşdırır. Sahibkarlıq gəlirlərinin əsas forması natural gəlirlərdir. Hər bir ailədə sahibkarlıq fəaliyyəti onun ailə üzvlərinin yaş, cins və məşğulluq sahəsi ilə formalaşır. Belə gəlirlərdən yeniyetmələrin, yaşlı insanların və pensiyaçıların istehsal xarakterindən və sahədən asılı olaraq fəaliyyətidir. Təhlil göstərir ki, orta ailə tərkibi və yaş qrupları üzrə differensiallaşma gəlirlərin differensiallaşmasını yaradır. Naxçıvanda gəlirlərin differensasiyasında sahə amili və

ərazi fərqləri rol oynayır. Dağ regionlarında gəlirlərin pul forması gücü xüsusi çəkiyə malikdir. Əsas natural gəlirlər rol oynayır. Natural gəlirlərin formalaşmasının əsas mənbəyi ev təsərrüfatı və hər hansı pay bölgüsünə uyğun natural məhsul və yaxud xidmət istehsalıdır. Naxçıvanda kənd əhalisinin qarışıq fəaliyyət forması xarakterikdir. Bəzi ailələrin üzvləri dövlət yaxud sahibkar fəaliyyətində muzdlu əməklə məşğul olmaqla yanaşı özünəməşğulluğu və fərdi təsərrüfatı ilə gəlirlər əldə edilir.

Kənd əhalisinin kənd təsərrüfatı və fərdi xidmət fəaliyyəti bazarın məhsul ehtiyatlarını və ixracatın artırılması üçün perspektiv istiqamətdir.

Zəngəzur dəhlizinin açılması Naxçıvandan ixrac olunan məhsulların miqdarını və onun istehsalını 2-3 dəfə artıra bilər. Regionda bazara uyğun və davamlı inkişaf strategiyasını əsas tutan sahibkarlar marketinq tədqiqatı ilə özlərinin məhsullarının keyfiyyətini, onların alıcı tələbinə uyğun təşkilini planlaşdırılır. Daha az xərc və daha çox gəlir gətirmək üçün dünya təcrübəsi və respublika inkişaf xüsusiyyətlərinə uyğun planlaşma, yeni texnologiyalar tətbiqi və stimullar sistemi yaradırlar.

Naxçıvan ərazisi kompleks və vahid iqtisadi sistem kimi idarə edilir. Onun resurs potensialı və alternativ istehsal quruluşları bu ərazinin inkişafına rəqabət mühiti yaratmaqla təşkil olunur. Naxçıvanda resurslar bütün əhalinin mülkiyyəti kimi istifadə edilirsə onun istifadəsindən gələn gəlirlər bonus şəklində bir sıra kollektiv istifadə üçün əhəmiyyət kəsb edir. Sosial müdafiənin maliyyə təminatı, xalq olaraq Azərbaycanın mərkəzi büdcəsi və yerli büdcə hesabına ödənilir. Təhsil, səhiyyə və onlardan istifadənin sayı ictimai xidmət olaraq bütün əhali üçün normativ əsaslarla paylanır. Naxçıvanda təhsil və səhiyyədən istifadə edənlərin dinamikası aşağıdakı kimidir.

**Cədvəl 2.3.4**

**Naxçıvan Muxtar Respublikasında təhsil müəssisələrində təhsil alanlar (2009-cu il əhalinin siyahıya alınması məlumatlarına əsasən)**

| Təhsil müəssisələri | Cəmi, nəfər | Kişilər, nəfər | Qadınlar, nəfər |
|---|---|---|---|
| Təhsil müəssisələrində təhsil alanlar | 91507 | 48237 | 43270 |
| O cümlədən: | | | |
| ali təhsil müəssisələrində | 7708 | 4296 | 3412 |
| orta ixtisas təhsili müəssisələrində | 715 | 335 | 380 |

| | | | |
|---|---|---|---|
| peşə təhsili müəssisələrində | 353 | 196 | 157 |
| ümumi təhsil müəssisələrində | 82456 | 43276 | 39180 |
| digər təhsil müəssisələrində | 275 | 134 | 141 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*
*https://nstat.gov.az/storage/section-graphs/v3KbAwgpVqZ58FnL8nD4.xls*

Təhsil səviyyəsi və onun yerləşməsi məskunlaşma ilə tarazlı təşkil olunur. Blokada şəraiti bir sıra çətinliklərlə yanaşı dağ regionlarında bir sıra müəllim və şagird təminatında problemlər yaradır. Bu problemlər dövlətin təhsilə proteksionizm layihələri ilə tənzimlənir. Müəllimlərin sosial müdafiəsi üçün dövlət büdcəli və yerli əhalinin dəstəyi ilə həmin kəndlər və regionların kadr potensialı təmin olunur. Naxçıvanda sosial infrastruktur sahələri genişlənir. Naxçıvan MR-də sosial tərkib özünəməxsus qanunauyğunluqlarla formalaşır. Ev təsərrüfatına bağlılıq, təhsilə bağlılıq, ailə və qohumluq münasibətləri, sosial sistemi formalaşdırır. Tələbatın ödənilməsi resursları öz təsərrüfatı hesabına yaradılan məhsullar ilə ödənilir. Təbii ki, respublikada ticarət sferası, xidmət və məişət üzrə məşğulluq sferası prioritet istiqamətlərdir.

Naxçıvanın əhalisinin miqrasiya problemləri mövcud olmaqla artan meyllər ilə müşahidə olunur. Perspektivdə bu meyllərin azalması və Naxçıvana axın, onun turizm mərkəzinə çevrilməsinə səbəb olacaq.

Miqrasiyanın əsas səbəbi blokada şəraitində istehsal və məişət sferasında məşğulluğun azalmasıdır. Naxçıvanda tranzit və loqistika xidmətləri perspektivli sahələr kimi strateji planlanmış sahələrdir. Naxçıvanın turizm potensialı və emal sənayesinin artması hesabına əhalinin məşğulluq probleminin həll olması başlıca məqsəddir.

# III FƏSİL. NAXÇIVANDA SAHİBKARLIĞIN İNNOVATİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

## 3.1. Kiçik sahibkarlıqda innovativ metodlar və mexanizmlər

Mövcud təcrübələri təkmilləşdirərək və ya dəyişdirərək yeni ideyaların, məhsulların, xidmətlərin və ya metodların yaradılması prosesi innovasiya adlanır. İnnovsiya biznes, səhiyə və təhsil də daxil olmaqla müxtəlif sektorlardakı rəqabətqabiliyyətliliyə və inkişafa cavab vermək üçün vacib amildir. Fərqli sektorlar yeniliyi unikal üsullarla həyata keçirə bilərlər. İnnovasiyaların idarəedilməsinə bir neçə aspektdən yanaşmaq mümkündür ki, bu da sistematik yanaşmanı zəruri edir. Bu yanaşma innovativ proseslərin planlaşdırılmasını, icrasını və qiymətləndirilməsini özündə ehtiva edir. *"İnnovasiya – vahid sistemin "mərkəzi" olmaqla özündə fərqli təzahürlərə yol açan məcmuu idarəetmə prosesidir. Onun xarkterizə edilməsində çoxsaylı məqamların işıqlandırılması mümkündür ki, onlardan mühüm olanları haqqında ardıcıl informasiyanın verilməsi məqsədə müvafiq sayıla bilər"* [25, c.3, s.14].

İqtisadiyyat və innovasiya arasında geniş və çoxşaxəli əlaqə var. İnnovasiyanın müxtəlif iqtisadi sektorlarda fərqli işlənilməsi nəzərə alınmalıdır. Bazarın tənzimləmə mühiti, istehlakçı davranışı kimi amillər innovasiyanın necə həyata keçiriləcəyinə və idarə olunmasına əhəmiyyətli dərəcədə təsir edə bilər. Müxtəlif innovasiya qruplarının uğur üçün fərqli meyarları ola bilər. Buna misal olaraq, texnoloji innovasiyalar bazara çıxma sürətini prioritetləşdirə bilər, idarəetmə innovasiyaları isə daxili proseslərin yaxşılaşdırılmasına diqqət yetirə bilər. Bu kimi müxtəlifliklər innovasiyaların təsirini dəqiq qiymətləndirmək üçün xüsusi qiymətləndirmə metodlarının tələb olunduğunu göstərir. *"İnnovasiya fəaliyyətinin reallığına onun iqtisadi müstəvidə fərqliliyini əks etdirən xüsusi situasiyalar da şahidlik etməkdədir. Belə ki, ümumi innovasiya qrupları*

*adı altında idarəetmə və tənzimləmə, menecment və marketinq, uçot və hesabat, texnoloji və digər qruplar mövcuddur"* [85, s.134].

Sahibkarlar risklər götürərək mal və ya xidmətlər təqdim etməklə yeni müəssisələr yaradan və bazara tez-tez yeni ideyalar gətirən innovatorlar kimi görülür. Rəqabəti təşviq edərək və innovasiyanı stumullaşdıraraq iqtisadi artımı sürətləndirirlər. Sahibkarlıq fəaliyyəti iqtisadiyyatın dayanıqlılığını artırır. Xüsusəndə kiçik və orta sahibkarlıq regional iqtisadiyyatı stimullaşdıraraq yerli bazara fokslanır ki, bu da iqtisadiyyata əhəmiyyətli təsir göstərə biləcək yeniliklərə yol açır. İnnovativ təcrübəsi olan kiçik və orta sahibkarlıq bazarda iştirak payını artıraraq milli iqtisadi artıma töhfə verə bilər. *"Dünya təəcrübəsi sübut edir ki, sahibkarlıq bazar iqtisadiyyatının vacib elementidir. Sahibkarlıq bir çox hallarda xalis milli məhsulun keyfiyyəti ilə xarakterizə edilir. Sahibkarlıq iqtisadi münasibətlərdə ona qeyri-adi innovasiya yanaşmaları və həlləri daxil etməklə xüsusi yer tutur. Bundan başqa kiçik və orta biznes əhalinin, yəni, əmək qabiliyyətli əhalinin əksər hissəsinin məşğulluğunun təmin edilməsini və əməyin istifadə sferasını genişləndirir, stimullaşdırır, işçilərin yaradıcı potensialının tam reallaşmasına yardımçı olur. Statistik göstəricilərə görə kiçik və orta biznes Azərbaycan iqtisadiyyatında əsas yer tutur"* [110, s.147].

Kiçik sahibkarlıq Azərbaycanın iqtisadi inkişaf strategiyasında əsas prioritet istiqamətidir. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında dövlətin sahibkarlığa təsiri hədəflənir. *"İnkişafın əsas qüvvəsi sahibkar olduğundan dövlət bütün qüvvəsini və resurslarını rəqabətli və dayanıqlı iqtisadi fəaliyyət mühitinin dəstəklənməsinə yönəldəcəkdir"* [10, s.22 ].

Sahibkar mühiti rəqabət mühiti ilə inkişaf edir. Rəqabətin təşkili mexanizm olaraq münasibətlər sistemində sahibkarlıq hüquqları və səlahiyyətlərin bölgüsü, öhdəliklər və qanun qarşısında vəzifələr sistemi ilə idarə edilir. Ona görə də sahibkarlıq mühiti ümumi prinsiplərlə yanaşı region və sosial qruplar üzrə fərqli təşkil olunur. Onun kiçik sahibkarlıq forması daha çox sosial müdafiə və məşğulluq strategiyası ilə uyğunlaşır.

Sosial yönümlü sahibkarlıq həm əhatə, həm də mexanizmlər üzrə fərqlənir. Zaman və məqsəd baxımında özünün xüsusiyyətləri ilə fərqlənir.

Kiçik sahibkarlıqda vəzifələr və təsirlər aşağıdakı təsnifatla qruplaşdırıla bilər;

- makro dəstək və vəzifələr;
- makro səviyyəli vəzifə və mexanizmlər;
- fərdi sahibkarlıq fəaliyyəti;
- dövlətin dəstək proqramları.

Kiçik sahibkarlığın bir sıra üstünlükləri və tələbləri mövcuddur. Bu tələblər şərait yaratmaq və tənzimləmə siyasəti ilə reallaşır. İlkin anda kiçik sahibkarlıq daxili tələbat və məşğulluq meyarına uyğun təşkil olunmalıdır. Bu baxımdan kiçik sahibkarlıq zaman və marketinq baxımından çevik və tənzimlənəndir. Digər tərəfdən kiçik sahibkarlıq Azərbaycan kimi sosial yönümlü və sosial demoqrafik tərkibli ailələr üçün səmərəli fəaliyyətdir. Amillər olaraq kiçik sahibkarlığa şərait mövcuddur. Belə ki, yeniyetmələrin sayı əhalinin 30%-ə qədərini təşkil edir. Pensiyaçıların əmək prosesində istifadəsi xarakterikdir.

Bu da kiçik sahibkarlıq üçün əmək ehtiyatları deməkdir. Əməyin xarakteri kiçik sahibkarlıqda sosial qruplar hətta sərfəlidir. Məsələn pensiyaçılar, əlillər və uşaqlar sahibkarlıq üçün istifadə edilə bilir.

Kiçik sahibkarlığın çevikliyi və məhdud maliyyə imkanları ilə təşkili mümkünlüyü sosial məna kəsb edir. Daha çox iqtisadi cəhətdən zəif inkişaf etmiş regionlarda öz səmərəsi ilə seçilir. Naxçıvan MR-nın regiondaxili iqtisadi, sosial və məskünlaşma fərqləri kiçik sahibkarlığın zəruriliyini formalaşdırır.

Şahbuz, Culfa və Ordubad regionlarında kiçik sahibkarlıq ailə, qohumlar və bir sıra kollektiv əməyin təşkili üçün yararlıdır. Bu sahədə yeni texnologiyaların tətbiqi üçün də ayrıca sahibkarlıq fəaliyyəti xidmət sferası olaraq genişlənir. Kiçik sahibkarlıq fəaliyyəti respublika və region inkişafında bir sıra müdaxilə və təsir mexanizmləri tələb edir ki, bu da 2022-2026-cı illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında mexanizm kimi geniş qiymətləndirilir:

- yerli tələbatı ödəmək də riskli sahələrin inkişaf strategiyası;

- məşğulluğun kənd və region timsalında surətlənməsi strategiyası;
- respublika daxili ixracat və xarici ölkələrə ixracat potensialını artırmaq və biznes mühitinin kompleks və əlaqəli sahələrinin ərazidə klaster kimi təşkil etmək;
- sosial məmnunluq və sosial təminata, ailə və icmanın birgə yaşayış və qarşılıqlı təsirləşməsinə dəstək vermək planı.

Kiçik sahibkarlığa dövlət dəstəyi və dövlət təsirləri regionlar üçün ədalətli və iqtisadi stimullar mexanizmi tətbiq edilir. Sosial öhdəliklər konteksində təşkil oluna bilir. Belə ki, kiçik sahibkarlara hər hansı vacib və zəruri olan məhsul və xidmət stimulları yaratmaq üçün subsidiya proqramları tərtib edilir. Ən çox dağ regionlarında sahibkarlara dəstək proqramları üzrə güzəştli kreditlər, məhsul və xidmətə sığorta ödəmələri imkanı hazır məhsulun satışı və daşınması xərclərinin azaldılması üçün dövlət dəstəyi göstərilir. Naxçıvanda bu proqramlar kənd təsərrüfatı məhsulları və turizm, yerli resurslardan istifadə sahələri ola bilir. Kiçik sahibkarlığın rolu sənaye potensialı və kənd təsərrüfatı sahələri və xidmət sferası ilə hər bir regionda vahid kompleks və əlaqəli iqtisadi sistemi yaradır. Bütün təsərrüfatların aparıcı amili olan enerji ehtiyatları və enerji təminatı səviyyəsi, su təminatı, torpaq resursları və digər resurslar kiçik sahibkarlığın məzmununu müəyyənləşdirir.

Kiçik sahibkarlıq motivi regional, milli və sosial-iqtisadi, ərazi amilləri ilə formalaşır. Daha çox kiçik sahibkarlıq, rifah və məşğulluq, həmçinin sahələrarası və məşğulluq rəqabəti ilə xüsusiyyətlər kəsb edir.

Belə ki, Naxçıvanda regional xüsusiyyətlər hər kənd və region mərkəzləri üzrə fərqlənir. Daha çox tərəvəz və taxıl istehsalı olan kəndlərdə sahibkarlıq üçün prioritet fəaliyyət növüdür. İnsanların əmək vərdişləri və arqo texniki xüsusiyyətlər sahibkarlığın motivini formalaşdırır.

Şahbuz regionunda daha çox maldarlıq və meyvəçilik, həmçinin tərəvəz istehsalı ailə və sahibkar üçün iqtisadi səmərəli sahələrdir.

Naxçıvanda kiçik sahibkarlıqda böyük gəlirlər əldə etmək mümkün deyil. Amma sosial mənasına və məşğulluq fəaliyyətinə görə səmərəli sahədir. Ailə gəlirləri daha çox natural və satış üçün məhsul istehsal etmək vəzifəsidir.

Kiçik sahibkarlıq motivi olaraq istehlak bazarını qiymətləndirməklə tələb və təklif meyllərinin tarazlı təşkili mexanizmləri əsaslandırılır. Naxçıvanda istehlak bazarı natural və fərdi istehlak növləri ilə marketinq planlaşmasına uyğun gəlir. Təbii ki, strateji metod olaraq istehlak bazarına yönəldilən maliyyə bazarı, kredit resursları və ipoteka tədbirləri özünün xüsusiyyətləri ilə formalaşır.

Fərdi bazar anlayışı və motivi istehlakçı xarakteristikası ilə müəyyənləşir. Əhalinin dinamikası və demoqrafik göstəriciləri fərdi bazarı formalaşdırır.

Sahibkarlığa dəstək proqramları mexanizm olaraq resurs potensialından və daha çox əhali yığımından və onların resurslarından asılı olaraq formalaşır.

Əhalinin vəsaitləri hər bir fəaliyyət üzrə texnoloji imkanlar və alıcılıq qabiliyyəti və təchizat üçün investisiyaların və maddi vəsaitlərin cəlb edilməsi və ona əlçatmanın intensivliyi ilə qiymətləndirilir. Əhalinin sahibkar kimi fəaliyyəti daha çox hüquqi şəxs yaratmadan ev təsərrüfatı və pay torpaqlarından istifadə imkanları ilə məhdudlaşır. Naxçıvanda pay torpaqları istifadə üçün əhaliyə paylanıb. Kiçik sahibkarlığın iqtisadi əsasları və mexanizmləri regional xüsusiyyətlər və idarə etmək təcrübəsi kəsb edir. Naxçıvan MR-də bu əsaslar özəlləşmə və dəstək mexanizmləri ilə formalaşır. Belə ki, özəlləşmənin ilkin şəraiti üçün hamılıq və investisiya mühiti olmalıdır. Sosial ədalət prinsipi olaraq bütöv əhalinin adam başına düşən əmlak və onun səmərəli istifadə edilməsinin perspektiv istiqamətləri təşkil edir. Özəlləşmə təbii ki, rəqabət mühiti və təşəbbüskarlıq yaratmaq, respublikada əhalinin məşğulluğu və rifahı üçün zəruri olan normativ baza olmalıdır. *"Özəlləşmə ilkin olaraq 1992-ci ildə Naxçıvan MR-da Heydər Əliyevin təşəbbüsü ilə Ali məclisin qəbul etdiyi proqram əsasında aparılır. Təbii ki, özəlləşmədə hər bir əmlak və resurs növü özünün xüsusiyyətləri ilə fəqlənir"* [50, s.363]. Özəlləşmənin Naxçıvan modeli blokada şəraitində olan respublikanın məhdud resurslarının müxtəlif istiqamətlərdə səmərəli istifadəsi yollarını əhatə edir. 1994-cü ildə Azərbaycanda özəlləşmə haqqında konseptual yanaşmalar reallaşdı. Kiçik sahibkarlığın Naxçıvan modeli, onun dəstəklənməsi metodları və strateji tədbirlər proqramları ilə reallaşır. Bu modelin əsasını qoyan Heydər Əliyev Naxçıvanın regional

aspektlərini onun blokada şəraitini və tranzit perspektivini nəzərə almaqla əsaslandırılır. Onun əlamətləri aşağıdakılardır:

- yerli resursların orjinallığı, təbii və coğrafi şəraiti və turizm üçün resurs təminatı;
- ev təsərrüfatının daha səmərəli məşğulluq prioritetliyi, həmçinin ailə və icma quruluşu;
- nisbətən əhali arasında köklü maddi və sosial fərqlərin az olması. Daha çox eynicins həyat davranışı, prioritetlərin və sosial fərqlərin olması;
- yerli məhsullar hesabına daxili tələbatı ödəmək şansı və həyat tərzi üçün şəxsi mülkiyyət və özünütəminat hisslərinin üstünlüyü;
- müəssisə və təşkilatlarla müqasiyədə ev təsərrüfatının daha səmərəli olması;
- nisbətən liberallıq və istehsal prosesində sərbəstlik, təşəbbüskarlıq, sosial, psixoloji və mənəviliyin üstün olması;
- kiçik sahibkarlıqda innovativ dəyişmələr, texnologiyalarla yanaşı əhali və iş qüvvəsinin istehsal bacarıqlarının və fəallıqlarının artması;
- kiçik sahibkarlıqda təşkilati quruluş olan ixtisaslaşma və sosial təbəqələr arasında peşəkar vərdişlərin və mübadilənin təkmilləşməsi;
- bəzi məhsullar və xidmətlər üzrə yeni texnologiyalar və ağıllı qərar qəbulu həyata keçirən ailə strukturunun, icmaların yaranması.

Naxçıvan ərazi olaraq, bəzi əmək vərdişlərinə məcburiyyət qarşısında yiyələnir. Daha çox ailədaxili xidmət və kənd, region xidmətləri üzrə peşəkar hüquqi şəxslər yaranır. Dövlət bəzi əmək proseslərinə müdaxilə etmir. Ancaq sosial müdafiə və iş yerlərinin açılması üçün şərait yaradır.

Kənd əhalisinin sosial müdafiəsi üçün kiçik kreditlər və mərkəzləşdirilmiş təminat sistemi hələ ki, aktual rol oynayır. Qaz, su və nəqliyyat təminatı üzrə dövlət dəstəyi özünün prioritetliyini saxlayır. Kiçik sahibkarlıqda vərdişlər və əmək ənənəsi aparıcı rol oynayır. Əkinçilik və heyvandarlıq ənənəvi olmaqla aran regionlarında

xarakterik fəaliyyət növüdür. Meyvəçilik və tərəvəzçilik dağ rayonlarında kiçik sahibkarlıq obyekti olmaqla daha çox ailə təsərrüfatı formasında şaxələnir.

İstehsalın şaxələnməsi yeni təsərrüfat obyektləri olaraq hüquqi və fiziki şəxs kimi genişlənir.

*"İnnovasiyalar üzrə fəaliyyətin fərdiləşdirilməsi eyni yöndə olan işlərin seçim imkanlarının dəqiqləşdirilməsini, eyni obyektin müxtəlif variantlarda təzahürünün öyrənilməsini zərurətə çevirməkdədir. Fərqli nəticələrin əldə olunması iqtisadi sistem sahələri, innovasiya proseslərinin obyektləri, tətbiqi məqsədəuyğun hesab edilən metod və mexanizmlər innovativ proseslərin mühüm "iştirakçıları" sırasındadır"* [85, s.138].

İnnovativ metodlar olaraq dövlət və bazar tələbinə uyğun marketinq planlaşması, texnoloji yeniliklər və təsərrüfat fəallığı metodları tətbiq edilir. İnnovativ metodlar olaraq azad iqtisadi mühit və dövlətin dəstək proqramları əsasında resurslara söykənən iqtisadi motivizasiya sistemi yaratmaq əsas vəzifədir. Regionda kiçik sahibkarlığın əsas prinsipi dövlətin təminat dayanıqılılığı və dəstək proqramıdır. Təminat qlobal, regional və sifarişli yanaşma metodları ilə reallaşır. Təhlükəsizlik, ərzaq təminatı və həmçinin idxal resursların gətirilməsi, satış və təczihatı əsas metod və mexanizmlərdir. Naxçıvanda dövlətin gübrə, texnika və məhsulun satışına təminat alması mümkün olmadıqda sahibkarlıq mümkün deyil. Sahibkarlığın təşkili və idarəedilməsinin mühüm tərəfi kənd təsərrüfatı və xidmət sferasının inkişafıdır. Kənd təsərrüfatının resurslarının müəyyən hissəsi digər sahibkar, bələdiyyə və dövlət mülkiyyətində olmaqla əlverişli əlaqə yaradılması idarəetməni formalaşdırır. Bu məqsədlə kənd təsərrüfatı istehsalında innovasiyaların tətbiqi dövlət himayəsi və dövlət resursları hesabına təşkil olunur. O, cümlədən yeni texnologiyalar, gübrə təminatı və hazır məhsulun tədarükü və satışı dövlət tərəfindən tənzimlənir. Bu baxımdan loqistika mərkəzləri yaradılır. Kiçik sahibkarlıq Naxçıvan MR-də məşğulluğun 80%-ni təşkil edir. Xususi olaraq sahibkarlıq fəaliyyətini qeydiyyata almadan maddi və xidmətlər istehsalının bazar və ailə tələbatını ödəmək üçün özünə məşğulluq forması bütöv olaraq bütün əhalini əhatə edir. Ona görə də bəzi məhsullar üzrə daxili tələbat və ixracat

potensialı 80-90%-təşkil edir. Naxçıvanda ev təsərrüfatında məhsul və xidmət istehsalı demoqrafik proseslər və Naxçıvanın inteqrasiya, azad zona və turizm üçün əlverişli amilləri ilə daha genişlənir. Ailə qurluşu əmək prosesində xüsusi model olaraq uşaq və pensiyaçı əməyindən istifadə etməklə özü üçün məhsullar və xidmətlər istehsalı ilə xarakterik xüsusiyyət kəsb edir. Ət, süd və bir sıra süd məhsulları bazarda tələbatı ödəmək üçün geniş yayılır.

**Cədvəl 3.1.1**
**Naxçıvan Muxtar Respublikasında əsas heyvandarlıq məhsullarının istehsalı, ton**

| İllər | Ət, (kəsilmiş çəkidə) | Süd | Yun, (fiziki çəkidə) | Yumurta, min ədəd | Balıqçılıq təsərrüfatının ümumi məhsulu, min manat |
|---|---|---|---|---|---|
| 2005 | 8123,0 | 64818,0 | 830,0 | 48300,0 | 29,7 |
| 2010 | 9772,0 | 75965,0 | 944,0 | 64158,0 | 1003,9 |
| 2015 | 13812,0 | 80243,6 | 1009,6 | 73486,0 | 1179,0 |
| 2016 | 14069,0 | 81371,6 | 1022,1 | 80422,0 | 1200,6 |
| 2017 | 14378,0 | 82857,3 | 1033,5 | 86236,0 | 1216,0 |
| 2018 | 15090,0 | 83967,1 | 1044,4 | 87280,8 | 1235,0 |
| 2019 | 15517,0 | 85637,4 | 1058,0 | 89629,8 | 1251,0 |
| 2020 | 15951,0 | 87334,3 | 1070,9 | 91764,7 | 1268,0 |
| 2021 | 16505.0 | 88564.1 | 1081.7 | 106083.6 | 1284,0 |
| 2022 | 17421.0 | 89853.1 | 1093.1 | 110534.0 | 1302,0 |

***Mənbə:** Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*
https://nstat.gov.az/storage/section-graphs/FzOUSzwemt4iCwlVogTU.xls

Kiçik sahibkarlığa dəstək mexanizmləri aşağıdakılardır:

- vergi güzəştləri və fiskal siyasəti;
- subsidiya və güzəştli kreditlər;
- dövlət sifarışınə uyğun olaraq məhsul və xidmət bazarına müdaxilə etməklə maddi və maliyyə dəstəyi proqramları;
- məhsulun tədarükü və satışına dəstək məqsədi ilə bazara əlçatmağı tənzimləmək və antiinhisar tədbirlərini həyata keçirmək;
- innovasiyalı istehsala və yeni texnologiyalara uyğun struktur dəyişmələrə yönümlü maddi və texniki kömək etmək;

- dövlətin qlobal inkişaf strategiyasının və mərkəzi inkişaf tədbirlərinin istehsalçılara təsirini gücləndirmək.

Kiçik sahibkarlıq tədbirlərinin sosial ədalət və əlçatmaqlığı üçün inhisarçılığa qarşı mübarizə və investisiya tədbirlərinin səmərəli təşkili əsas rol oynayır. Təbii ki, sosial ədalət kənd və şəhər əhalisi və gəlirlərə görə fərqlənən mühit qrupların marağına uyğun tədbirlərin reallaşması mexanizmləri tətbiq edilir.

İnhisarçılığın təbii yolla bərqərar olması region misalında özünün mexanizmlərini formalaşdırır. Bütün kənd əhalisi üçün torpaq islahatları, suvarma təminatı, kənd əhalisinin təsərrüfat fəaliyyətinə dəstək eyni prinsiplə tətbiq edilir. Bununla yanaşı təşəbbüskarlıq və fəallıq üçün mexanizmlər tətbiq edilir. İnnovasiyalı islahatların səmərəsi regionda iqtisadi güzəştlərin istifadəsi və sosial innovasiyaların xüsusi çəkisi ilə ölçülür. İnnovasiyalı islahatların səmərəsi regionda iqtisadi güzəştlərin istifadəsi və sosial innovasiyaların xüsusi çəkisi ilə ölçülür.

Sosial innovasiyalar sahibkarlıq üçün vacib məhsullar, dövlət sifarişində iştirak payı və həmçinin məşğulluq səviyyəsinin artımına təsir gücü ilə qiymətləndirilir.

*"Şumpeterin nöqteyi-nəzərindən sahibkarlığın iqtisadi dəyişikliklərə təsir göstərməsi üçün sahibkarın vəzifələri aşağıdakı kimi ümumiləşdirilə bilər:*

- *uyğun innovasiya mühitinin yaradılması;*
- *yeni ideyaların yaranması üçün sosial-psixoloji əngəlləri aradan qaldırmaq;*
- *istehsal alətlərinin yeni kanallara yönəldilməsi;*
- *innovasiya üçün lazımi maliyyələşdirməni təmin etməyə bankları inandırmaq;*
- *fəaliyyət sahəsində digər istehsalçıları risk almağa həvəsləndirmək;*
- *rəhbərliyin təmin edilməsi;*
- *yüksək dərəcədə risk götürmək"* [152, s.13].

İnnovasiyanın metodoloji əsasını istehsal mühiti və təchizat, təminat resursları təşkil edir. Bu istiqamətdə marketinq planlaşması və tədqiqatları əhəmiyyət kəsb edir.

Sahibkarlıqda marketinq planlaşması əsas meyar baxımından aşağıdakı istiqamətlərdə aparılır:

- strateji planlaşma;
- resurs planlaşması;
- gəlir səviyyəsinin yüksəldilməsi meyarına yönəldilən strategiya;
- əhalinin həyat səviyyəsinin yüksəldilməsi.

Hər bir fiziki şəxs və hüquqi şəxs, öz imkanlarını nəzərə alaraq sahibkarlıq məhsulunun və xidmətinin həcmini, onun çeşidini və ondan gələn gəlirlərin həcmini hesablamaqla özlərinin marketinq planını tərtib edir. Kənd əhalisi natural formada gələn gəlirlərinin istehlak bazarına çıxmaq dövriyyəsini planlaşdırır.

*"İnnovasiya - Fərqli, yeni ideyaların hazırlanması və həyata keçirilməsidir. Fərqli, müxtəlif və yeni ideyalar yaratmaqla, indiyə qədər həll olunmayan problemləri həll edəcək və ya qarşılanmamış ehtiyaclarımızı ödəyəcək yeni məhsullar yaradıla bilər və ya artıq bazarda mövcud olan məhsul və ya xidməti daha faydalı etməkdən əlavə, marketinq və təşkilatçılıq sahəsində yeni təqdimatlar da hazırlana bilər. Bunların nəticəsində ortaya çıxarılacaq məhsul, xidmət, marketinq və təşkilatı bazara təqdim etməklə yeniliklər edilmiş olacaq"* [118].

Marketinq planlaşması olaraq rəqabət mühiti şəraitində özünün davamlı inkişafı üçün zəruri olan resurs potensialını və onların mənbəələrini planlaşdırır. İnnovasiyalı imkanların xəritəsini və onların istifadə yollarını planlaşdırır. Marketinq planı kiçik sahibkarlıqda ahəngdar və bazar diktəsi ilə formalaşan qərar qəbuludur. Eyni fəaliyyətin müxtəlif məhsul və xidmət çeşidləri yerli, ailə tələbi və xaricdə yaşayan yerli əhali və ailə qrupları üçün çevik dəyişdirilir.

Naxçıvanda məhsul və xidmətə görə sahibkarları qruplaşdırmaq və onların bazar məhsulu istehsalında rolunu qiymətləndirməklə proqnozlar aparmaq olar. Bu isə sahibkarlığın marketinq göstəriciləri üzrə paylanması və dinamikası ilə özünü göstərir. Əgər ərzaq məhsulu xüsusi çəkisinə görə sahibkar istehsalının yarıdan çoxunu təşkil edirsə, bir sıra ailələr də bu rəqəm 80-90% təşkil edir. Xüsusi olaraq yoxsul və torpaqla bağlı ailələr ev təsərrüfatı olaraq ərzaq məhsulları istehsalı ilə məşğul olurlar.

Kiçik sahibkarlıqda innovativ metodlar sahə və funksional təsnifatına görə ixtisaslaşır. Bu istiqamətləri aşağıdakı kimi ifadə etmək olar:

- məhsul növü və onun tələbata görə ixtisaslaşması və aparıcı fəaliyyət kimi rayonlarda və yaşayış yerlərində xüsusi çəkisi;
- məhsul və xidmətin növünə görə sahibkarların paylanması və dəyişmə tendensiyaları;
- bəzi məhsul və xidmətlər üzrə kənd, şəhər və fəaliyyətin qruplaşması və ərazi planlaşmasında istifadəsi;
- prioritet istiqamət olaraq iqtisadi göstəricilərə görə qiymətləndirmə.

Ev təsərrüfatına sahibkarlıq fəaliyyətini Naxçıvan mühitində əsas istiqaməti bəzi emal və ixrac məhsullara görə dövlət təminatı və subsidiya sistemidir. Naxçıvan blokada şəraitində yaşayan respublika səlahiyyətli ərazi olduğu üçün onun təsərrüfat fəaliyyətinə yerli və mərkəzi vəsaitlər hesabına subsidiyalar tətbiq edilir. Daha çox sosial yönümlü subsidiyalar əsas yer tutur.

**Cədvəl 3.1.2**
**Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərclərində subsidiyaların həcmi**

| İllər | Dövlət müəssisələrinə subsidiyalar (253100-Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı kodu üzrə), manat |
|---|---|
| 2020 | 7 046 469 |
| 2021 | 5 207 265 |
| 2022 | 12 015 265 |
| 2023 | 11 072 948 |

***Mənbə:*** *Naxçıvan MR Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Subsidiyaların dinamikası, sahələrin inkişafı, özünəməşğulluq və strateji məhsullar bazarında əmtəə və xidmətin tələbini nəzərə almaqla əsaslandırılır. Daha çox sosial hədəfləri saxlamaq məskunlaşmanı artırmaq və torpaq, su ehtiyatlarından istifadənin səmərəli fəaliyyətlərə yönəltmək məqsədini güdür.

İdxala təsir etmək bazarda inhisarçılığı zəiflətmək respublika üçün vacib sayılan ərzaq və emal sənayesinə stimul yaratmaq üçün büdcə və büdcədənkənar vəsaitlər hesabına ünvanlı subsidiyalar verilir. Subsidiya mənbəyi olaraq xarici borclar deyil, daxili ehtiyatlar istifadə olunması səmərəni artırır.

Subsidiya birbaşa və dolayı yolla, maliyyə mənbəələri, mülkiyyət formaları üzrə fərqlənir. Daha çox Naxçıvanda pullu xidmətlər hesabına xüsusi təsərrüfat formaları fəaliyyət göstərir. Məhz bu xidmətlərin bütün sahibkarlara təqdim etdirilməsi, əlçatılmasında bərabərliyi, təşəbbüskarlığı artırır. Belə ki, Babək rayonunda kənd təsərrüfatı məhsulları daha çox dövlət hesabına təminat yolu ilə fərdi satış qaydalarına uyğun resurslarla ödənilir. Suvarma xərcləri isə subsidiya qiymətlərlə hər bir istehlakçıya təqdim edilir. Sahibkarlığın kompleks təşkili, blokada şəraiti və bazar məhdudiyyətləri olan Naxçıvan ərazisi üçün bir sıra problemlərlə üzləşir:

- kompleks resurs təminatı və texniki təminat, istehsal və maliyyə məhdudiyyətləri ilə üzləşir;
- regionda peşə bacarığı üçün geniş iş qüvvəsi spektrinə nail olmaq çətinlik yaradır;
- istehsal həcminin və strukturunun marketinq planlaşması, müəyyən çətinliklər və məhdud alıcı qabiliyyəti ilə üzləşir;
- maliyyə resurslarının çatışmazlığı və investisiya fondları.

Kiçik sahibkarlıq Naxçıvan MR-də bütün sahələr üzrə formalaşa bilər. Amma innovativ xarakter vermək üçün hasilat və emal sənayesi hüquqi şəxs statusunda geniş yayıla bilər. Kənd təsərrüfatı məhsullarının emalı ev təsərrüfatı və birgə müəssisə formasında genişlənə bilər.

Kiçik sahibkarlıq fəaliyyətində bir istiqamətdə əmək fəaliyyəti işçilərini peşəkar kimi formalaşmasına səbəb olur. Bu baxımdan kənd əhalisinin sahibkarlıq fəaliyyətində prioritetlər bazar tələbi və məşğulluq səviyyəsini yüksəltmək yolu əsas yer tutur. Naxçıvanda hər bir ailənin torpaq payı, özəlləşmə payı və birgə yaşayış üçün səylərinin olması kəndin kompleks inkişafına təkan verir.

Sahibkarlıq fəaliyyətinin regional modeli, həmin regionun kompleks inkişafı, regional strategiyanın tərkib hissəsi olmaqla sahələrarası və ərazilər tarazlığında həll olunur. Ona görə də effektiv model olaraq balans, sahələrarası əlaqə, klaster yanaşma modeli və sosial modellər sistemi tətbiq edilir. Sistem modellər variantlı hesabatlar və emprik reallaşma yolları ilə idarə edilir.




**Şəkil 3.1.1 Region inkişafının strategiya modeli**
***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunub.*

Modellər sistemi parametrlərin təsir gücünü və onların dəyişmə meyllərini nəzərə almaqla istifadə olunur. Aşağıdakı ardıcıllıqla idarəetmə sistemi formalaşır:

- qlobal strategiyanın region göstəriciləri və region vəzifələri proqnozlaşdırır;
- region əhalisinin rifahı və sosial inkişafı strategiyası hazırlanır;
- regionda səmərəli istehsal və xidmət sferasının inkişafının əsas istiqamətləri əsaslandırılır;
- kadr potensialının inkişafı və bacarıqlar potensialı proqnozlaşdırılır.

*"2004-cü ildən regionların sosial-iqtisadi inkişaf proqramları hər dörd ildə regionlara dövlət dəstəyinin vəzifəsini müəyyən edir"* [13]. Region strategiyası daxili və xarici amilləri nəzərə almaqla qlobal meyllər və transformasiya modelləri ilə uzlaşdırılır. Qanunvericilik bazası, prioritetlər, dövlətin tənzimləmə mexanizmləri ümumi məqsəd və mexanizmlərlə yanaşı, konkret və xüsusi hal üçün modifikasiyalaşır. Regionda qeyri müəyyənlik bir sıra amillərdən formalasır ki, bu da dövlətin regional vəzifələrini formalaşdırır.

### 3.2. Sahibkarlığın Naxçıvan Muxtar Respublikasında perspektiv istiqamətləri və təşkilatı-iqtisadi tədbirləri

Sahibkarlığın inkişafı müasir şəraitdə ölkənin iqtisadi və sosial inkişafının əsası və amili olmaqla, onun həlli yolları, bütöv iqtisadi artım, islahatlar və iqtisadi siyasətlə bağlıdır.

Hər bir regionun miqyası və sosial-iqtisadi inkişaf xüsusiyyətləri cari və perspektiv istiqamətləri müəyyənləşdirir. Bu baxımdan regiona dinamik proses olaraq yanaşma daxili və xarici amilləri və onların təsir güclərini qiymətləndirməklə yanaşı zəruridir. Regionda sahibkarlıq birmənalı kompleks və qarşılıqlı əlaqələr olan təsirlərin sinergetik səmərəsi və inteqral göstəricisi ilə müəyyənləşir. Naxçıvanın sosial-iqtisadi və əhali problemləri, daima obyektiv və subyektiv təsirlərə məruz qalmaqla ümumi meyllərdən kənarlaşıb. Bu kənarlaşmanı qiymətləndirməklə təşkilatı-iqtisadi tədbirlər hazırlanır.

Naxçıvan MR-da sahibkarlıqda ətalət və ixraca söykənən sahibkarlıq mühiti vardır. Ətalətlilik onun əhalisinin öz məhsul və xidmətin olan ehtiyacıdır. Bu növ sahibkarlıq innovativ müdaxilə, peşəkarlıq və maliyyə müdaxiləsi baxımından xeyli problemlərlə üzləşir. Bu problemlər ümumi və Naxçıvana məxsus xüsusiyyətlər kəsb edir:

- Kənd əhalisini sahibkarlıq stimullaşması üçün onların məhsul və xidmət bazarına təminat vermək;
- Hər bir region və ərazidə kənd əhalisi və kiçik sahibkarlığa uyğun dövlət müəssisələri yaratmaq;
- Kənd sahibkarlığının sığorta, vergi və maliyyə imkanlarına uzunmüddətli təminat vermək;
- Texniki, texnoloji və təşkilati məqsədlər üçün xüsusi şirkətlər və birbaşa müdaxilə üçün sahibkarların marağına uyğun proqramlar tətbiq etmək;
- Naxçıvanın beynəlxalq əlaqələrinin dərinləşməsi şimal-cənub, şərq-qərb, iqtisadi əlaqələri sistemində daha yeni təsərrüfat və mədəni əlaqələrin yaranması;

- Respublikada baş verən perspektiv meyllər və keyfiyyət dəyişmələrinə uyğun olaraq regionda daxili imkanları nəzərə almaqla və sosial inkişaf normalarına uyğun planlaşma və idarəetmə metodları tətbiq etmək;
- İnnovativ meyllər və dəyişmələrin region sahibkarlığında reallaşması uyğun şərait və mühitin yaradılması üçün dünya təcrübəsi və respublika reallıqlarını tətbiq etmək.

İnnovativ metodlar özünün məzmunu, forma və təşkili baxımından differensiallaşır. Hər bir sahə və fəaliyyət üzrə innovativ proqramlar tətbiq edilir. Naxçıvanda sahibkarlığın innovativ metodları yeni texnologiyaların tətbiqi ilə bağlı olmaqla yeni təşkilati-quruluş, stimullar sistemi və həmçinin dövlət proteksionizm metodlarının tətbiqi layihələrini birləşdirir.

İlkin növbədə hər bir tədbirin xərci və onun maddi maliyyə tarazlığı təmin olunur. Tarazlı siyasət olaraq maddi əsaslar istehsal və təsərrüfat proqnozları ilə tarazlanır.

$$\sum_{j=i}^{m} X_{ij} C_{ij} \to min \qquad (3.2.1)$$

Burada:

$X_{ij}$ − j fəaliyyəti;

$i$ – məhsul istehsalı;

$C_{ij}$ −j -məhsula çəkilən xərclər.

Bu meyarla hər bir sahibkar özünün fəaliyyətini əsaslandırır.

Sahibkarlığın innovativ əsasları onun keyfiyyətli bazar tələbinə uyğun məhsul və xidmət istehsalına şərait yaradır. Bu məqsədlə Naxçıvanda yerli resurslara uyğun texnologiyaların istehsalı və tətbiqi sferası genişlənir və yeni istiqamətlərə meyl artır. İnnovativ islahatların makro problemləri struktur siyasət, elm tutumlu və həmçinin inteqral səmərə verən tədbirlər məcmuusu ilə ölçülür. Bu baxımdan sahibkarlıqda innovasiya həm ekzogen, həm də endogen tənzimləmə və struktur dəyişmələrlə baş verir.

Sahibkarlıqda struktura motivi bazarın tələbi ilə baş verir. Hər bir regionda bazarın tələbi daxili və ixracat yönümlü məhsulların miqdarı, həmçinin təkrar istehsal üçün yığım və investisiya tələbatı ilə ölçülür. Sahibkarın investisiya tələbatı onun mənbəələrini müəyyən edən mexanizmlər vasitəsi ilə baş verməlidir. Bu baxımdan ən əlverişli innovativ yanaşma müəssisə və fəaliyyətin dayanıqlı və tarazlı inkişaf strategiyası təşkil edir. İnnovativ strategiya həm daxili, həm də xarici amilləri və potensialı nəzərə almaqla planlaşdırılır. Fəaliyyət növü olaraq investisiya layihələri struktur islahatlar proqramına uyğun təşkil olunur. Sahibkarlığın Naxçıvanda əsas istiqamətləri bir sıra məqsədlər və hədəflərə uyğun islahatlar proqramları ilə proqnozlaşdırıla bilər. Bunun nəticəsində real iqtisadi vəziyyəti qiymətləndirmək və aktiv islahatlar sintezində perspektiv inkişafını aşağıdakı kimi əsaslandırmaq olar.

- Birincisi Naxçıvanın inkişaf dinamikasını respublika səviyyəli göstəricilərə uyğun inkişaf etdirmək və bəzi göstəricilər üzrə onun fəaliyyətində prioritetlər təmin etmək;
- İkincisi Naxçıvan MR-da resursların iqtisadiyyatını və iqtisadi sosial rolunu qiymətləndirməklə resurslara əsaslanan və əhalinin məşğulluq səviyyəsini artıran əmək və xidmət fəaliyyətinə üstünlük vermək;
- Üçüncüsü Naxçıvanın resurs potensialı olan geoiqtisadi tranzit imkanlarını genişləndirməklə maksimal inkişafı təmin etmək;
- Dördüncü Naxçıvanda xüsusi xidmət zonaları olan turizmi inkişaf etdirmək.

İnnovativ layihələrə görə sahibkarlıq özü rəqabətqabiliyyətli fəaliyyət dairəsidir. Təbii ki, mövcud şəraitin hamı üçün əlçatanlığı hüquqi əsaslarla tənzimlənir. Belə ki, bir sıra tələblər qarşısında hər bir sahibkar məsuliyyət daşıyır. Onun fəaliyyəti üçün müvafiq icra orqanları eyni şərait yaradırlar. Eyni şəraitdə daha səmərəli qərar qəbulu sahibkarın fəaliyyətinin çevik və kompleks şəraitindən asılıdır. Naxçıvanda sahibkarlıq növünə görə ixtisaslaşma və paylaşma qanunauyğunluğu mövcuddur. Belə ki, heyvandarlıq məhsullarının satışı və emalı üçün təsərrüfat riskləri daha səmərəli layihələr kəsb edir. Dağ və aranda sahibkarlıq yerli resurslardan asılıdır. Sahibkarlığın

innovativ əsasları bazar tələbi, davamlı inkişaf və rifah hədəfləri üzərində qurulur. Bu məqsədlər üçün maliyyə, texniki tədbirlər və ağıllı qərar layihələri əsas rol oynayır.

Hər bir layihələrin iqtisadi əsasları və əlçatan dəstək imkanları mövcud olmalıdır. Fikrimizcə, Naxçıvan MR-də aşağıdakı tədbirlər əsas rol oynayır:

- Subsidiya sistemi;
- Sığorta sistemi;
- Ticarət və təchizat sistemi;
- Stimullar və muzdl əmək haqqı sistemi;
- Təhlükəsizlik sistemi.

İnnovativ təşkilatlanma xarici amil olub, təcrübə və dünyəvilik parametrləri ilə hər bir regionda reallaşma xüsusiyyətləri ilə fərqlənir. Naxçıvanda iki əsas normativ, hüquqi və resurs-proqmatik yanaşma baxımından həll oluna bilir.

Birinci yanaşma spektrində əhali insan amili, rifah və intelektual səviyyənin inkişafını əhatə edir. Ev təsərrüfatında sahibkarlıq özünün təşkili və bazar yönümlü strategiyası ilə hər bir regionda özünün xüsusiyyətlərini kəsb edir. Naxçıvan MR-də ev təsərrüfatı qiymətləndirmə metodikasına uyğun olaraq yoxsulluğun azaldılması üçün əsas forma olaraq öz aktuallığını saxlayır. Belə ki, torpaq islahatları, özəlləşmə, dəstək proqramları ev təsərrüfatının daxili tələbatını ödəmək və bazara çıxarılan məhsulu artırmaq üçün amillər olaraq prioritet istiqamətlərdir. İnnovativ sistem olaraq mövcud şərait və onun təkmilləşməsi yolları sahibkarlığın inkişafına təsir edir. İnnovativ yanaşma regionun davamlı inkişafı və sahibkarların rəqabət mühitində bazara çıxış fəallığını artırır. Bazarın və ixracatın genişlənməsi üçün şərait yaradır.




**Şəkil 3.2.1 İnnovativ sistem və sahibkarların fəallığı**

***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunub.*

Şəkildən göründüyü kimi əsas kapital, əmək ehtiyatları və təşkilati quruluş sahibkarlığın inkişafının əsasıdır. Sahibkarlıq şəraitdə elmi-texniki və təşkilatı amilləri birləşdirməklə sahibkar əməyinin səmərəsi ilə qiymətləndirilir. Hər bir sahibkar əməyi onun iqtisadi və təkrar istehsal nəticəsi ilə qiymətləndirilir. Kompleks və sistem təhlil metodu olaraq sxemdən göründüyü kimi sahibkarlığın nəticəsi olaraq, region, respublika və məkan inkişafı indeksi əsas fəaliyyət mexanizmi kimi qəbul edilir.

Naxçıvanın son 30 ildə inkişaf səviyyəsi onun ərazisini saxlamaq və əhalisinin blokada şəraitində məskunlaşmasını təmin etməkdən ibarətdir. Sosial inkişaf üçün təhhsil, səhiyyə və sosial infrastruktur obyektləri əhalinin yaşayışı üçün qorunub saxlanılıb. Naxçıvanda innovativ inkişafın əsas istiqaməti olaraq onun tarixi, mədəni resurslarını qoruyub saxlamaq və müasir inkişaf tələlərinə uyğun təkmilləşdirmək yolu ilə proqnozlaşdırılır. Sahibkarlığın perspektivi iqtisadi artım resursların istifadəsinin intensivləşməsi və əmək ehtiyatlarının səmərəli istifadəsi baxımından qiymətləndirilir və proqnoz tədbirləri hazırlanır. Kənd təsərrüfatı istehsalı inkişaf üçün iqtisadi və sosial

tutumlu fəaliyyət növü olaraq planlaşdırılır. Əməktutumlu və məşğulluq səviyyəsini artırmaq əsas meyardır.

**Cədvəl 3.2.1**

**Kənd təsərrüfat məhsulu istehsalı (ton)**

| İllər | Ət və ət məhsulları (kəsilmiş çəkidə) | Süd və süd məhsulları | Əkin taxıl |
|---|---|---|---|
| 2000 | 5271.0 | 54248.0 | 44312 |
| 2001 | 6570.0 | 55268.0 | 55393 |
| 2002 | 6875.0 | 58863.0 | 65737 |
| 2003 | 6879.0 | 58927.0 | 73025 |
| 2004 | 7800.0 | 62691.0 | 83556 |
| 2005 | 8123.0 | 64818.0 | 93207 |
| 2006 | 8597.0 | 67865.0 | 86103 |
| 2007 | 8874.0 | 70254.0 | 74369 |
| 2008 | 9137.0 | 72042.0 | 82564 |
| 2009 | 9352.0 | 73929.0 | 94693 |
| 2010 | 9772.0 | 75965.0 | 96010 |
| 2011 | 9959.0 | 77119.6 | 101028 |
| 2012 | 10319.4 | 78417.5 | 101848 |
| 2013 | 10824.7 | 78613.1 | 102960 |
| 2014 | 10951.0 | 78929.4 | 103070 |
| 2015 | 13812.0 | 80243.6 | 106282 |
| 2016 | 14069.0 | 81371.6 | 94117 |
| 2017 | 14378.0 | 82857.3 | 93419 |
| 2018 | 15090.0 | 83967.1 | 97689 |
| 2019 | 15517.0 | 85637.4 | 102984 |
| 2020 | 15951.0 | 87334.3 | 115649 |
| 2021 | 16505.0 | 88564.1 | 103372 |
| 2022 | 17421.0 | 89853.1 | 107418 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır* https://nstat.gov.az/sectiongraphic?id=9

Naxçıvan MR-in ərazi quruluşu və tranzit ölkə olması onun potensialı kimi beynəlxalq əlaqələr, yükdaşıma, logistika, əhali və sosial infrastruktur layihələri üçün əhəmiyyətlidir. Daha çox İran və Türkiyə, Şərq-qərb nəqliyyat və logistika xidmətləri üçün istifadə olunmaqla sosial tələbatı ödəməyə imkan verir. Beynəlxalq əlaqələrin formaları Naxçıvan şəraitində geniş spektr təşkil edir. Daha cox istehsal, nəqliyyat, logistika və birgə müəssisə formaları sahibkarlıq üçün əhəmiyyətlidir. Naxçıvana ixrac və idxal əməliyyatları geniş mal təklifinə və xidmət sferasına görə ixtisaslaşır.

Naxçıvan ərazisində iki dövlət arasında gömrük əlaqələri və perspektiv layihələr geniş vüsət tapıb. Əgər bu əlaqələr dayanıqlı təmin olunarsa, ölkəyə gətirilən və respublikadan daşınan yüklərin birmənalı daşınması daha üstünlük təşkil edəcək. Qeyd edək ki, Naxçıvan və İran arasında yük daşıma şəxsi istehlak və istehsal yönümlü resurslar və xidmətlər üzrə artır. Naxçıvan ərazisində investisiya mənbəələri olaraq İran, Türkiyə və Azərbaycan iş adamlarının kapital qoyuluşları perspektiv iqtisadi səylərin mühüm istiqamətidir. İqtisadi zonalar, ticarət mərkəzləri və birgə müəssisə formaları geniş spektrdə özünü doğrulda bilir.

Naxçıvanın meyvə tərəvəz bazarı və idxal olunan kənd təsərrüfatı resursları mühüm istiqamətlərdir. İran və Azərbaycan arasında olan oxşar əmək, resurs və əhali yaxınlığı bir sıra sahələrin prioritet olmasına səbəb olur. Kiçik sahibkarlıq üçün texnika, avadanlıq və kimyəvi maddələr, yem və gübrə idxalı mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq potensialın sahibkarlıq üçün istifadəsinin təkmilləşməsi üçün hüquqi baza, normativ aktlar və perspektiv planlaşma, investisiyalar layihələri təkmilləşir.

İnvestisiya layihələrinin səmərəli təşkili üçün dövlətlərarası əlaqələri və fəaliyyətlər dairəsi, Naxçıvanın ixracat potensialını artırmaq və daha çox istehsal xarakterli idxalın stimullaşması problemləri həll olunmalıdır.

Naxçıvan MR-da Türkiyə Respublikasına kənd təsərrüfatı məhsullarının ixracı və əmək resurslarının Türkiyə Cumhuriyyəti ərazisində məşğulluğu üçün əlaqələr genişlənə bilir. Naxçıvan enerji resursları istehsal etməklə, alternativ enerji resurslarının Türkiyə və İrana ixracını artıra bilər. Naxçıvan MR-da sahibkarlıq növü olaraq kənd təsərrüfatı məhsulları istehsalı, emal sənayesi, alternativ su və enerji mənbəələri və bunlara uyğun infrastruktur layihələri perspektiv istiqamətlərdir. Naxçıvanda mineral su istehsalı ilə yanaşı, onun infrastrukturu olan qaz və şüşə qablar istehsalı daşıma və logistika mərkəzləri uyğun xidmət sferası iqtisadi və sosial tutumuna görə səmərəli fəaliyyətdir.

Naxçıvanda sahibkarlıq kompleks xidmətlər üzrə aparılmalıdır. Bu məqsədlə tibb üçün dərman müəssisələri, turizm infrastrukturu və ictimai iaşə müəssisələrinin ailə forması daha səmərəlidir. İnnovasiya xarakterli islahatlar region timsalında bazara

çıxış göstəricilərinin artması və səmərəli texnologiyaların tətbiqi ilə mümkündür. Naxçıvanda idxal məhsullarına tələbatı kiçik sahibkarlığa dəstək proqramları üzrə baş verir. Yeni texnologiyaların idxalı birbaşa və dolayısı mənbəələr və yollar üzrə baş verməlidir. Bununla yanaşı idxala söykənməklə yanaşı daxili istehsal strukturu təkmilləşməlidir. Belə ki, kompleks emal və istehlak yönümlü fəaliyyətlərin məcmuu və vahid məqsədlərə uyğun olaraq ictimai əmək bölgüsündə iştirak payları ilə ölcülür.

Regiona vahid kompleks kimi baxmaq onun istehsal-istehlak və idxal-ixrac potensialını tamamlayan sistem olaraq fəaliyyət dairəsi kimi qəbul edilir.

Naxçıvan MR-da sahələrin inkişaf strategiyası ənənəvi və tələbatın yeni sosial indikatorlar üzrə planlaşdırılır. Strateji plan mexanizmləri olaraq Naxçıvan MR-nın respublika və digər regionlarla sahibkarlıq baxımından əlaqəsini təkmilləşdirmək əsas rol oynayır.

Naxçıvan əhalisinin respublika rayonları ilə təsərrüfat əlaqələri, miqrasiyası və məskünlaşma meyllərinin bir sıra iqtisadi və sosial səbəbləri və nəticələri mövcuddur. Bu əlaqələrin qiymətləndirilməsi yolu və metodları təkmilləşir. Daha çox iş yerlərinin açılması üçün özünəməşğulluq fəaliyyəti mühüm yer tutur. Perspektiv inkişaf istiqaməti olaraq Naxçıvanda xidmət sferası prioritet istiqamət olaraq yer tutur. Xidmət növlərinə aşağıdakı sahələrin inkişafı zəruridir:

- Nəqliyat və logistika xidməti;
- Turizm xidməti və turizm infrastrukturuna xidmət;
- İctimai iaşə. Xidmət və qida sənayesinin genişlənməsi;
- Ev təsərrüfatına xidmət edən hüquqi şəxs kimi sahibkarlıq formaları;
- Dövlət müəssisəsi olaraq əhaliyə xidmət göstərən təhsil, səhiyyə və mədəni xidmətlər;
- Maliyyə, sığorta və sosial müdafiə xidmətləri;
- Tikinti-təmir və kommunal xidmətlərin təşkili və istifadəsi üçün yaradılan hüquqi və fiziki şəxslər;
- Əhalinin xüsusi mülkiyyətində istifadə olunan texnologiyalara xidmət və texniki imkanların təzələnməsi və tətbiqi sahələri.

Təbii ki, iqtisadiyyat inkişaf etdikcə, onun strukturu təkmilləşdikcə, yeni innovasiya və idarəetmə metodları genişlənir. İdarəetmənin innovasiyalı olması yeni texnologiyaların qiymətləndirilməsi və onun tətbiqi sahələrini əhatə edir. İnformasiya bazasının genişlənməsi onun reallığı və əhatə dairəsinin genişlənməsi müasir texnoloji sistemin əsas istiqamətidir. Rəqəmsal texnologiyalar tətbiq edilməsi transformasiya və islahatlar proqramlarını zəruriləşdirir.

Naxçıvan MR-nın dəhliz funksiyası onun potensialını artırır. Bu potensialın iqtisadi və sosial dövriyyəyə cəlb edilməsi yeni texnologiyalar əsasında yeni dividentlər əldə edir. Belə ki, beynəlxalq daşımalar və infrastruktur xidmətləri əlavə gəlirlər və iş yerlərinin açılmasına səbəb olur. Naxçıvanda turizim xidmətinin yeni texnoloji sahələri inteqrasiya sisteminə təsir edə bilər. Tam əvəz olunmaz sahələr olan sağlamlıq turizmi, ekoloji turizm sahəsində Naxçıvan ərazisi əhəmiyyətli sahədir. Yeni dəhlizlərin yaranması Naxçıvanın sosial-iqtisadi inkişafında rolunu artıracaq uzunmüddətli layihələr əsasında xarici investisiyaların və daxili vəsaitlərin reallaşması sahələri genişlənəcək.

Naxçıvanda əl əməyinə böyük ehtiyaclar olub. Bu isə əlverişli təbii artım sahəsində təmin olunub. Miqrasiya problemləri olsa da əhalinin təsərrüfatla bağlılığı onun əhalisinin süni azalması baş vermir. Müasir şəraitdə sənaye, turizm, nəqliyyat və xidmət sahələrinin kompleks təşkili mexanizm olaraq yerli stimullar yaradır. Maraqlar artır və tarazlı inkişaf meylləri üstünlük təşkil edir.

Xidmət sferası Naxçıvan MR-da əmək ehtiyatlarının istifadəsi baxımından səmərəli fəaliyyət növüdür. Birincisi bu təkliflər qadın əməyinin istifadəsi üçün əhəmiyyətlidir. Naxçıvanda xidmət sferası olaraq turist xidmətləri və içtimai iaişə, otel təsərrüfatı və turistlərə yerli xidmətlər sahəsinin tətbiqi ilə məşğulluq səviyyəsi artır.

Xidmət sferasında pensiyaçıların və yeniyetmə əməyinin istifadəsi perspektiv sahə kimi qiymətləndirilir. Xidmət sahələrinin təşkili, hüquqi şəxs və fiziki şəxs həmçinin fərdi ailə xidmətləri vasitəsi ilə reallaşdırılır. Xidmət sferası əhali məşğulluğu üçün Naxçıvanda xarakterik fəaliyyət növüdür. Daha çox əhalinin təsərrüfat və istehlak

fəaliyyətinə meyl artır. Naxçıvanda əhali istehlakının əsas hissəsi özünəməşğulluq və icmadaxili məşğulluqla baş verir.

Özünəməşğulluğun əsas vəzifəsi ev təsərrüfatını təşkil etmək üçün istehsal xidməti, satış və təkrar istehsal sferasını əhatə edir. Naxçıvanda xidmət fərdi və haqqı ödənilmədən qohumluq və həmrəylik prinsipləri üzərində qurulur. Bu da ev və ailənin gəlirlərinin haqqı ödənilmədən əmək məsrəfləri hesabına formalaşmasına səbəb olur. Ev xidmətləri, Naxçıvanda gəlir mənbəyi və yaşayış üçün zəruri olan məhsulların təmin olunması amilidir. Daha çox ev təsərrüfatında xidmət sferası məşğulluğu və istehlak məhsullarını artırır.

Ev təsərrüfatı ilə xidmət sferası hüquqi şəxs olaraq yeni texnologiyaların istehsalı və tətbiqi vəzifələrini yerinə yetirir. Daha çox taxıl istehsalı üçün zəruri olan texnologiyaları almaq, istifadə etmək üçün xidmət bazarı yaradılır.

Xidmət sferası olaraq kənd təsərrüfatı texnologiyası, emal sənayesi, ticarət və daşıma formaları yaradılır. Xüsusi təsərrüfata xidmət ailədaxili, kənd və qəsəbə əhatəsində hüquqi şəxs yaratmadan fərdi sahibkarlıq kimi geniş yayılmalıdır. Bu tip fəaliyyətə dövlət, yerli və əhali, icma tərəfindən sosial müdafiə sistemləri kimi dəstək proqramları tərtib edilə bilər. Kəndin kütləvi tədbirlərini reallaşdıran qurumlar, yaxud xüsusi istedadlar üçün kredit, sığorta formaları tətbiq edilməlidir. Kütləvi tədbirləri həyata keçirən xidmət sferasında vergidən azad olma, yaxud güzəştli vergi, sığorta xərclərinin dövlət hesabına ödənilməsi yolları tətbiq edilər. Bu məqsədlə maliyyə yardımları vergidən azad olmalıdır.

Xidmət istehlakı bazarı perspektiv dövrdə daha çox xarici vətəndaşlara xidmət və istehlak bazarını təkmilləşdirən istiqamətlər üzrə intensivləşə bilər. Bu məqsədlər üçün infrastruktur sahələri, dəmir yolu, avtomobil yolları, ictimai iaşə xidmətləri və həmçinin otel təsərrüfatı geniş yayılmalıdır. Naxçıvanda fərdi ev təsərrüfatı, mənzil təminatı əhali artımına nisbətdə daha geniş yayılıb. Hər bir evin bir neçə mənzil ehtiyatları mövcuddur ki, buda yeni gəlir mənbəyi rolunu oynayır. Daha çox turizm xidmətləri və daxili turizm, etnik turizm üçün əlverişli sahədir. Naxçıvanda mineral su

ehtiyyatları, duz mədənləri və təbii-coğrafi şərait ekoloji turizmin inkişafına şərait yaradır.

Naxçıvanda alternativ enerji mənbəələri, iqtisadi cəhətdən səmərəli və daxili tələbatı, ixracatı artırmaq üçün əhəmiyyətli sahibkarlıq obyektidir. Bu məqsədlə bu sahələrə dövlət kreditləri və maliyyə yatırımları ayırmaq və uzunmüddətli ipoteka krediti kimi təşkil etməklə ölkə iqtisadiyyatına təkan vermək olar. Naxçıvanda mineral su zavodlarını və istehsal güclərini artırmaq lazımdır. Kənd təsərrüfatının emal sənayesini artırmaq, onun ev təsərrüfatı sistemində dərinləşməsi və şaxələnməsi həm məşğulluq, həm də potensialın innovativ proseslərlə əlaqəsini təmin edir.

Emal sənayesi ailə, icma və birgə yaşayış əhatəsinə əsaslanır. Belə ki, çörək bişirmə, ət və süd məhsullarının təkrar istehsalı və konservləşdirilməsi, bazara çıxan məhsul və xidmətlərin əmtəəsinin aslılığını və keyfiyyətini dəyişir. Tələbə uyğun təsir gücü artmaqla tələbatın yeni spektrini və onun gəlirliliyini artırır. Tələbat əyrisi və onun ödənilməsi yolları islahatlar şəraitində yeni mənbəələrə əsaslanır. Daha çox əhalinin özünütəminat sisteminin güclənməsi və ixracat potensialının artması yolları baş verir. İnnovativ yanaşma metodları olaraq sahibkarlığın əlverişli variantları qlobal və lokal, sosial üstünlüklər tələbi ilə müəyyənləşir. Qlobal sahibkarlıq marağı lokal maraqlar və fərdi uğurlarla tarazlaşdıqda sinergetik səmərə əldə edilir.

$$\int_{min}^{max} f(lx) \to max \qquad (3.2.2)$$

Sinergetik səmərə olaraq bütün resurs və təşkilati formaların alternativ qərar qəbulunun külli səmərəsi multipikasiya effekti kimi qiymətləndirilir. Son nəticə olaraq sosial inkişaf və əhali rifahında əldə olunan səmərə hesablanır.

Regionlararası əlaqə maraq və iştirak etməklə əldə olunan gəlirlərin bölgüsü və hüquqi normativlərə uyğun gəlir əldə etmək hüquqları ilə tənzimlənir. Regionda resurslar hamılıq, həmrəylik və xüsusi faydalanmaq nəzəriyyəsinə uyğun tənzimlənir. Bu mənada inhisarçılığa qarşı iqtisadi mübarizə metodları və mexanizmləri tətbiq edilir.

İnhisarçılıq bəzi resursların özü üçün istifadə edilməsi yolu ilə süni yaradılan mənimsəmə və əmlak üzərində, iş qüvvəsi və onun istifadəsində səlahiyyətlərin ədalətsiz bölgüsüdür. Sahibkarlıqda ədalətli istehsal, bölgü və mənimsəmə sistemi yaratmaq, əmək bölgüsü və sosial müdafiədə ədalətli tənzimləmə siyasətidir. Ədalətli sahibkarlıqda rəqabətqabiliyyətli şərait yaratmaq qanunlar və normativ-hüquqi baza əsasında idarə edilir. Naxçıvanda resursların məhdudluğu şəraitində və sahibkarlığın inkişafı üçün resurs qıtlığı, paylanma və istehsal mühiti üçün dövlətin proteksionizm siyasəti formalaşır. Bu hallarda resurs potensialında qənaət rejimi ilə istifadə mexanizmləri yaradılır. Bu aspektdə inzibati və iqtisadi metodlar tətbiq edilir. İqtisadi metodlar, maraqlar, stimullar, ədalətli rəqabət mühiti, həmçinin təşəbbüskarlığa dəstək proqramları vasitəsi ilə həll olunur. İqtisadi idarəetmə mexanizmlər və son nəticəyə yönəldilən metodlar üzrə təşkil olunur. Region sferası daxili və respublika səviyyəli meyarlar, səlahiyyətlər və spesifik reallıqları nəzərə almaqla kompleks və sistemli təşkilati-iqtisadi idarəetmə sistemi ilə səmərəli təşkil olunur. Naxçıvan regional səviyyədə inzibati idarəetmədən daha çox demokratik əsaslarla inkişaf üçün təsərrüfat əlaqələrinin əlverişli variantlara və regional maraqlara üstünlük vermək metodologiyası ilə təşkil olunmalıdır. Bu məqsədlə proteksionizmin sosial və iqtisadi aspektləri əlaqəli həll olunur. Naxçıvan özünün strateji geosiyasi mövqeyinə malik olduğu üçün onun idarəedilməsi qlobal və lokal maraqların uzlaşması və dayanaqlılığı ilə mümkündür.

### 3.3. Sahibkarlığın inkişafında təşkilati mexanizmlərin təkmilləşməsi

Sosial inkişafın sahibkarlıq amili olaraq onun təşkilati rifah və məşğulluq səviyyəsinin yüksəldilməsinə yönəlir. Sahə və ərazilərin kompleks inkişafını təmin edir.

Sahibkarlıq öz özünə inkişaf edən bazara ancaq istinad edilən fəaliyyət deyil. Onun təşkili və idarə edilməsində mexanizmlərin əsaslandırılması yolu deməkdir. Təşkilatı quruluş olaraq hədəflər, məqsədlər və onu təmin edən mexanizmlər məcmuu

təşkilati sistem kimi formalaşır. Təşkilanma səmərəsi və maraqlara balanslı yanaşılmalıdır. Təşkilatı quruluş regionun inkişafının bütün aspektləri ilə uyğunlaşır. Səmərəli təşkil meyarı vahid və xüsusi səmərəlilik meyarları ilə ifadə olunur. Bu baxımdan kompleks mühiti nəzərə almaqla islahatlar həyata keçirilməlidir. Sahibkarlığın inkişaf strategiyası ilkin növbədə yeni sahələrin innovasiya tutumlu fəaliyyətlərin dinamikası və hədəflər müəyyənləşir. Bu məqsədlə elmi əsaslarla hazırlanmış proqnozlar verilir. Belə ki, Naxçıvanın iqtisadi və Azərbaycan iqtisadi inkişaf strategiyasına inteqrasiya amili tərtib edilə bilər. Təşkilati quruluş olaraq idarəetmə orqanları və onların vəzifə bölgüsü tərtib edilir. Təşkilatı quruluş maddi və idarəetmə mexanizmləri vasitəsi ilə reallaşır. Maddi amil olaraq regionun kompleks inkişafı istiqamətləri, istehsal gücləri və onlardan istifadə mexanizmləri verilir. Təşkilati mexanizmlərə isə proqnozlaşma, reallaşma və idarəetmə mexanizmləri daxildir.

Maddi amil büdcə və maliyyə dəstəkləri investisiya imkanlarının sahibkarlığa təsiri baxımından qiymətləndirilir. Maddi amil innovasiya və yeni texnologiyaların tətbiqi ilə yenilənir. Maddi amil olaraq Naxçıvanda sosial tutumlu, tədbirlərin reallaşması üçün zəruri olan imkanları nəzərdə tutur. Maddi amil iş qüvvəsinin təkrar istehsalını və ehtiyacları təmin edir.

Naxçıvanın dayanıqlı inkişafı üçün zəruri olan maddi resurslar və onların mənbəələri planlaşdırılır. Təşkilati amil kadr potensialı, onların bacarıqları və reallaşma şəraiti və mexanizmləridir.

Naxçıvanda təşkilatı amil olaraq mütəxəssizlərin artımı, onların texnoloji vasitələrdən istifadə imkanları və həmçinin bacarıqların səmərəli istifadəsi yollarını əhatə edir. Proqnoz olaraq kadr hazırlığı, düzgün planlaşma, stimullar və əmək haqqı sistemi planlaşdırılır.

Kadr hazırlığı təhsilə, tələbat və regionda struktur islahatlarla bağlılığı ilə ölçülür. Kadr proqnozu rəqabət mühiti şəraitində insan amilinin istehsalcı və istehlakçı kimi rolunu qiymətlədirməklə baş verməlidir. Hər bir qərar alternativ olub, hədəfə

çatmağı əlverişli variant kimi qəbul edilir. Təşkilatı quruluş strategiya, resurs və mexanizmlər sistemi olaraq aşağıdakı kimi təsvir edilə bilər:




**Şəkil 3.3.1 Təşkilatı idarəetmənin struktur quruluşu.**
***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunub.*

Şəkildən göründüyü kimi təşkilatı quruluş regionda real iqtisadi sistem və normativ yanaşmanın kompleks həllidir. Onların tarazlı və davamlı inkişafa təsiridir.

Strateji məqsəd olaraq regional inkişafın daxili və xarici potensialdan istifadə etmək yollarını müəyyənləşdirir. Strateji araşdırma təşkilatlanmanın metodiki əsasıdır. İlkin hal regionun inkişafının son həddi və mümkün variantı alternativ yollarla həlli verilməlidir. Naxçıvanın hədəfləri mövcud reallığı və ən əlverişli halda dəyişmə meyllərini verməklə baş tutur. Bu məqsədlə maksimal və real göstəricilər arasında struktur və normativ bazaya uyğun olaraq təkmilləşmə istiqamətləri əsaslandırılır. Təşkilati idarəetmə mexanizmləri öz təsnifatına görə daha genişdir. Naxçıvan MR-da iqtisadi və sosial idarəetmə iki əsas kriteriya baxımdan təşkil olunur.

1. Regional maraq və rifahın yüksəldilməsi.

2. Dövlət statuslu müstəqillik və respublika ilə inteqrasiya amillərinin gücləndirilməsi.

Bu istiqamətlərə uyğun olaraq təşkilatlanma və maraqlara uyğun qərarlar qəbul edilir. Naxçıvanda iqtisadi və sosial qanunlar ilə yanaşı respublika Ali Məclisinin qərar və yerli icra mexanizmlərinə uyğun islahatlar keçirilir. İslahatlar proqramı olaraq yerli məqsədlər və imkanlarla tarazlaşır. Naxçıvanda sahibkarlığa dəstək proqramlarının maliyyə mənbəələri aşağıdakılardır:

- Respublika dövlət büdcəsindən Naxçıvan dövlət büdcəsinə ayırmalar;
- Naxçıvan büdcəsinə yerli vergilər və gömrük vergilərindən ayırmalar;
- Kredit və investisiya axını yolu ilə sahibkarlığa dəstək və sahibkarlığın inkişafı;
- Kadr və bacarıqların inkişafı.

Təşkilatı məsələ olaraq investisiya mühiti onun təşviqi və cəlbediciliyinin təşkili məsələləri dayanır. Təşkilatı davranış olaraq regionda inkişaf üçün alternativ istehsal, ticarət və ixracat imkanları artırılır. Təşkilatı amil olaraq bacarıqlar onların fəallığı, istehsal və istehlak qabiliyyətləri əsas rol oynayır. Regionda təhsilli insanların sayı ayrı-ayrı ixtisas və aparıcı sahələr üzrə proqnoz xarakterli dəyişikliklər elmi əsaslarla öz əksini tapır.

Sahibkarlıq bacarığı bazar tələbinə uyğun istehsal, idxal və ixracat aparmaqla yanaşı əldə olunan gəlirlərin bölgüsü və yenidən bölgüsü nəticəsində rifahın artım tempi və yoxsulluğun azaldılması yolları və konkret göstəriciləri verilməlidir.

Proqnoz xarakterli tədbir, məcmuu təşkilati tədbirlərin səmərəsi ilə ölçülür.

Təşkilatçılığın normativ bazasını Azərbaycanın iqtisadi və sosial müdafiə qanunları, icra orqanlarının səlahiyyətləri və normativ aktları, həmçinin ictimai qaydalar və yerli hüquqi normalar təşkil edir. Regional inkişaf strategiyası, Azərbaycan Respublikasının 2026-cı illərdə strateji inkişaf istiqamətlərində hədəf olaraq öz əksini tapır. Hər bir insanın tələbatı inkişaf üçün mühiti və həmrəylik prinsipinə uyğun davamlı inkişaf strategiyası regionda öz amilləri ilə idarə edilir. Bu məqsədlə Naxçıvan

Muxtar Respublikasına dəstək proqramları tətbiq edilir. Yerli qanunlar müvafiq islahatların reallaşması mexanizmlərini və konkret təşkilati quruluşu əhatə edir.

Naxçıvan MR özünəməxsus şəraiti, coğrafi və ekoloji mühiti sahibkarlıq fəaliyyəti üçün real iqtisadi vəziyyəti əhatə edir. Real iqtisadi mühit olaraq cari və perspektiv dəyişmələri, struktur və innovativ aspektlərlə transformasiya olan ərazi bölümüdür. Bunun əsas xüsusiyyətlərini nəzərə alaraq köklü dəyişmələr daxili və xarici amillərin istifadə intensivliyini əhatə etməklə təkmilləşir. Ərazi strukturu ilə sahə strukturu arasında davamlı inkişaf və qarşılıqlı təsir, makro səviyyəli tarazlıq və region əhəmiyyətli sosial səmərələrlə idarə edilir. Regionda prioritetlər təşkilatı-metodiki yanaşmanın və konkret islahatların mexanizmi olaraq qəbul edilir. Prioritetlər müxtəlif meyar və surət dəyişmələrindən asılı olaraq tərtib olunur. Prioritetlər dinamik dəyişir. Bəzi prioritetlər variantlı olmaqla nəticələri ilə interpritasiya olunur [39, s.226-239]. Onun təsviri modeli olaraq nəticələri ilə qiymətləndirilir. Məhz bu baxımdan ilkin dövrdə prioritetlər normativ-hüquqi hal kimi qiymətləndirilir. Fikrimizcə, aşağıdakı prioritetlər olmalıdır:

- əhalinin rifahının yüksəldilməsi və yoxsulluğun azaldılması;
- Naxçıvanın iqtisadi potensialının artıma təsiri və məşğulluğun artırılması;
- resursların istifadəsində səmərəli təsərrüfat formaları;
- Kənd təsərrüfatı istehsalının yüksəldilməsi və onunla bağlı sahələrin kompleks inkişafını, tarazlı və dinamik meyllərinin tənzimlənməsi;
- əhalinin məşğulluğu və təsərrüfat formalarının innovativ və rəqabət qabiliyyətli inkişaf şəraitinin təşkili;
- regionda daha çox potensialın ixracat yönümlü sahələrə yönəldilməsi üçün dövlətin himayəçilik subsidiyalaşma və güzəştli maliyyə-kredit mexanizmlərinin tətbiqi;
- regionun sosial infrastruktur obyektlərinin innovasiyalı və müasir səviyyəyə uyğun xidmət göstərməsinə şərait yaradılması.

Təbii ki, bu tədbirlərin reallaşması üçün qanunvericilik bazası, səlahiyyətlər, icra mexanizmləri və nəticələrin qiymətləndirilməsinin metodoloji əsasları və prinsipləri

işlənib hazırlanmalıdır. Bir sıra makrosəviyyəli tədbirlər təşkilatı amil olaraq bütün regionlara və əhaliyə şamil edilir. Amma blokada şəraitində yaşamaq və Naxçıvanın Azərbaycanın tərkib hissəsi olmağını təmin edən rifah, məşğulluq, məskünlaşma və sosial tərəqqi amilləri respublika səviyyəsinə yüksəldilmək üçün idarə edilməlidir. Funksional olaraq idarəetmə metodologiyası aşağıdakı kimi ifadə edilir:




**Şəkil 3.3.2 İdarəetmənin funksional aspektləri**
***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunub.*

Şəkildə təsirlərin qiymətləndirilməsi təhlil və proqnozlar yolu ilə ölçülür. Yeni texnologiyalar, insan amili və təşkilatı quruluş hər birinin son nəticəyə təsiri funksional olaraq, çoxamilli reqresiya təhlilləri ilə qiymətləndirilir.

$$\Delta sf = T_{AM} + ƏH - L_s + saldo \qquad (3.3.1)$$

Burada:

$\Delta sf$ – son fayda,

$T_{AM}$ – investisiya amili,

ƏH – əmək haqqı,

$L_s$ – işçilər,

saldo - ixrac və idxal saldosu.

Şəkildən göründüyü kimi ilkin növbədə idarəetmə meyarları və onun hədəfləri, nəticələri üçün zəruri olan təşkila vəzifələr müəyyənləşir. Bu vəzifələr respublika imkanları və tələbləri ilə əlaqəli uzlaşdırılır. Əgər vahid inkişaf strategiyasından uzlaşma baş verirsə onda əks əlaqə ilə tənzimləyici mexanizmlər və təsirlər tətbiq edilir. Bu təsirlər elmi-metodiki cəhətdən səmərəli olmalı və nəticəni əldə etmək effekti ilə ölçülür. Son nəticə olaraq əldə olunan iqtisadi və sosial göstəricilər orta respublika

göstəriciləri ilə müqayisədə qiymətləndirilir. Naxçıvanın iqtisadi inkişaf göstəricilərinin respublika və inkişaf etmiş ölkələrlə müqayisədə təhlili səbəb və nəticə əlaqələrini, obyektiv iqtisadi, təşkilatı amillərin qiymətləndirilməsi metodikasını formalaşdırır. Keyfiyyət üzrə təhlil aparmaqla inkişaf indeksinin əsas göstəriciləri hesablanır.

Naxçıvan MR-in inkişafı respublika və regiondaxili qərarların və təsərrüfat fəaliyyətlərinin əlaqəsi ilə idarə edilir. Sistem olaraq respublika qanunları və regional siyasətin reallaşması Naxçıvanın xüsusiyyətlərini nəzərə almaqla reallaşdırılır.




**Şəkil 3.3.3 Naxçıvanın respublika ilə əlaqə istiqamətləri**
***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunub.*

Şəkil Naxçıvanın respublika ilə əlaqə istiqamətlərini hər səviyyədə müqayisəli göstərir. Naxçıvanda bir sıra makro və mikro səviyyəli göstəricilərin proqnozunu formalaşdırır. Hamarlama siyasəti olaraq dövlət və hüquqi tənzimləmə mexanizmləri formalaşır.

Naxçıvan MR-də təşkilati-iqtisadi idarəetmə, planlaşma, proqnozlar və icra mexanizmlərinin qərar qəbulunun məcmuusu ilə həll olunur. Prinsipal sxem olaraq aşağıdakını təklif edirik:




**Şəkil 3.3.4 Respublika sosial-iqtisadi inkişafla əlaqə istiqmətləri**
***Mənbə:*** *Müəllif tərəfindən tərtib olunub.*

İqtisadi hədəflərin tərtibi, uyğun olaraq resurslar və onlardan istifadə yollarının təkmilləşməsini nəzərə almaqla təmin olunur. Regional məqsədlər respublika və məhəlli məqsədlərin qarşılıqlı əlaqəsi yolu ilə və maraqların uzlaşması prinsipləri ilə həll olunur. Təşkilati mexanizmlər bir başa və dolayısı təsirlərə görə təsnifatlaşdırılır və təkmilləşir. İlkin növbədə regional məqsədlər və hədəflər prioritetlər kimi qəbul edilir. Amma hər bir regionun özünün vəzifələri və onun reallaşması mexanizmləri mövcud olmalıdır. Birbaşa təsir mexanizmi strateji planlaşma olmaqla yanaşı həmin göstəricilərin həllində ümumi respublika, xarici təsirlər və daxili imkanları nəzərə alan metodlar tətbiq edilir.

Dolayısı mexanizmlər olaraq sosial inkişaf və müdafiə sistemi olmaqla bütün əhali qrupları üçün region şəraitindən asılı olmayaraq sosial bərabərlik prinsipidir. Bərabərlik ədalətli bölgü və istehlak prinsipləri ilə reallaşır.

Sosial müdafiə metodu və mexanizmləri həmrəylik prinsipləri və ədalətli bölgü sistemləri ilə mümkün olur. Sosial müdafiənin aşkar yolu və normativ bazası pensiya haqqında qanunlar, islahatlar və yaşamaq üçün zəruri olan təminatlar sistemi ilə reallaşır.

Müasir şəraitdə sosial müdafiənin kriterial səviyyəsi iş yerlərinin açılması və yoxsulluğun azaldılması məqsədi ilə atılan addımlardır. Sosial müdafiənin məşğulluq yolu dövlət himayəsi, istehsala və xidmətə dəstək proqramları ilə mümkün olur.

Özünəməşğulluğa dəstək yerli resurslar və mərkəzi fondlar hesabına təmin edilir. Bu məqsədlə kredit resurslarının dinamikası aşağıdakı kimidir.

**Cədvəl 3.3.1**
**İqtisadiyyata kredit qoyuluşları**
**(ilin axırına, min manat)**

| İllər / Göstərici | 2007 | 2010 | 2015 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| İqtisadiyyata kredit qoyuluşları | 13802,8 | 35909,4 | 70221,5 | 179473,3 | 235283.,6 | 273287,0 |
| qısamüddətli | 6208,9 | 17962,1 | 26627,3 | 18893,1 | 24009,6 | 21918.8 |
| yekuna görə, faizlə | 45,0 | 50,0 | 37,9 | 10,5 | 10,2 | 8,0 |
| uzunmüddətli | 7593,9 | 17947.3 | 43594.2 | 160580.2 | 211274,0 | 251368,2 |
| yekuna görə, faizlə | 55.0 | 50.0 | 62,1 | 89,5 | 89,8 | 92,0 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*
*https://nstat.gov.az/storage/section-graphs/46fTASUQTvYxZDNT7M5Q.xls*

Cədvəl 3.3.1-də Muxtar Respublikada iqtisadiyyata 2007-2022-ci illər üzrə kredit qoyuluşları verilmişdir. 2007-ci ildən 2022-ci ilə qədər ümumi kredit qoyuluşları təxminən 19,8 dəfə artmışdır. Bu artım iqtisadiyyatda mövcud maliyyə resurslarının genişlənməsini göstərir. Qısamüddətli kredit qoyuluşları 2007-ci ildən 2022-ci ilə qədər təxminən 3 dəfədən çox artmışdır. Lakin, bu artım ümumi kredit artımına nisbətən daha azdır. Buna səbəb qısamüddətli kreditin zirvə nöqtəsinin 2015-ci ildə baş verdikdən sonra, 2020-ci ildən etibarən azalmağa başlamasıdır. Bu azalma bizneslərin daha uzunmüddətli maliyyələşməyə yönəlməsi və ya bazar şəraitindəki dəyişikliklərlə bağlı ola bilər. Uzunmüddətli kredit qoyluşları isə 2007-ci ildən 2022-ci ilə qədər təxminən 33dəfə artmışdır ki, bu isə uzunmüddətli investisiyalara yönəlməni əks etdirir. Xüsusən də 2025-ci ildən etibarən kəskin artım kapitala yönəlmiş layihələrə artan diqqəti göstərir. Uzunmüddətli kredit qoyuluşunun ardıcıl illər üzrə artmı

bizneslərin gələcək iqtisadi şərtlərə daha optimis yanaşdığını və iqtisadi böyüməyə yönəlmiş layihələrə investisiya etdiklərini və innovasiyaya təşviqi göstərə bilər.

**Cədvəl 3.3.2**
**İqtisadiyyata kredit qoyuluşlarının kredit təşkilatları üzrə strukturu (dekabr ayı, min manat)**

| Tarix | Cəmi kredit qoyuluşu | Dövlət bankları | | Özəl banklar | | BOKT | |
|---|---|---|---|---|---|---|---|
| | | Məbləğ | Çəkisi %-lə | Məbləğ | Çəkisi %-lə | Məbləğ | Çəkisi %-lə |
| 2018 | 102681,3 | 13263,1 | 12,9 | 86700,0 | 84,4 | 2718,2 | 2,7 |
| 2019 | 171191,3 | 21536,9 | 12,6 | 143327,2 | 83,7 | 6327.2 | 3,7 |
| 2020 | 212399,3 | 22092,8 | 10,4 | 182592,0 | 86,0 | 17714,5 | 3,6 |
| 2021 | 258105,4 | 35172,4 | 13,6 | 212347,7 | 82,3 | 10585,3 | 4,1 |
| 2022 | 307256,9 | 42772,6 | 13,9 | 252816,1 | 82.3 | 11668,2 | 3,8 |

***Mənbə:*** *Cədvəl Azərbaycan Respublikası Mərkəzi Bankının statistik məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.* *https://www.cbar.az/page-811/nakhchivan-ar-office*

Cədvəl 3.3.2-yə nəzər saldıqda görərik ki, kreditləşmə əməliyyatında özəl bankların payı nisbətdə daha çoxluq təşkil edir. Belə ki, 2018-ci ilin sonuna iqtisadiyyata kredit qoyuluşlarında özəl bankların xüsusi çəkisi 84,4% idisə, 2020-ci ildə 1,6% artaraq 86% təşkil etmişdir. Lakin, 2022-ci ilin sonuna özəl bankların payı 3,7% azalaraq 82,3%-ə enmişdir. Dövlət banklarının payı isə 2018-ci ildən 2022-ci ilədək azalsada, 2022-ci ilin sonuna doğru artım təşkil etmişdir. Buradan aydın olur ki, 2022-ci ildə özəl bankların payının azalması dövlət banklarının payının artması ilə əvəz olunub. Buna baxmayaraq, kredit qoyuluşunda özəl bankların payı dövlət banklarına nisbətən yüksəkdir. Dövlət banklarının son illər kredit qoyuluşundakı payının artımı dövlətin iqtisadiyyata maliyə dəstəyi verməkdə daha mühim rol oynadığını göstərir və bunun dövlət layihələri və infranstruktur layhələri ilə bağlı olduğunu deyə bilərik. Özəl bankların artımına baxmayaraq, onların nisbətinin azalması bazar mühitində dəyişikliklərlə əlaqədardır.

Cədvəldəndə göründüyü kimi ən az paya sahib BOKT-lar (Bank olmayan kredit təşkilatları) təşkil edir. Belə ki, 2018-ci ildə 2,7% təşkil etmiş və artım tempi göstərmişdir. BOKT-lar və ya digər ifadə forması olan qeyri-bank maliyyə

institutlarının tərkibinə aid olan təşkilatların analizindən də göründüyü kimi onların iqtisadiyyatda və maliyyə sistemində payı azdır. Buna da bir səbəb kimi iqtisdiyyata kredit qoyuluşlarının az olmasını göstərmək olar. BOKT-ların ən böyük problemi faiz dərəcələridir ki, banklarla rəqabət aparmaqda çətinlik çəkirlər. Həmin bu təşkilatar əsasən mikro və kiçik bizneslər, həmçinin istehlak kreditləri üzrə ixtisaslaşıblar. Faktorinq, forfeyinq, lizinq və s. kimi fəaliyyət növləri həyata keçirmək, həmçinin satış mərkəzlərində daxili kreditlərin ləğvi və kreditləşmənin BOKT-lar vasitəsilə həyata keçirilməsi həm təşkilatların fəaliyyətinə, həm də iqtisadiyyata müsbət təsir edə bilər.

**Cədvəl 3.3.3**

**Kreditlərin sahələr üzrə strukturu (yanvar-dekabr ayları, min manat)**

| Kreditlərin sahəsi | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|
| | Məbləğ | Çəkisi %-lə | Məbləğ | Çəkisi %-lə | Məbləğ | Çəkisi %-lə |
| Cəmi kredit qoyuluşu | 179473,3 | | 235283,6 | | 273287,0 | |
| Sənaye | 18561,0 | 10,4 | 11276,0 | 4,8 | 11664,7 | 4,3 |
| Tikinti | 561,5 | 0,3 | - | - | 15,0 | 0,1 |
| Daşınmaz əmlak (İpoteka) | 3570,8 | 2,0 | 7051,3 | 3,0 | 8471,6 | 3,1 |
| Topdan və pərakəndə ticarət, avtomobillərin, məişət avadanlıqlarının və şəxsi istifadə əşyalarının təmiri | 4397,2 | 2,5 | 9870,6 | 4,2 | 17753,7 | 6,5 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 1112,4 | 0,6 | 1630,0 | 0,7 | 167,7 | 0,1 |
| Səhiyyə və sosial xidmətlər | 922,0 | 0,5 | 30.0 | 0,1 | - | - |
| Digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi, istehlak krediti | 136991,0 | 76,3 | 188130,5 | 79,9 | 216847,0 | 79,2 |
| Kənd təsərrüfatı | 13357,4 | 7,4 | 17295,2 | 7,3 | 18367,3 | 6,7 |

***Mənbə:*** *Cədvəl Azərbaycan Respublikası Mərkəzi Bankının statistik məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.* *https://www.cbar.az/page-811/nakhchivan-ar-office*

Cədvəl 3.3.3-də cəmi kredit qoyuluşunda üç il ərzində ardıcıl olaraq artımın baş verməsi verilən statistikadan görünür. 2021-ci ildə 31% artımla 235283,6 min manat, 2022- ci ildə isə 16% artımla 273287,0 min manat ümumi iqtisadiyyata kredit qoyuluşu olmuşdur. Naxçıvan Muxtar Respublikasında kredit qoyuluşlarının sahələr üzrə strukturuna nəzər saldıqda görərik ki, ən çox kredit dəstəyi 79,2% çəkisi ilə digər kommunal və sosial xidmətlər, istehlak kreditləri (216847,0 min manat ), 6,7% çəkisi ilə kənd təsərrüfatı (18367,3 min manat) və 6,5% çəkisi ilə topdan və pərakəndə ticarət (17753,7 min manat) sahələrinə olur. Qeyd etmək lazımdır ki, kreditlərin getdikcə daha böyük hissəsi ev təsərrüfatının maliyyələşdirilməsinə sərf edilir. Başqa sözlə, istehlak kreditlərinin genişləndiyini görürük. Sənaye, tikinti, nəqliyyat və rabitə sektorlarında azalma müşahidə edilir. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün dövlət proqramında əlverişli biznes mühitinin yaradılması, ticarətin inkişafı və ixracyönümlü sənayenin inkişafı kimi prioritetlərin olması gələcəkdə sahibkarların innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması üçün güzəştli kreditlərin verilməsi, Zəngəzur dəhlizi açıldıqdan sonra nəqliyyat sektorunda logistika şirkətlətinə kreditlərin verilməsi, Şərur sənaye məhəlləsinin fəaliyyətə başlaması və muxtar respublikada sənaye parkının yaradılması sənaye sektoruna investisiyaları cəlb edəcək və bütün bunlar statistikada olan mənzərəni dəyişdirəcək.

Regionun inkişaf mənbəələrindən asılı olmayaraq, pulun kütləsi və maliyyə dayanıqlığı pul-kredit siyasətindən asılıdır. Daxili resursların artırılması və təkrar istehsalı əsaslı kapital qoyuluşu, əsas fondların, texnologiyaların təzələnməsi və yeni təşkilatı quruluşla bağlıdır. Bu proses investisiya siyasətinin formalaşması və daha çox səmərəli kapital qoyuluşu strategiyası ilə tənzimlənir.

Struktur tənzimləmə bütün mərkəzlərdə aktual olmaqla, innovasiyalı iqtisadiyyat sistemində əsas rol oynayır. İnvestisiyanın səmərəsi perspektiv inkişafın meyarıdır. İnvestisiyanın optimal həcmi, görülən dəyişmələrin və mütərəqqi inkişafın maliyyə əsası olduğu üçün prioritetlər üzrə planlaşdırılır. Təbii ki, bu qlobal siyasət olmaqla region və sahə xüsusiyyətləri kəsb edir. İstehsal, infrastruktur və insan amili

struktur elementlər olmaqla özünün əmək və gəlir bölgüsündə investisiyaların strukturunu müəyyənləşdirir. Kompleks və tarazlı inkişaf strategiyası əsaslı kapitalın xüsusi və multipikasiya səmərəsini əhatə etməlidir. Kompleks və sistemli təşkilati quruluş tarazlığı təmin edir. Naxçıvana investisiya axını onun təbii potensialını bazara çıxarmaq üçün istehsala və xidmətə ayrılan vəsaitin artımı ilə qiymətləndirilir. İnnovasiya xarakterli struktur siyasət ixracat yönümlü və daxili tələbatı ödəmək üçün zəruri olan məhsulları və xidmətləri istehsal etməkdir. Bu sahələr aşağıdakılardır:

- enerji istehsalı və ixracatın artımı;
- daxili tələbat üçün qida və sənaye texnologiyalarının istehsalı;
- infrastruktur sahələrinin inkişafı;
- avtomobil və dəmir yolu magistralının genişlənməsi;
- ev təsərrüfatının inkişafı və təşkili.

Bu sahələrə kapital qoyuluşu və onun təşviqi baş verir. Sahələr idarəetmə mexanizmləri üzrə özünəməxsus metodoloji prinsiplər və yanaşma üsulları kəsb edir. Naxçıvanda əhalinin yoxsulluğunun azaldılması üçün özünəməşğulluq, özünü maliyyələşdirmə və idarəetmədə çevik və maraqların ödənilməsi imkanları planlaşdırılır. Planlaşma strategiyası Naxçıvanın blokada şəraitindən sonrakı dövrlərdə inkişaf strategiyasını birləşdirir. Naxçıvanın xarici iqtisadi əlaqələrini təkmilləşdirir.

Regionun inkişafında strateji meyllər olaraq turizm, xidmət və logistika mərkəzlərinin yaradılması əsas götürülür. Naxçıvanın əlverişli potensialı onun hava, dəmir yolu və avtomobil əlaqələri, onun beynəlxalq əlaqələrini və inkişaf strategiyasını daha qlobal müstəvidə idarə edilməsinə gətirib çıxarır.

Naxçıvanın ərazi-geoiqtisadi mövqeyinə və əhəmiyyətinə görə divident əldə etməklə, onun tranzit mövqeyi xidmətə görə haqq almaq yolu ilə daha çox inkişaf edə bilər. Təbii ki, yerli əhalinin və xarici xidmətlərin müxtəlif resurslarla idarə edilməsi mexanizmləri tərtib oluna bilər. Hər bir əlavə xidmətə uyğun ödəmələr tətbiq etmək olar.

Zəngəzur dəhlizinin istifadəsi Naxçıvanın iqtisadi və sosial həyatında yeni imkanların və güclərin istifadəsinə səbəb ola bilər. Naxçıvanın kənd təsərrüfatı

məhsulları birbaşa respublika bazarına çıxarılan digər tərəfdən turistlərin gediş gəlişi İran, Türkiyə, iqtisadi və nəqliyyat əlaqələri genişləndiyi üçün gəlir gətirə bilər.

Naxçıvan MR-nın iqtisadi və sosial potensialının xarici dövlətlər və sahibkarlar tərəfindən istifadəsi əlavə gəlir gətirmək, Naxçıvanda idxal xərclərinin azalması, qiymət mexanizminə təsir edəcək. Naxçıvanın sosial-iqtisadi inkişaf strategiyası, respublika strategiyası əsasında formalaşır, rolu və təsiri baxımından respublikaya təsir edir. Uzunmüddətli strateji məqsəd olaraq Naxçıvanın iqtisadi potensialını artırmaqla onun ümumi respublika inkişafına təsiri normativ baza kimi planlaşdırılır. Təşkilatı bacarıq olaraq Naxçıvanın iqtisadi artıma, əhali məskunlaşmasına və onların rifahına təsir edən amilləri planlaşdırmaq və reallaşdırmaq yollarını birləşdirir. Naxçıvan açıq iqtisadi potensialını geniş istifadə etmək strategiyasını hazırlayır.

Naxçıvanda xarakterik sahibkarlıq növləri olaraq özünəməşğulluq və xidmət sferasını daha da prioritet olaraq genişləndirməklə baş verməlidir. Özünəməşğulluq təcrübəsi hər bir regionda xüsusi olaraq reallaşır. Müasir şəraitdə azad olmuş regionlara dəstək proqramları digər regionların iqtisadi potensialının istifadə etmək kimi yeni yollarını formalaşdırır. Daha çox vahid respublika səviyyəli prioritetlərin region və sahə səmərəsini nəzərə almaqla maksimum səmərə əldə etməyi birləşdirir. Təşkilati amil özündə daxili amil olaraq yeni innovasiyalar və real dəyişmələri məqsədəuyğun tənzimləmək üçün variantlar və ilkin şərtlər əsasında formalaşır. İqtisadi inkişafda ədalətli bölgü sistemi, stimullar və mövcud səviyyəli texnoloji resurslar şəraitində insan, şəxsi amil və milli prioritetlər üzərində qurulur. Naxçıvan əhalisi, tarixi, iqtisadi və sosial şəraitinə görə qeyri müəyyən amillərin nəzərə alınması psixologiyasına malikdir. Ona görə də Naxçıvanda sosial iş və onun idarəetmə məqsədi və amil kimi rolu güclənir.

Mürəkkəb funksional asılılıq olaraq Naxçıvanın sosial səmərəsinin güclü tərəflərini daha da stimullaşdırmaq olar. Bu amillərə aşağıdakılar daxildir:

- iqtisadi artımın tələbata uyğunluğu;
- məskunlaşma və əhali artımını stimullaşdırmaq;
- əmək haqqı və sosial müdafiə sistemini təkmilləşdirmək;

- sosial ədaləti və aşkarlığı təmin etmək;
- sahibkarlığın regiona xas olan sahələrini genişləndirmək;
- ixracat potensialını daha da artırmaqla yeni texnoloji və istehlak məhsulları ixrac etmək;
- dövlət proteksionizm siyasətini yeni prinsiplər üzərində qurmaq;
- sahibkarlığa şərait və stimullar yaratmaq.

Bu və digər aspektlər dövlət siyasətinin reallaşması və onun yeni mexanizmini formalaşdırır. Dövlət siyasəti qlobal və regional baxımdan ümumi iqtisadi artım və sosial inkişaf məqsədlərinin funksional vəzifələri kimi formalaşdırılır. Qanunvericilik bazası, resursların bölgüsü və istifadəsi ümumi və xüsusi maraqlara uyğun olaraq tarazlaşdırılır. Məhz dayanıqlı inkişaf hər bir funksional səviyyədə tarazlı meyllərin və struktur islahatların reallaşması ilə mümkün olmalıdır. Regionların sosial-iqtisadi inkişafına təsir edən amillərin təsirini qiymətləndirmək və təsir gücünü tənzimləməklə baş verir. Xətti və üstlü funksional təsirlərlə ifadənin qiymətləndirilməsi hər bir amilin təsir gücü ilə qiymətləndirilir.

$$Y= A^{\alpha} B^{ß} C^{£} \qquad (3.3.2)$$

Burada:

Y – gözlənilən nəticə,

A – maddi amillər,

B – insan amili,

C – təşkilati amil,

α, ß, £ – elastiklik əmsalıdır.

Təşkilatı amil olaraq regional inkişafın perspektiv amilləri və struktur dəyişmələri qiymətləndirilir. Makrosəviyyələrin regional təzahürü və təməli proqnozlaşdırılır. Təşkilatı amil olaraq Naxçıvanda kadr potensialı və bacarıqların keyfiyyət və səmərələrin istifadəsi mexanizmləri daxildir.

Naxçıvanda təhsil strukturu yerli və tələbatın təsərrüfat fəaliyyətini sosial xidmətlərin müasir tələblərə uyğun inkişafını təmin edir.

Digər tərəfdən müasir bilik və bacarıqların dünya səviyyəsinə yüksəldilməsi tədbirləri ilə proqnozlaşdırılır.

Naxçıvanda kompleks idarəçilik metodlarını təkmilləşdirmək prinsipləri ilə təşkil olunur. İdarəetmə qlobal və lokal vəzifələr və imkanların uzlaşması mexanizmləri ilə təmin olunur. Belə ki, respublika maraqları və dövlət prinsiplərinə uyğun olaraq qanunvericilik bazasının regional xüsusiyyətləri əsas meyarlar və mexanizmlər yolu ilə reallaşır. Naxçıvanın iqtisadi və sosial inkişaf strategiyası onun əhalisinin məşğulluq və rifah problemlərinin həll edilməsinə yönəlir.

Naxçıvanın perspektiv inkişafı üçün təşkilati-iqtisadi tədbirlər və səmərəli proqramlar təşkil olunur.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işinin nəticələri nəzəri-metodoloji və praktiki əhəmiyyət kəsb edir. Dissertasiya işində regional iqtisadi və sosial inkişafın əsas istiqaməti olaraq sahibkarlıq fəaliyyətinin rolu və onun təşkili problemləri tədqiq olunur. Bazar iqtisadiyyatının inkişaf strategiyası olan rəqabət qabiliyyətli təsərrüfatçılıq, sosial yönümlü idarəetmə mexanizmlərini və region resurslarının təkrar istehsalı üçün istifadə problemləri aktual əhəmiyyət kəsb edir. Sahibkarlığın iqtisadi mənası, onun amil və metod olması nəzəri və praktiki cəhətdən əsaslandırılır. Sahibkarlıq fəaliyyət dairəsi olmaqla hüquqi və iqtisadi əsaslarla təşkil olunur. Onun forma və məzmunu maraq üzərində və resurs xüsusiyyətlərinə görə qurulur. İqtisadi maraq və sosial maraqlar, region və qlobal maraqlar sahibkarlığın formalarını və strukturunu formalaşdırır. Sahibkarlıq dinamik və səmərəli inkişaf üçün daima təzələnir. Bazar tələbi və sahibkarlıq motivi iqtisadi idarəetmə metodu kimi qəbul olunur.

Dissertasiyada sahibkarlığın inkişaf dinamikasına onun regional xüsusiyyətlərinə və modernləşməsi istiqamətlərinə baxılır.

Sahibkarlığın sosial-iqtisadi rolunu bir sıra göstəricilər və nəticələr ilə təhlil etmək olar. İlkin növbədə onun iqtisadi rolu, istehsal həcmi və onun bazar tələbinə uyğun təşkili mexanizmi kimi baxmaq olar. Sahibkarlığa bazar və istehlak sferasına təsir edən, onları idarə edən amil kimi baxmaq olar. Sahibkarlığın rifah aspekti əhalinin məşğulluğu, gəlirləri və istehlakı amili kimi qiymətləndirilir. Regionların inkişaf konsepsiyası müasir şəraitdə resurslardan istifadə etmək və səmərəli idarəetmə metodları tətbiq etməklə əhali rifahını və sosial müdafiəsini təşkil etməkdən ibarətdir. Sahibkarlığın Naxçıvan MR-nın sosial-iqtisadi inkişafının əsas amili olduğu əsaslandırılır.

Dissertasiya işində real resurs potensialını təhlil etməklə əsas istiqamətlər əsaslandırılır. Sahibkarlığın inkişafının Naxçıvan modeli müasir vəziyyəti və əsas istiqamətləri qiymətləndirilir.

Dissertasiya işinin nəzəri-metodoloji nəticələri regionda sahibkarlığın inkişafı zəruriliyi və əsas istiqamətləri verilir.

Kiçik və orta sahibkarlığın inkişafı regionların kompleks inkişafı və onların sosial mühitinin təkmilləşməsi şəraiti kimi qəbul edilir. Kiçik sahibkarlıq region mühiti üçün daha sərfəlidir. Bu məqsədlə Naxçıvan mühiti üçün ev təsərrüfatı və özünəməşğulluq sferasının inkişafı əsas istiqamət olaraq əsaslandırılır.

Dissertasiya işində Naxçıvanın iqtisadi və sosial potensialı kriterial baxımdan qiymətləndirilir və prioritetlər müəyyənləşir. Dissertasiyanın strukturu nəzəri və metodoloji, praktiki aspektdən sahibkarlığın inkişafının tədqiqi metoduna əsaslanır. Dissertasiya işində aşağıdakı metodoloji prinsiplər ümumiləşir:

- Makroiqtisadi tarazlıq və davamlı inkişaf üçün regional tarazlığın və əlaqələrin əlverişli yollarının verilməsi;
- Regional iqtisadi proseslərin dövlət və sosial müdafiə sistemində tənzimlənilməsi metodları verilir;
- Naxçıvan MR-nın kompleks inkişaf strategiyasının reallaşması üçün sahibkarlığın əsas istiqamətləri verilir;
- Praktiki olaraq resurs və məqsədli proqram metodlarının Naxçıvanda reallaşması metodları verilir;
- Ölkədə baş verən innovativ dəyişmələr və keyfiyyətcə yeniləşmiş dinamikaya uyğun olaraq regionda baş verəcək dəyişmələrin dinamikası verilir;
- Naxçıvan MR-nın resurs potensialına və innovativ dəyişmələrin konteksində Naxçıvanın sosial-iqtisadi inkişaf strategiyası əsaslandırılır.

Dissertasiya işinin əsas hissəsini sahibkarlığın əsas forma və təşkili quruluşunun xüsusiyyətləri təşkil edir. Bu məsələ Naxçıvanın iqtisadi və sosial potensialının strukturu, dinamikası və səmərəli istifadə metodları təhlil edilib, perspektiv üçün qiymətləndirilib. Sahibkarlığın inkişafının tənzimləmə obyekti olaraq şəraiti, tənzimləmə mexanizmləri və onların region təsviri model olaraq daima təkmilləşir. Bu məqsədlə aşağıdakı nəticə və təkliflər vermək olar:

- Sahibkarlıqda azad rəqabət, antiinhisar və stimullar sistemi tətbiq edilir;

- Sahibkarlığa kömək məqsədi ilə daxili və xarici resurslar hesabına fondlar tətbiq edilir. Bu fondların hüquqi şəxs kimi mülkiyyət formaları və təşkilati quruluş tarazlı və səmərəli variantlarla inkişaf etdirilir. Sahibkarlıq fəaliyyəti olaraq daima təsirlərə məruz qalır. Bu təsirləri qiymətləndirməklə təsir mexanizmi tətbiq edilməlidir.

- Sahibkarlığa dəstək proqramları istehsal və sahə quruluşuna görə ixtisaslaşır. Ona görə də sahibkarlıq prioritetləri müxtəlif meyar və göstəricilərlə qiymətləndirilməlidir.

Sahibkarlığa dəstək proqramlarında mexanizmlər aşağıdakılardır:

a) maliyyə dəstəyi;

b) vergi güzəştləri;

c) kredit formaları;

d) fondlar yolu ilə ünvanlı dəstək proqramları;

e) istehsal və xidmət növündən asılı olaraq prioritetlər üzrə planlaşma və idarəetmənin təkmilləşməsi.

Sahibkarlığa kömək məqsədi ilə dövlətin dəstəyi daha geniş və dünya bazarına çıxmaq üçün zəruri olan vasitələr ilə baş verməlidir. Bunun əsas istiqamətləri aşağıdakılar olmalıdır:

- məhsulun tədarükü və onun bazara çıxarılmasına yardım;
- istehsal və xidmətin idxal resursları və məhsulları ilə səmərəli təşkili;
- maliyyə dəstəyi, ipoteka, güzəştli vergi, kreditlər və həmçinin subsidiya formaları və onların səmərəli istiqamətlərdə tətbiqi;
- planlaşma, elmi əsaslarla metodiki və məsləhət köməkləri.

Naxçıvan MR-nın inkişafında sahibkarlığın rolu və səmərəsinin qiymətləndirilməsi metodikası və metodları dissertasiya işinin əsas nəticəsidir.

Birincisi sahibkarlıq ənənəvi olmaqla daha çox ev təsərrüfatına və özünəməşğulluğa yönəlir. Naxçıvanda ənənəvi sahələr olaraq kənd təsərüfatı, heyvandarlıq və xidmət sferası sahibkarlıq üçün xarakterik sahələrdir. Bəzi məhsullarda sahibkarlığın rolunu qiymətləndirmək, həmin sahələrə dəstək və şərait yaratmaq mexanizmlərini müəyyənləşdirir. Naxçıvanda meyvə, tərəvəz, ət, süd və bu

sahələrə xidmət sferası sahibkarlıq üçün səmərəli fəaliyyət dairəsidir. Sahibkarlıq fəaliyyətində bazar tələbi və təklifi arasında tarazlığın təmin olunması, idxal, ixrac və istehsal sahələrinin planlaşması və təşkili mexanizmləri əsaslandırılır. Belə ki, ixracat məhsullarının çeşidi və keyfiyyəti xarici və daxili bazara görə planlaşdırılır. Naxçıvanda əhalinin istehlak səbəti onun əsas məhsullar və xidmətlərlə təşkili tarixi, ənənəvi, milli resursları və əhalinin peşə, bacarıq səviyyəsinə uyğun idarə edilir. Sosial yönümlü tədbirlər prioritet olaraq inkişaf etdirilir. Əhalinin tələbatının ödənilməsi, daha çox yerli məhsulların istehsalı ilə ödənilir. İdxal prosesi blokada şəraitində İran və Türkiyə Respublikasından gətirilən məhsullarla baş verir. Müasir pandemiya şəraiti, müharibə vəziyyəti bu əlaqələrin çətinləşməsinə və hazır məhsulun ərazidən çıxarılmasına, bəzi istehsal məhsullarının gətirilməsinə ciddi təsir edir. Naxçıvanda sahibkarlığın yeni mərhələləri və struktur dəyişmələri mövcud vəziyyətdən çıxmaq tədbirləri ilə səciyyələnir. Sahibkarlıqda tənzimlənən sahələr sosial müdafiə məqsədini güdür. Əhalinin sahibkarlıq fəaliyyəti sosial amillərlə bağlıdır. Ailə tərkibi, birgə yaşayış tərzi, ailə büdcəsi, ailə daxili xərclərin idarəedilməsi və əhalinin istehlak davranışı sahibkarlığın yeni və daha sosial yönümlü nəticələrini gücləndirir.

Naxçıvanda ailə tərkibi çox mərhələlidir. Daha çox bir çox üzvü olan ailələrin gəlirlərinin mənbəələri onların istehlak davranışını yaradır.

Sahibkarlıqda ailələr daxili və kənd-şəhər təsərrüfatında yardımçı olmaq və gəlir əldə etmək xüsusi forma olaraq geniş tətbiq edilir. Sahibkarlıqda kollektiv təsərrüfat icarə götürmək və muzdlu əmək fəaliyyəti ilə ailə gəlirlərini artırmaq aspektləri geniş yayılıb.

Naxçıvan sahibkarlıq sferası dövlət, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti ilə təşkil olunur. Dövlət sahibkarlığı, dövlət müəssisələri və əhaliyə xidmət edən dövlət təşkili ilə xidmət göstərən müəssisələr daxildir. Naxçıvanda investisiya tələbatından, texnoloji tələbatından asılı olaraq riskli sahələr mövcuddur. Belə ki, turizm, dağ-mədən sənayesi, avtomobil və dəmiryolu nəqliyyatı, enerji və sağlamlıq sferası dövlət nəzarəti və müdaxiləsi ilə səmərəli təşkil olunur. Kənd təsərüfatı bütöv özəlləşib Naxçıvanda sahibkarlığın xüsusi növü olan birgə müəssisələrin yaradılmasıdır. Naxçıvanın

resursları təbii şərait və yerli xammal üzərində qurulur. Bu sahələr investisiya axını qonşu və uzaq innovasiyalı sərmayələr hesabına genişlənə bilər. Naxçıvanda birgə müəssisə kimi turizm müəssisələri tibbi dərman istehsalı, qida istehsalı və enerji istehsalı perspektiv sahələrdir.

Sahibkarlıq fəaliyyətində ticarət, yükdaşıma, əhali daşınması və ictimai iaşə müəssisələrinin dövlət və iş adamları, investorlar səviyyəsində həlli mühüm istiqamət olaraq proqnozlaşdırılır. Sahibkarlığın qiymətləndirilməsi iqtisadi, sosial və siyasi aspektdən səmərəllik göstəriciləri ilə idarə edilir. Onun iqtisadi artıma, rifaha və məşğulluğa təsiri elastiklik əmsalı, yaxud xüsusi faydalılıq əmsalları ilə qiymətləndirilir.

Sahibkarlığın sosial qiyməti rifah və məşğulluq, məskünlaşma və təbii artıma təsirlə qiymətləndirilir. Sahibkarlıq sosial güvənlik, sosial müdafiə və etibarlıq hissləri və münasibətləri kimi qiymətləndirilir.

Sahibkarlığın məskünlaşmaya, mülkyyətə münasibəti son nəticədə milli mənliyi və davamlı inkişafı müəyyənləşdirir. Sahibkarlığın sosial effekti hər bir nəfərin ehtiyaclarını təsir gücü ilə qiymətləndirir.

Naxçıvanda əhalinin sosial müdafiəsi sahibkarlığın inkişafı üçün transformasiya olunur. İlk növbədə özünəməşğulluq və özünü maliyyələşmə metodlarının tətbiqi və ev təsərrüfatına yaradılan imkanlarla genişlənir.

Sosial müdafiə sistemi birbaşa və dolayı yolla fəallığa və ictimai birliyə, həmrəyliyə şərait yaradır. Sosial müdafiə demoqrafik tarazlığa təkan verir. Bu məqsədlə təhsil, səhiyyə və mədəni fəaliyyətlərin səmərəsi əsas rol oynayır.

Sosial səmərə olaraq sahibkarlığın dövlət prinsipləri və öhdəlikləri təkmilləşməlidir, subsidiya, vergi, güzəştli kredit mexanizmləri hər bir sahə, ərazi və xidmət üçün differensial prinsiplər üzərində qurulmalıdır. Naxçıvanda taxıl, bostan və heyvandarlıq məhsulları özünün məhsuldarlığı və səmərəsi ilə xeyli sərfəlidir. Bu baxımdan subsidiya sistemi öz səmərəsini iqtisadi artımda və əhalinin tələbatının ödənilməsində rolunu artırmalıdır.

Subsidiya daima çevik meyar və səmərəli variantlar üzərində planlaşdırılır. Onun verilməsi və istifadəsi differensial göstəricilər üzrə təşkil olunur. Güzəştli kreditlər sahibkarlığın yüksəldilməsi üçün maliyyə imkanları yaradır. Sahibkarlığa dinamik proses kimi baxaraq onun forma və məzmununda strateji idarəetmə mexanizmləri və təşkilati quruluş modifikasiyası aşağıdakılardır:

- məqsədli proqram yanaşma, proqram, hədəf və resurs təminatı sistemi;
- normativ-hüquqi baza və hər bir resursun təkrar potensialı üçün bölgü və istifadə mexanizmlərinin təkmilləşməsi;
- kadr potensialının perspektiv təkmilləşməsi və istifadəsi stimullarının genişlənməsi;
- kənd əhalisinin məskünlaşması və miqrasiyasının qarşısını almaq üçün proteksionizm siyasətinin təkmilləşməsi.

Naxçıvan MR-nın perspektiv inkişaf strategiyası olaraq onun dövlət siyasətinin Azərbaycan Respublikasının inkişaf strategiyasına uyğun təşkil edilməsi və Naxçıvanın əhalisinin sosial inkişafı və məskunlaşması tədbirlərini daima təkmilləşdirmək nəzərdə tutulur.

Naxçıvanın ipək yolu, şərq-qərb, şimal-cənub kommunikasiyası əlaqələrinin tranzit əlaqəsi hesabına və beynəlxalq əlaqələri üfüqü və şaquli istiqamətlərinin şaxələnməsi hesabına gəlirlərinin artmasına səbəb olan proqramlar tətbiq edilməlidir.

Naxçıvanın mədəni və milli xüsusiyyətlərini saxlamaqla dünyəvilik prinsipləri əsasında təşkili, xidmət sferasını və məişət sferasını inkişaf etdirmək prioritetləri saxlanmalıdır.

Naxçıvanda tətbiq edilən kollektiv təsərrüfat və həmrəylik prinsipinə uyğun ictimai xidmət ənənəsi saxlamaqla, onun tarixi ənənələri inkişaf etdirilməlidir.

Naxçıvanın dini və mədəni, tarixi abidələrinin iqtisadi sferada istifadəsi və təkrar istehsalına səbəb olan münasibətlər təkmilləşməlidir.

Naxçıvanın respublika iqtisadiyyatında və dünya nəqliyyat, loqistika mərkəzi olmaqla inkişaf strategiyasının iqtisadi və sosial parametrlərini və meyllərinin

dinamikası proqnozlaşdırılır. Hesab edilir ki, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan MR inteqrasiya sistemində aparıcı rol oynayacaq.

Naxçıvan MR-da təşkilatı-iqtisadi idarəetmə metodlarında regional və qlobal maraqların uzlaşması prinsipləri və həlli yolları verilir. Naxçıvanın tarixi və ekoloji potensialının turizm və tranzit regionu kimi ixtisaslaşması prioritet olaraq əsaslandırılır. Naxçıvanda elmin və təhsilin inkişafı onun kadrlara olan tələbatı və əhalinin sosial inkişafına uyğun olaraq inkişaf etdirilir. Belə ki, ali təhsil və səhiyyə müəssisələri innovasiyalı tələbata uyğun olaraq ərazi üzrə yerləşdirilir.

Dissertasiyada Naxçıvanın sosial-iqtisadi inkişafında maliyyə mənbəələrinin və maliyyə büdcə nisbətlərinin əlverişli və ədalətli olması prinsipləri verilir. Dissertasiya işi bütövlükdə Naxçıvan MR-in tədqiqi və idarə edilməsi üçün rol oynaya bilər.

Naxçıvanın sosial yönümlü siyasəti onun xüsusiyyətlərini nəzərə almaqla qərar qəbulunu və planlaşma strategiyasını hazırlamağa imkan verir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Abbasov, A.F. Ərzaq təhlükəsizliyi / A.F.Abbasov. - Bakı: Naşir, - 2007. 602 s.

2. Abbasov, T.A. Aqrar bazar və sahibkarlığın regional inkişaf istiqamətləri / T.A.Abbasov. – Bakı: ADPU-nun mətbəəsi, - 2006. - 287 s.

3. Abbasov, T.A. Kənd təsərrüfatının resurs potensialı və ondan səmərəli istifadənin regional problemləri / T.A.Abbasov. – Bakı: Elm, - 2002. - 186 s.

4. Abdullayev, Z. İstehlakın təşkili / Z.Abdullayev, Ə.Hacıyev – Bakı: [n.y.], - 2000. – 496 s.

5. Alıyev, İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. / İ.H.Alıyev. – Bakı: Elm, - 2008. - 400 s.

6. Allahverdiyev, H.B. Milli iqtisadiyatın dövlət tənzimlənməsi. Dərslik. / H.B.Allahverdiyev, K.S.Qafarov, Ə.M.Əhmədov – Bakı: İqtisad Universiteti, - 2007. - 834 s.

7. Antiinhisar fəaliyyəti haqqındaa Azərbaycan Respublikasının qanunu // 4 mart 1993-cü ildə qəbul olunmuşdur. (19 dekabr 2023-cü il tarixdə oln dəyişiklik və əlavələr). – Bakı:[n.y.], - 1993, - 15 s.

8. Atakişiyev, M.C. Mikro va makroiqtisadiyyat. / M.C.Atakişiyev, H.M.Abbasov, N.M.Abbasova – Bakı: Azərnəşr, – 2010. – 508 s.

9. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası: Monoqrafiya / tərt. ed. Ə.Muradov – Bakı: Şərq-Qərb, - 2019. – 328 s.

10. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // 22 iyul 2022-ci il təsdiq edilmişdir. – Bakı:[n.y.], - 2022, - 73 s.

11. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi / Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr 1138 nömrəli

fərman ilə təsdiq edilmişdir: [Elektron resurs] / URL: https://static.president.az/pdf/38542.pdf

12. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı / Naxçıvan: - sentyabr 2023-cü il.

13. Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı / 11 fevral 2004-cü il: [Elektron resurs] / URL: https://files.preslib.az/projects/regions/r1/a1.pdf

14. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı / Bakı:[n.y.], - 2009. – 156 s.

15. Babayev, Ə.P. İqtisadi inkişafdan modernləşməyə doğru: [Elektron resurs] / Azərbaycan, 2010. - s. 2 URL: http://www.anl.az/down/meqale/azerbaycan/2010/oktyabr/136316.htm

16. Bağırov, M.M. Banklar və bank əməliyyatları (Ali məktəblər üçün dərslik) / M.M.Bağırov – Bakı: Nurlan, - 2003. - 512 s.

17. Bağırov, M.S. Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirmə və təhlil fəaliyyəti. / M.S.Bağırov. – Naxçıvan: Əcəmi, - 2023. - 216 s.

18. Bağırov, M.S. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: problemlər və həlli yolları. Dərs vəsaiti. / M.S.Bağırov, C.İ.Mahmudov – Naxçıvan: Əcəmi, - 2017. - 256 s.

19. Bağırov, M.S. Statistikanın təməl bilikləri / M.S.Bağırov. – Naxçıvan: Əcəmi, - 2020. - 525 s.

20. Balayev, R.Ə. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi / R.Ə.Balayev – Bakı:Elm, - 2007. – 295 s.

21. Bayramov, V.A. Milli iqtisadiyyatın dayanıqlılığı. Monoqrafiya. / V.A.Bayramov. – Bakı: - 2019. - 161 s.

22. Bədəlov, Ə.M. Regional iqtisadi siyasətin təkmilləşdirilməsi istiqamətləri // Təfəkkür jurnalı, - 2017. №2(14), - s. 22-27

23. Bəhərçi, T. Məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi. Dərslik. / T.Bəhərçi, V.Mehdiyeva – Bakı: İqtisad Universiteti, - 2012. – 526 s.

24. Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında dayanıqlı inkişaf üzrə əməkdaşlığa dair çərçivə sənədi: 2021-2025. / Bakı: - 2021: [Elektron resurs] / URL: https://azerbaijan.un.org/az/download/70528/128784

25. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. – Bakı: Şərq-Qərb, - c.3. – 2012. 608 s.

26. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. – Bakı: Şərq-Qərb, - c.4. – 2012. 591 s.

27. Cabbarov, Ə.X. Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. / Ə.X.Cabbarov. – Bakı: Elm, - 2015. - 267 s.

28. Coşkun, R. Strateji idarəetmə. Dərslik. / R.Coşkun, F.Əhmədov – Bakı: UNEC, - 2023. – 351 s.

29. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli. / C.İsmayılov [və b.]. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, - 2018. - 252 s.

30. Əhmədov, M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. / M.A.Əhmədov. – Bakı: Azərnəşr, - 2003, - 520 s.

31. Əhmədov, N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. / N.H.Əhmədov. – Bakı: Sabah, - 2008, 432 s.

32. Ələkbərov, Ə.Ə Sosial-iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin tənzimlənməsi. Monoqrafiya. / Ə.Ə.Ələkbərov – Bakı: Elm, - 2007. – 448 s.

33. Ələkbərov, Ə.Ə Sosial-iqtisadi inkişafın maliyyə-büdcə tənzimlənməsi problemləri: / iqtisad elmlər doktoru dis. avtoreferatı. / - Bakı, 2007. - 49 s.

34. Əlirzayeva, T.Ə. Əhali gəlirləri və istehlakının maliyyə mexanizmləri / T.Ə.Əlirzayeva, Ə.Q.Əlirzayev – Bakı: Elm, - 2007. – 248 s.

35. Əlirzayev, Ə.Q. Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları: Nəzəriyyə və təcrübə. Monoqrafiya. / Ə.Q.Əlirzayev. – Bakı: Elm, - 2000. 116 s.

36. Əlirzayev, Ə.Q. Azərbaycan dövlətçiliyinin qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə təcrübə və perspektiv düşüncələr. / Ə.Q.Əlirzayev – Bakı: Adiloğlu, - 2006. – 512 s.

37. Əlirzayev, Ə.Q. Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri, konseptual yanaşma, maliyə-büdcə və sahələrarası proqnozlaşma mexanizmləri. Monoqrafiya. / Ə.Q.Əlirzayev, E.Ə.Əlirzayev – Bakı: İqtisad Universiteti, - 2012. – 584 s.

38. Əlirzayev, Ə.Q. Sosial inkişaf: hədəflər və mexanizmlər. Monoqrafiya. / Ə.Q.Əlirzayev, E.Ə.Əlirzayev – Bakı: Zərdabi Nəşr MMC, - 2020. - 256 s.

39. Əlirzayev, Ə.Q. İqtisadiyyat: Düşüncələr, baxışlar. Monoqrafiya. / Ə.Q.Əlirzayev – Bakı: Bakı Universiteti, - 2002. – 466 s.

40. Əlirzayev, Ə.Q. İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: təcrübə, meyllər və perspektiv istiqamətlər. / Ə.Q.Əlirzayev – Bakı: Adiloğlu, - 2005. – 535 s.

41. Əlirzayev, Ə.Q. Sosial mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimləmə. Dərs vəsaiti. / Ə.Q.Əlirzayev – Bakı: İqtisad Universiteti, - 2016. - 220 s.

42. Əlirzayev, Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərs vəsaiti. / Ə.Q.Əlirzayev – Bakı: İqtisad Universiteti, - 2010. – 326 s.

43. Əlirzayev, Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Dərs vəsaiti. / Ə.Q.Əlirzayev – Bakı: İqtisad Universiteti, - 2011. - 494 s.

44. Əliyev, K. Aqrar sahədə sahibkarlığın inkişafının regional problemləri / K.Əliyev – Bakı: Nurlar, - 2009. – 158 s.

45. Əliyev, T.N. Aran iqtisadi rayonunda sahibkarlıq fəaliyyətinin təşkili: reallıqlar və innovativ inkişaf. Monoqrafiya. / T.N.Əliyev, B.V.İsmayılov – Bakı: Elm və bilik, - 2018. – 224 s.

46. Əsrin müqaviləsi // 20 sentyabr 1994-cü ildə imzalanmışdır. – Bakı:[n.y.], - 1999, - 17 s.

47. Gənciyev, G.Ə. Beynəlxalq iqtisadi münasibətlər / G.Ə.Gənciyev – Bakı: Maarif, - 2010. - 396 s.

48. Hacızadə, E.M. Dünya iqtisadiyyatı və Azərbaycan. Dərslik. / E.M.Hacızadə - Bakı: Letterpress, - 2018. - 912 s.

49. Hacızadə, E.M. Sosiallaşan iqtisadiyyat / E.M.Hacızadə - Bakı: Elm, - 2006. - 509 s.

50. Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər mövzusunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Respublika elmi-praktiki konfransın materialları / Bakı: İqtisad Universiteti, - 2021. – 618 s.

51. Həsənov, R.Ş. Ətraf mühitin iqtisadiyyatı. Dərslik. / R.Ş.Həsənov – Bakı: İqtisad Universiteti, - 2018. – 560 s.

52. Hüseynova, A.D. Azərbaycanda innovasiya potensialının təhlili / A.D.Hüseynova – Bakı: Elm və təhsil, - 2013. - 385 s.

53. Hüseynova, A.D. Elm və innovasiya fəaliyyəti: ölçmə və qiymətləndirmə / A.D.Hüseynova – Bakı: Tuna, - 2020. - 374 s.

54. Hüseynov, M. Aqrar sahənin innovativ inkişaf problemləri. Monoqrafiya. / M.Hüseynov – Bakı: Kooperasiya, - 2023. – 304 s.

55. Hüseynov, T.Ə. Sənayenin iqtisadiyyatı. Dərslik. / T.Ə.Hüseynov – Bakı: Azərnəşr, - 2000. - 667 s.

56. Hüseynov, T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika / T.H.Hüseynov – Bakı: Elm, - 2015. - 466 s.

57. Hüseyn, R.Z. Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları / R.Z.Hüseyn – Bakı: Avropa, - 2018. – 408 s.

58. İbrahimova, N.H. Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili / N.H.İbrahimova - Naxçıvan: Əcəmi, - 2015. – 184 s.

59. İbrahimov, İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri / İ.H.İbrahimov – Bakı: Səda, - 2005. – 360 s.

60. İbrahimov, İ.H. Məhsuldar qüvvələrin yerləşdirilməsi / İ.H.İbrahimov – Bakı: Bakı Biznes Universiteti, - 2014. – 212 s.

61. İqtisadi təlimlər tarixi. Dərslik. / tərt. ed. M.X.Meybullayev – Bakı: Nurlar, - 2005. - 560 s.

62. İmanov, Q. Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri. Makroiqtisadi təhlil / Q.İmanov, Y.Həsənli – Bakı: Elm, - 2001. - 248 s.

63. İnstitusional iqtisadiyyat. Yeni institusional iqtisadi nəzəriyyə / tərt.ed. Ə.P.Babayev – Bakı: CBS polygraphic production, - 2013. – 550 s.

64. İzahlı iqtisadi terminlər lüğəti / Ə.M.Abbasov, M.M.Bağırov, D.A.Bağırov [və b.] – Bakı: Nurlan, - 2005. - 546 s.

65. Kərimli, İ.A. İqtisad elmi: aktual problemlər və real yanaşmalar. Dərslik. / İ. A. Kərimli – Bakı: İqtisad Universiteti, - 2013. – 507 s.

66. Qafarov, N.C. Turizmin iqtisadiyyatı: ali məktəb tələbələri üçün dərslik / N.C.Qafarov – Bakı: Kooperasiya, - 2019. – 584 s.

67. Qafarov, Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Monoqrafiya. / Ş.S.Qafarov – Bakı: CBS polygraphic production, - 2005. – 631 s.

68. Quliyeva, A.E. Azərbaycanda regionların perspektiv inkişafı və maliyyə təminatının gücləndirilməsi problemləri. Monoqrafiya. / A.E.Quliyeva – Bakı: Kooperasiya, - 2021. – 308 s.

69. Quliyev, T.Ə. İnsan resurslarının idarə edilməsi: insan naminə / T.Ə.Quliyev – Bakı: Nağıl evi, - 2013. – 827 s.

70. Quliyev, T.Ə. Menecmentin (idarəetmənin) əsasları / T.Ə.Quliyev – Bakı: Qərənfil, - 2006. – 591 s.

71. Quluzadə, M. İnsan amili və Azərbaycan Respublikası qeyri-neft sektorunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi. Monoqrafiya. / M. Quluzadə - Bakı: Zərdabi LTD, - 2018. – 224 s.

72. Qurbanova, F.Ə. Sosial inkişafda servis fəaliyyəti. Dərs vəsaiti. / F. Ə. Qurbanova, Ə.Q. Əlirzayev – Bakı: Zərdabi Nəşr MMC, - 2021. – 120 s.

73. Qurbanzadə, A.A. Ekologiya: sosial-iqtisadi əsasları. Monoqrafiya. / A.A. Qurbanzadə - Bakı: Elm, - 2010. – 160 s.

74. Qurbanzadə, A.A. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri / A.A.Qurbanzadə - Bakı: Kooperasiya, - 2017. – 192 s.

75. Mahmudov, C.İ. Biznes: əsasları, təşkili və idarəedilməsi. Dərs vəsaiti. / C.İ.Mahmudov – Naxçıvan: İdeya, - 2011. - 272 s.

76. Mahmudov, C.İ. Naxçıvan iqtisadiyyatı. Dərs vəsaiti. / C.İ.Mahmudov, C.Y.Qasımov, E.N.Nəsirov – Naxçıvan: Əcəmi, - 2022. – 283 s.

77. Mahmudov, C.İ. Regionlararası fərqlər və regional tarazlığın təmin edilməsi istiqamətində atılan addımlar // - Bakı: ADİU-nun Elmi Xəbərləri, cild.7, Yanvar-Mart, - 2019. - s. 115-127.

78. Mahmudov, C.İ. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması. Dərs vəsaiti. / C.İ.Mahmudov, H.Q.Bağırsoylu – Naxçıvan: Əcəmi, - 2019. – 264 s.

79. Mahmudov, M.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Dərslik. / M.M.Mahmudov, İ.M.Mahmudova – Bakı: İqtisad Universiteti, - 2011. 370 s.

80. Məmmədov, E.Y. İstehlak bazarının idarə edilməsi. Dərslik. / E.Y.Məmmədov – Bakı: İqtisad Universiteti, - 2019. – 204 s.

81. Məmmədov, H.Ə. Davamlı iqtisadi inkişaf: infrastruktur problemləri. Monoqrafiya. / H.Ə.Məmmədov – Naxçıvan: Əcəmi, - 2017. - 240 s.

82. Məmmədov, M.İ. Əhali istehlakının makroiqtisadi təhlili və riyazi modelləşdirilməsi. Monoqrafiya. / M.İ.Məmmədov – Bakı: Azərnəşr, - 2008. – 158 s.

83. Məmmədov, Z.S. Azərbaycan Respubliksının region ölkələrinə inteqrasiyası (2006-2010-cu illər). Monoqrafiya. / Z.S.Məmmədov – Bakı: Elm, – 2015. – 336 s.

84. Müasir Azərbaycan iqtisadiyyatının əsasları. Dərs vəsaiti. / Ə.F.Mirzəyev, A.N.Eminov, E.B.Süleymanov [və b.] – Bakı: Zərdabi Nəşr MMC, - 2019. – 440 s.

85. Musayev, A.E. İnnovativ fəaliyyət sahibkarlığın başlıca inkişaf istiqamətlərindən biri kimi // - Bakı: Azərbaycan Kooperasiya Universitetinin Kooperasiya elmi-praktiki jurnalı, - 2023. №4(71), - s. 133-139

86. Musayev, A.E. Naxçıvan Muxtar Respublikasında sahibkarlığın formalaşması və inkişafının regional xüsusiyyətləri // - Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərlər jurnalı, İctimai elmlər seriyası, - 2023. №2(123), - s. 140-148

87. Musayev, A.E. Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti və innovasiya yönümlü inkişafına təsir edən amillər // V İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların beynəlxalq elmi konfransı, - Bakı: İqtisad Universiteti, - 2023, - s. 1915-1926

88. Musayev, A.E. Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafının əsas xüsusiyyətləri // - Naxçıvan: Naxçıvan Universitetinin Elmi əsərlər jurnalı, - 2023. №1(29), - s. 31-38

89. Musayev, A.E. Regional inkişaf problemlərinin həllində innovativ yanaşmanın əsas xüsusiyyətləri // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadi artım və ictimai rifah jurnalı, - 2022. №4, - s. 89-96

90. Musayev, A.E. Sahibkarlıq fenomeninə iqtisadi və sosial aspektdən yanaşma // - Naxçıvan: Naxçıvan Universitetinin Elmi əsərlər jurnalı, - 2023. №2(30), - s. 27-34

91. Nağıyev, Ə.T. Sosial-iqtisadi inkişafın metodoloji aspektləri. Monoqrafiya. / Ə.T.Nağıyev – Baкı: Azərnəşr, - 2002. - 270 s.

92. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf / Naxçıvan MR Ali Məcəlləsi – Naxçıvan: Əcəmi, - 2006. – 258 s.

93. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi / Naxçıvan MR Ali Məcəlləsi – Naxçıvan: Əcəmi, - 2015. – 72 s.

94. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. 2019-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi / Naxçıvan MR Ali Məcəlləsi – Naxçıvan: Əcəmi, - 2020. – 60 s.

95. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. 2020-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi / Naxçıvan MR Ali Məcəlləsi – Naxçıvan: Əcəmi, - 2021. – 64 s.

96. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. 2021-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi / Naxçıvan MR Ali Məcəlləsi – Naxçıvan: Əcəmi, - 2022. – 64 s.

97. Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyi: yerli istehsal və uğurlu nəticələr mövzusunda respublika konfransının materialları / Naxçıvan: Nuh, - 2021. – 105 s.

98. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası / - Bakı: Adiloğlu, - 2010. – 120 s.

99. Niftullayev, V.M. Sahibkarlığın əsasları / V.M.Niftullayev – Bakı: Zaman, - 2002. - 618 s.

100. Nuriyev, Ə.X. Davamlı və tarazlı inkişaf / Ə.X.Nuriyev – Bakı: Avropa, - 2017. - 242 s.

101. Nuriyev, Ə.X. Regional idarəetmənin əsasları / Ə.X.Nuriyev – Bakı: Elm, - 2007. – 428 s.

102. Nuriyev, Ə.X. Regional siyasət və idarəetmə / Ə.X.Nuriyev – Bakı: Elm, - 2004. – 348 s.

103. Pensiya təminatının inkişaf perspektivləri / Ə.T.Nağıyev, Ə.Q.Əlirzayev, A.O.Quliyev [və b.] – Bakı: Bakı Dövlət Universiteti, - 2001. – 234 s.

104. Rəhimli, R.Z. Azərbaycan Respublikasının idarəetmə sistemində yerli özünüidarələr. / R.Z.Rəhimli – Bakı: Elm, - 2009. – 172 s.

105. Rzayev, İ. Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı, mövcud vəziyyət və gələcək perspektivlər. / İ.Rzayev – Bakı: Elm, - 2010. – 351 s.

106. Rzayeva, Ş.M. İqtisadi fikir tarixi. Dərs vəsaiti. / Ş.M.Rzayeva, Z.L.Əliyeva – Bakı: İqtisad Universiteti, - 2018. – 388 s.

107. Smit, A. Xalqların Sərvəti/Tərcümə / A.Smit – Bakı:İqtisad Universiteti, - 2010. – 826 s.

108. Şəkərəliyev, A.Ş. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi. Monoqrafiya. / A.Ş.Şəkərəliyev – Bakı: İqtisad Universiteti, - 2011. – 544 s.

109. Şəkərəliyev, A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Monoqrafiya. / A.Ş.Şəkərəliyev – Bakı: İqdisad Universiteti, - 2009. – 416 s.

110. Tahirzadə, N.Z., Allahverdiyeva, M.A. Azərbaycan Resublikasında kiçik və orta biznesin inkişaf xüsusiyyətləri // - Bakı: Kooperasiya Universitetinin Kooperasiya elmi-praktiki jurnalı, - 2023. №4(71), - s. 146-152

111. Yusufova, Ş. Aqrar sahibkarlığın inkişafına dövlət dəstəyi və maliyyələşdirmə mexanizmi / Ş.Yusufova – Bakı: Kooperasiya, - 2023. – 264 s.

112. Arı, F. Yerel kalkınma ve inovasyon // - Diyarbakır: Dicle Üniversitesi İktisadi ve idari bilimler fakültesi dergisi, - 2020. №10(20), - y. 369-381.

113. Baykara, T. 21.Yüzyılda teknoloji, inovasyon ve yönetim / T.Baykara – Ankara: Nobel Yayın Dağıtım, - 2014. – 456 s.

114. Dinler, Z. Bölgesel İktisat / Z.Dinler – Bursa: Ekin kitabevi, - 2014. – 499 y.

115. İnce, F. Yenilikçi girişimçilik / F.İnce, Ege.İ – Ankara: Gazi Kitapevi, - 2018. – 295 y.

116. Keskin, S. Girişimcilik ve inovasyon arasindaki ilişki // - Ankara: Gazi Üniversitesi Sosyal Bilimler Dergisi – 2018. №5(13), - s.186-193.

117. Kitapcı, İ. Joseph Schumpeterin girişimcilik ve inovasyon anlayışı: yaratıcı yıkım kavramı ve geçmişten günümüze yansımaları: [Elektron resurs] / Journal of Empirical Economics and Social Sciences 1(2), s. 54-74 – 2019. URL: https://dergipark.org.tr/tr/download/article-file/843367

*118.* Özpolat, Z. İnovasyon: [Elektronik kaynak] / - Kayseri, 18.10.2015. URL: http://ziyaozpolat.com/grup/makaleler/inovasyon.html

119. Yanmaz, Ö.A. İşletmelerde dış kaynak kullanımı ve inovasyon ilişkisi: / genel işletme bilim dalı doktora tezi / - Denizli, 2019. – 295 y.

120. Балабанов, И.Т. Экономика туризма: Учеб. пособие / И.Т.Балабанов, А.И.Балабанов – М.: - 2003. – 176 с.

121. Видяпин, В.Н. Региональная экономика / В.Н.Видяпин, М.В.Степанов – Москва: Инфра-М, - 2003. – 686 с.

122. Григорьева, О.В. Подходы к управлению конкурентоспособностью малого предпринимательства на основе стратегии инновационного роста // Ученыезаписки Российской Академии предпринимательства – 2013. № 34, - с. 216-224.

123. Гурков, И.Б. Инновационное развитие и конкурентоспособность: Очерки развития российских предприятий / И.Б.Гурков – Москва: ТЕИС, - 2003. – 317 с.

124. Ермасова, Н.Б. Факторы, влияющие на инновационную активность организаций / Н.Б.Ермасова, А.А.Никитин // Экономика, управление и право: Т.14 – 2014. № 3, - с. 495-503

125. Ермасов, С.В. Инновационный менеджмент / С.В.Ермасов – Москва: Юрайт, - 2012. – 341 с.

126. Кислицына, О.А. Здоровье детей-богатство нации. Тенденции, факторы риска, стратегии сбережения. Монография. / О.А.Кислицына – Москва: МАКС Пресс, - 2011. – 265 с.

127. Колесов, В.П. Международная экономика / В.П.Колесов, М.В.Кулаков – Москва: Инфра-М, - 2009. – 345 с.

128. Кузьмин, Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие / Д.В.Кузьмин – Москва: Наука, - 2015. – 222 с.

129. Курс переходной экономики. Учебник. / Под ред. А.И.Абалкина. - Москва: ЗАО Финстатинформ, - 1997. – 640 с.

130. Маркс, К. Капитал. Критика политической экономии / К.Маркс. – Москва: Политиздат, - т. 3. – 1988. – 654 с.

131. Мировая экономика и международные экономические отношения: современное состояние, проблемы и основные тенденции развития / Е.Д.Фролова, С.А. Лукьянова, Е.Л. Андреева [и др.] – Екатеринбург: Урфу, - 2016. – 184 с.

132. Мищенко, В.В. Экономика регионов / В.В.Мищенко – Москва:ИК Аналитика, - 2012. – 290 с.

133. Сей, Ж.Б. Трактат по политической экономики / Ж.Б.Сей – Москва: Директ-Медиа, - 2007. – 67 с.

134. Смит, А. Исследование о природе и причинах богатства народов / А.Смит – Москва: Эксмо, - 2016. – 1056 с.

135. Страны и регионы мира. Экономико-политический справочник. / Под ред. А.С.Булатов – Москва: Проспект, - 2010. – 691 с.

136. Шевяков, А.Ю. Изменения экономического неравенства / А.Ю.Шевяков, А.Я.Кирута – М.:Лето, - 2002. – 320 с.

137. Ширай, В.И. Мировая экономика и международные экономические отношения / В.И.Ширай – Москва: Издательских дом Дашков и К, - 2003. – 528 с.

138. Шумпетер, Й.А. Теория экономического развития. Капитализм, социализм и демократия / Й.А.Шумпетер – Москва: Эксмо, - 2008. – 864 с.

139. Abdullayev, K.N. Regulation of the Digital Economy in Modern Condition of Competitiveness // - New Jersey: WSEAS Transactions on Business and Economics, - WSEAS publ. house, -2022. №19, - p. 1289–1295

140. Bagirov, M.S., Mahmudov, C.İ., Hasanov, R.V. “Agricultural production - processing industry” tandem - as one of the fundamentals of regional balancing activities // - Romania: Transylvanian Review, - 2022. Vol. 30, №1 – p. 15857-15868

141. Cantillon, R. Essay on the nature of trade / R.Cantillon – London: Cambridge University, - 1931. – 410 p.

142. Cornell University. The Global Innovation Index 2020: Who Will Finance Innovation?: [Electronic resource] / - 2020. URL: https://www.insead.edu/sites/default/files/assets/dept/globalindices/docs/GII-2020-report.pdf

143. Cornell University. The global innovation index 2022: Effective innovation policies for development: [Electronic resource] / - 2022. URL: https://www.wipo.int/edocs/pubdocs/en/wipo-pub-2000-2022-appendix1-en-appendix-i-global-innovation-index-2022-15th-edition.pdf

144. Diana Farrell.The real new economy. Harvard Business Review: [Electronic resource] – October, 2003 URL: https://hbr.org/2003/10/the-real-new-economy

145. Dillip, D. Planning for balanced regional development / D.Dillip, S.Sanjaykumar, K.W.Kalyani – Germany: Lambert Academic Publishing, - 2013. 148 p.

146. Enright, M.J. Survey on The Characterization of Regional Clusters: Initial Results, Institute of Economic Policy and Business Strategy: Competitiveness Program // University of Hong Kong, - 2000. - 25 p.

147. Ferreira, M.P, Reis, N.R, Pinto, C.F (2017) Schumeter's influence on entrepreneurship and managment // - Portugal: Research Revista de Empreendedrismo e Gestao de Pequnas Empresas, - 2017. №1, - p. 4-39.

148. Freeman, C. The National System of Innovation in Historical Perspective // - London: Cambridge Journal of Economics, - 1995. №19, - p. 34-42.

149. Gupta, P. Business innovation in the 21st Century / P.Gupta - Booksurge Publishing, - 2007. – 406 p.

150. İmanova, M., Babayev, P. İn terms of investment locational advantages and disadvantages of Turkey // Proceedings of the 9th International Scientific and Practical Conference. Ottawa, Canada, - 2021.

151. Labidi, M.A. The foundations of balanced regional development policy: the case of Tunisia: [Electron resource] / - Las Vegas: Macrothink Institute,

İnternational Journal of Regional Development, - 2018. Vol.5(2), - p.20-40. URL: http://dx.doi.org/10.5296/ijrd.v5i2.13420

152. Langroodi, F.E. Schumpeter’s Theory of Economic Development: A study of the creative destruction and entrepreneurship effects on the economic growth // - Canada: Journal of Insurance and Financial Management, - 2021. №3, - p.65-81.

153. Manisha. Role of entrepreneur in balanced regional development of industries // - İndia: Journal of Advances and Scholarly Researches in Allied Education, Multidisciplinary Academic Research, - 2018. Vol.15, №11, - p. 191-194.

154. Musayev, A.E. The effect of innovation on entrepreneurial activities: the case of Azerbaijan // Current issues and prospects for the development of scientific research, - Orleans. France: InterConf, - April, - 2023, - p.10-18.

155. Musayev, A.E. The influence of entrepreneurial activity on economic development of country // - Kiev: Инвестици: практика та досвид – 2023. №9, - p. 104-108

156. Musayev, A.E. The role of entrepreneurship in ensuring regional development // Реформування міжнародних економічних відносин і світового господарства в сучасних умовах, - Львів-Торунь: Liha-Pres, – 2023, - p. 57-60

157. Rana, R. Policy initiative for balance regional development and growth // - Augustmuni: Theoretical Economics Letters, - 2018. Vol.8(14), - p.3034-3045.

158. Seppa, M. From Business Administration to Business Creation: The Case of The Kalevala Global Business Creation School: [Electronic resource] / Technology Innovation Management Review, - 2012. URL: http://timreview.ca/article/562

159. The global entrepreneurship index 2018 / J.A.Zoltan, S.Laszlo, L.Esteban [et al.] – Switzerland: Springer Cham, - 2018. – 91 p.

160. Voloshenko, K., Kuznetsova, A. The balance model of regional development management in certain territorial conditions: development and application // - St. Petersburg: Journal “Baltic Region”, - 2014. №3, - p. 4-21.

161. What is Entrepreneurship? Meaning, Types, Characteristics: [Electron resource] / - 2022. URL: https://byjus.com/commerce/what-is-entrepreneurship/

162. Yashar, S., Eren, M. İnterregional social development differences and regional social development determinants in Turkey // - Netherlands: GeoJournal, - 2022. № 87(4), - p. 2209-2225